RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 139 (9884) 10 iyul 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Dostluq və qardaşlığa əsaslanan strateji tərəfdaşlıq

◆ Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri



## Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gedib.**

AZƏRTAC xəbər verir ki, Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident Divanının rəhbəri Şeyx Mansur bin Zayed Əl Nəhyan və digər rəsmi şəxslər qarşıladılar.

## Azərbaycan Prezidenti İlham Əliyevin Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti ilə görüşü olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 9-da Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dostluq və qardaşlığa əsaslanan Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığı, siyasi münasibətlərimizin yüksək səviyyədə olduğu, iqtisadi-ticari əməkdaşlığın inkişaf etdiyi vurğulandı.

Prezident İlham Əliyevin bu ilin yanvarında Birləşmiş Ərəb Əmirliklərinə, Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın isə Azərbaycana səfərləri məmnunluqla xatırlandı, həmin səfərlər zamanı müxtəlif sahələri əhatə edən ikitərəfli gündəliyimizlə bağlı geniş müzakirələrin aparıldığı qeyd olundu.

Görüşdə ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparıldı, enerji, o cümlədən bərpaolunan enerji sahəsində ölkələrimiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu və bu istiqamətdə perspektiv layihələr müzakirə edildi.

SOCAR-la ADNOC, həmçinin ölkəmizlə "Masdar" şirkəti arasında bərpaolunan enerji sahəsində əməkdaşlıqdan məmnunluq bildirildi.

Söhbət zamanı İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi şəhərində keçirilmiş Zirvə görüşünün əhəmiyyətinə toxunuldu və Birləşmiş Ərəb Əmirliklərinin bu tədbirdə yüksək səviyyədə təmsil olunması təqdir edildi.

Sonra prezidentlərin iştirakı ilə "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" imzalandı.

Görüşün sonunda dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə xatirə hədiyyəsi təqdim etdi.

## İkitərəfli görüş keçiriləcək



Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında davam edən sülh prosesi çərçivəsində iyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında ikitərəfli görüş keçiriləcək.

*Prezidentin Mətbuat Xidməti*

## Əbu-Dabidə sülh danışıqlarının növbəti mərhələsi

### Liderlərin görüşü tərəflərin barışa bir qədər də yaxın olduqlarını göstərir

Beş ilə yaxındır ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində danışıqlar gedir. Azərbaycan qalib ölkə kimi prosesə sadiqliyini dəfələrlə isbatlasa da, Hayastan məğlub ölkə olmasına baxmayaraq, bu müddət ərzində dondan-dona girməklə sülh sazişini imzalamaqdan yayınırdı. Sülh danışıqlarının hələ də nəticəsiz qalması isə bölgədə təhlükəsizliyin təminatını sual altında qoyurdu.

İkinci Qarabağ müharibəsindən sonra tərəflər arasında sülh müqaviləsinin imzalanması üçün bir çox beynəlxalq təşkilat və bəzi dövlətlər vasitəçilik missiyasını üzərilərinə götürsələr də, uğurlu nəticələr əldə edilmədi. Baş verən proseslər göstərdi ki, sülh sazişi ilə bağlı danışıqlar yalnız iki dövlət arasında aparılmalıdır. Yəni vasitəçiyə ehtiyac yoxdur.

Xatırladaq ki, hələ 2022-ci ildə Praqada keçirilmiş Avropa Siyasi Birliyinin sammiti çərçivəsində dövlət başçıları arasında keçirilən görüşdə Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağı Azərbaycanın suveren ərazisi kimi tanıdığını bəyan edib. Bu bəyanat uzun illər Ermənistanı dəstəkləyən, onu silahlandıran tərəflər üçün gözlənilməz addım olsa da, tərəfləri sülhə bir qədər də yaxınlaşdırıb. Bundan sonra Azərbaycan sülh müqaviləsinin şərtlərini hazırlayaraq İrəvana təqdim edib. Bu müddətədək Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin 17 maddəsindən 15-i razılaşdırılıb. Yalnız qarşılıqlı iddialardan çəkinmə, eləcə də sərhədimizə kənar qüvvələrin yerləşdirilməməsi ilə bağlı maddə razılaşdırılmayıb. Yəni sülh müqaviləsinin qısa zaman kəsiyində imzalanması mümkündür.

3

## Zəfər diplomatiyası

### İlham Əliyevin müstəqil xarici siyasəti sayəsində Azərbaycanın müasir tarixinin qürurlu və şərəfli dövrü yazılır

Bu gün İlham Əliyev şəxsiyyətinə, liderliyinə, geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, o, təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, ümumiyyətlə, dünya miqyasında tanınan qlobal liderliyi etiraf olunan şəxsiyyətdir. Elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud qlobal problemlərin həlli yolları barədə fikirlər səsləndirməsin, təkliflərini irəli sürməsin. Yəni İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq, dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Buna misal olaraq İlham Əliyevin Qoşulmama Hərəkatının Sədri kimi irəli sürdüyü təşəbbüsləri, mühüm təklifləri göstərmək olar.

4

## "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 68-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 194** **Bakı şəhəri, 3 iyul 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 68-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I); 2024, № 1, maddələr 110, 111, № 3, maddə 359, № 5 (II kitab), maddələr 597, 606, № 9, maddə 1067; 2025, № 2, maddə 193) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 7-ci hissəsinin 23-cü abzasında "Elektron hökumət" portalında" sözləri "Elektron Hökumət İnformasiya Sistemində" sözləri ilə əvəz edilsin.

2."Kredit tarixçələrini təşkil edən neqativ məlumatların "Elektron hökumət" portalında yerləşdirilməsi, yenilənməsi və kredit büroları tərəfindən əldə edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 27 iyul tarixli 308 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1505 (Cild I); 2024, № 9, maddə 1083) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında və 2-ci hissəsində "Elektron hökumət" portalında" sözləri "Elektron Hökumət İnformasiya Sistemində" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Kredit tarixçələrini təşkil edən neqativ məlumatların "Elektron hökumət" portalında yerləşdirilməsi, yenilənməsi və kredit büroları tərəfindən əldə edilməsi Qaydası"üzrə:

2.2.1. adında "Elektron hökumət" portalında" sözləri "Elektron Hökumət İnformasiya Sistemində" sözləri ilə əvəz edilsin;

2.2.2. 1.1-ci bənddə "Elektron hökumət" portalında (bundan sonra - Portal)" sözləri "Elektron Hökumət İnformasiya Sistemində (bundan sonra - EHİS)"sözləri ilə əvəz edilsin;

2.2.3. Qaydanın mətni üzrə ismin müvafiq hallarında "Portal" sözü ismin müvafiq hallarında"EHİS" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 621 nömrəli Qərarı ilə təsdiq edilmiş "İşsizlikdən sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatın təqdim olunması Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 200** **Bakı şəhəri, 4 iyul 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 101-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 621 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2566 (Cild I) ilə təsdiq edilmiş "İşsizlikdən sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatın təqdim olunması Qaydası"nın 4.1-ci bəndinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 6.2.11-ci maddəsinə uyğun olaraq sığortaedənlər bu barədə hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq, sığortaedən Azərbaycan Respublikasında fəaliyyətini müvəqqəti dayandırdıqda, habelə ləğv edildikdə, yaxud sığortaedənin fəaliyyətinə xitam verildikdə bu barədə müvafiq ərizədə (arayışda) göstərildiyi tarixdən 30 gün müddətində, lakin hesabatın təqdim edilməsi üçün həmin Qanunla müəyyən edilmiş müddətdən gec olmayaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən müəyyən edilmiş formada həmin Xidmətə hesabat verməlidirlər.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Daşınmaz abidələrin pasportlaşdırılması Qaydaları"nın və "Daşınmaz abidələrin pasportunun nümunəvi forması"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 201** **Bakı şəhəri, 8 iyul 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 16 may tarixli 200-VIIQD nömrəli Qanununun tətbiqi və "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 iyun tarixli 407 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Daşınmaz abidələrin pasportlaşdırılması Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

2."Daşınmaz abidələrin pasportunun nümunəvi forması" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi daşınmaz tarix və mədəniyyət abidələri ilə bağlı pasportların 1 (bir) il müddətində mədəniyyət sahəsində elektron məlumat sisteminə yerləşdirilməsini təmin etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## OPEC-in Baş katibi: "AZƏRTAC xəbər agentliyinə media tərəfdaşlığına görə təşəkkür edirəm"

**Azərbaycan mediasının AZƏRTAC vasitəsilə bu tədbirdə iştirak etməsindən, panel və müzakirələri, ümumilikdə bütün prosesi işıqlandırmasından böyük qürur duyuruq.**

AZƏRTAC xəbər verir ki, bu sözləri OPEC-in Baş katibi Haysam Əl-Qays Dövlət İnformasiya Agentliyi ilə qurulmuş media tərəfdaşlığı barədə bildirib. "AZƏRTAC Dövlət İnformasiya Agentliyinə OPEC-lə media tərəfdaşlığı edərək, 9-cu OPEC Beynəlxalq Seminarını işıqlandırdığına görə təşəkkürümü bildirmək istəyirəm", - deyən Baş katib bu əməkdaşlığın gələcəkdə davamlı olacağına ümid ifadə edib.




Qeyd edək ki, 9-10 iyul tarixlərdə Vyanada keçirilən 9-cu OPEC Beynəlxalq Seminarı qlobal enerji sahəsində aparıcı beynəlxalq tədbirlər sırasında yer alır və enerji sahəsinin yüksəksəviyyəli nazirlərini və liderlərini bir araya gətirərək qlobal enerji sektorunun əsas mövzularını müzakirə etməyə xidmət edir.

# Diplomatik xidmət orqanları rəhbərlərinin IX müşavirəsinin Xankəndidə xüsusi sessiyası keçirilib

**Diplomatik xidmət orqanları rəhbərlərinin "Azərbaycanın xarici siyasəti suverenliyin bərpasından sonra: prioritetlər və çağırışlar" mövzusunda IX müşavirəsinin Xankəndi şəhərində xüsusi sessiyası keçirilib.**






AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, nümayəndə heyəti əvvəlcə Xankəndi şəhərinin mərkəzi hissəsi ilə tanış olub. Prezidentin xüsusi nümayəndəliyinin əməkdaşları onlara Xankəndi şəhərində həyata keçirilən quruculuq işləri barədə məlumat veriblər.

Diplomatik xidmət orqanlarının rəhbərləri sonra Qarabağ Universiteti ilə tanış olublar.

"Azərbaycanın xarici siyasəti suverenliyin bərpasından sonra: prioritetlər və çağırışlar" mövzusunda diplomatik xidmət orqanlarının rəhbərlərinin IX müşavirəsinin Xankəndi şəhərində xüsusi sessiyası keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin rəhbər heyəti, xarici ölkələrdə akkreditə olunmuş diplomatik nümayəndəlik və konsulluqların rəhbərləri, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəliyinin əməkdaşları iştirak ediblər.

Sonda universitetin İncəsənət fakültəsinin müəllim və tələbələrinin konserti olub.

# Diplomatik xidmət orqanlarının rəhbərləri Şuşa şəhəri ilə tanış olublar







**Diplomatik xidmət orqanları rəhbərlərinin IX müşavirəsi çərçivəsində Xankəndidə keçirilən xüsusi sessiyanın iştirakçıları Azərbaycan tarixinin və mədəniyyətinin simvolu olan Şuşa şəhərinə səfər ediblər.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, nümayəndə heyəti əvvəlcə Şuşa şəhərində birinci yaşayış kompleksində yaradılan şəraitlə tanış olub. Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bildirib ki, təməli 2021-ci ildə qoyulan yaşayış kompleksinin açılışı 2024-cü il mayın 10-da olub. Bütün evlər gözəl memarlıq üslubunda - Şuşanın ənənəvi üslubunda inşa edilib. İyirmi üç binadan ibarət yaşayış kompleksində sakinlərin rahat yaşaması üçün hər cür şərait yaradılıb. 376 keçmiş məcburi köçkün ailəsi doğma şəhərinə qayıdaraq yaşayış kompleksində məskunlaşıb.

Merdinli məhəlləsinə gələn nümayəndə heyətinə məlumat verilib ki, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri memarlıq abidələri ilə yanaşı, həm də məhəllələri ilə tanınıb. Qədim Şuşada 17 məhəllə olub. XVIII əsrin sonları - XIX əsrin əvvəllərində salınmış Merdinli məhəlləsi şəhərin mərkəzi hissəsində yerləşir. Merdinli məhəlləsindən bir çox tanınmış şəxsiyyətlər çıxıb. Şuşa şəhərinin digər tarixi məkanları kimi, Merdinli məhəlləsi də erməni vandalizminə məruz qalıb. XIX əsrdə inşa edilən "Şirin su" hamamı və məşhur tarzən Sadıqcanın evi də Merdinli məhəlləsindədir.

Azərbaycanın xarici ölkələrdə akkreditə olunmuş diplomatik nümayəndəlik və konsulluqlarının rəhbərləri sonra Aşağı Gövhər ağa məscidinə gəliblər. Məlumat verilib ki, Şuşa şəhəri işğal altında olduğu illərdə erməni vandalizminə məruz qalmış Aşağı Gövhər ağa məscidində aparılan bərpa işləri başa çatıb. XIX əsrdə Kərbəlayi Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn Aşağı Gövhər ağa məscidi İbrahim xanın qızı Gövhər ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır. Aşağı Gövhər ağa məscidi şəhərin tarixi-memarlıq rəmzlərindən biridir.

Nümayəndə heyəti Şuşa şəhərinin Qarabağ küçəsində həyata keçirilən tikinti işləri ilə də tanış olub. Məlumat verilib ki, bu küçədə dövlət-özəl tərəfdaşlığı layihələri çərçivəsində ümumilikdə müxtəlif təyinatlı 10 binanın inşası aparılıb. İnşa olunan binalar arasında mehmanxana, ofislər, iaşə obyektləri var. Tikinti işləri şəhərin ümumi görünüşünə uyğun həyata keçirilib. Binaların tikintisində Şuşa daşlarından istifadə olunaraq, Şuşanın tarixi-mədəni abidələrinə uyğunlaşdırılıb. Bu binaların inşası tarixi Azərbaycan şəhəri olan Şuşanın inkişafı istiqamətində atılan addımların bir hissəsidir.

Sonda Cıdır düzünə gələn diplomatik xidmət orqanlarının rəhbərləri buradan açılan təbiət mənzərəsini seyr ediblər.

# Əbu-Dabidə sülh danışıqlarının növbəti mərhələsi

## Liderlərin görüşü tərəflərin barışa bir qədər də yaxın olduqlarını göstərir

**Bu gün Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Əbu-Dabi şəhərində Azərbaycan ilə Ermənistan arasında davam edən sülh prosesi çərçivəsində Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında ikitərəfli görüş keçiriləcək. Bu barədə Azərbaycan Prezidentinin Mətbuat xidməti məlumat yayıb.**



Beş ilə yaxındır ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində danışıqlar gedir. Azərbaycan qalib ölkə kimi prosesə sadiqliyini dəfələrlə isbatlasa da, Hayastan məğlub ölkə olmasına baxmayaraq, bu müddət ərzində dondan-dona girməklə sülh sazişini imzalamaqdan yayınırdı. Sülh danışıqlarının hələ də nəticəsiz qalması isə bölgədə təhlükəsizliyin təminatını sual altında qoyurdu.

İkinci Qarabağ müharibəsindən sonra tərəflər arasında sülh müqaviləsinin imzalanması üçün bir çox beynəlxalq təşkilat və bəzi dövlətlər vasitəçilik missiyasını üzərilərinə götürsələr də, uğurlu nəticələr əldə edilmədi. Baş verən proseslər göstərdi ki, sülh sazişi ilə bağlı danışıqlar yalnız iki dövlət arasında aparılmalıdır. Yəni vasitəçiyə ehtiyac yoxdur.

Xatırladaq ki, hələ 2022-ci ildə Praqada keçirilmiş Avropa Siyasi Birliyinin sammiti çərçivəsində dövlət başçıları arasında keçirilən görüşdə Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağı Azərbaycanın suveren ərazisi kimi tanıdığını bəyan edib. Bu bəyanat uzun illər Ermənistanı dəstəkləyən, onu silahlandıran tərəflər üçün gözlənilməz addım olsa da, tərəfləri sülhə bir qədər də yaxınlaşdırıb. Bundan sonra Azərbaycan sülh müqaviləsinin şərtlərini hazırlayaraq İrəvana təqdim edib. Bu müddətədək Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin 17 maddəsindən 15-i razılaşdırılıb. Yalnız qarşılıqlı iddialardan çəkinmə, eləcə də sərhədimizə kənar qüvvələrin yerləşdirilməməsi ilə bağlı maddə razılaşdırılmayıb. Yəni sülh müqaviləsinin qısa zaman kəsiyində imzalanması mümkündür. Bunun üçün ilk növbədə Ermənistan konstitusiyasında əksini tapan Azərbaycana qarşı ərazi iddiaları ləğv edilməlidir. Ermənistan referendum keçirməli və qonşu ölkələrə ərazi iddiaları olmadığını rəsmi sənədlə təsdiqləməlidir.

Azərbaycanın ikinci birmənalı şərti Minsk qrupunun ləğvi ilə bağlıdır. Azərbaycan reallıqdan çıxış edərək Ermənistana artıq ölü quruma çevrilmiş Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-ə birgə müraciət ünvanlamağa çağırış edib. Əbu-Dabidə keçiriləcək görüşdə bu məsələnin də müzakirə ediləcəyi gözlənilləndir.

Rəsmi Bakı sülhdə maraqlı olmaqla yanaşı, prosesin qalıcı olmasına xüsusi diqqət yetirir. Ermənistanın mövcud konstitusiyası isə yekun sülhün önündə başlıca maneədir. Konstitusiyanın bəzi maddələrində başda Azərbaycan olmaqla ətraf ölkələrə qarşı ərazi iddiaları yer alıb. Bakı gələcəkdə Ermənistanın hüquqi bəhanələri ilə sülh müqaviləsini pozmasını, üzərinə götürdüyü öhdəliklərdən yayınmasını istəmir.

Prezident İlham Əliyev həmçinin bəyan edib ki, Sovet İttifaqının süqutundan sonra ilk dəfədir Cənubi Qafqazda sülhə nail olmaq imkanı yaranıb. Bu da mümkündür - Azərbaycan və Ermənistan arasında sülh danışıqları çərçivəsində baş verən hadisələr, sülh müqaviləsinin bəndlərinin təqribən 80 faizinin razılaşdırılması bunu deməyə əsas verir.

Azərbaycan ümid edir ki, sülh danışıqlarının başlanmasına dair ölkəmizin təşəbbüsü sülh sazişinin imzalanması ilə nəticələnəcək. Bu isə təkcə Cənubi Qafqaz deyil, dünyanın bütün regionları üçün əhəmiyyətli olacaq. Bu, 30 il ərzində münaqişədə olmuş iki ölkənin birgə çalışaraq sülhə nail olmasının nümunəsi ola bilər.

Bu gün keçiriləcək görüş də yalnız iki dövlət arasında yox, regionda gedən proseslərə ciddi təsir göstərə bilər. Ermənistan Azərbaycanın təklif etdiyi məsələlərə ciddi və vaxtında yanaşarsa, sülhün imzalanması da tez bir zamanda reallaşar.

Xatırladaq ki, iyulun 8-də ABŞ Dövlət katibi Marko Rubio Ağ Evdə Prezident Donald Trampla birgə keçirilən iclasda Azərbaycanla Ermənistan arasında sülhdən danışıb: "Ümid edirəm ki, Azərbaycan və Ermənistan arasında sülh sazişi kifayət qədər tez bir zamanda əldə olunacaq. Hindistan və Pakistan arasında müharibənin qarşısını aldıq və sona çatdırdıq. Konqo Demokratik Respublikası ilə Ruanda arasında sülh sazişi, eyni zamanda Amerika əməliyyatı ilə sona çatan 12 günlük müharibə - biz dünyada bunu edə biləcək yeganə ölkəyik". Bu da onu təsdiqləyir ki, ABŞ də regionda sabitliyin təmin olunmasında çox maraqlıdır.

Əbu-Dabidə ikitərəfli görüş tərəfləri sülhə bir qədər də yaxınlaşdıra bilər. Ermənistan rəhbərliyi İlham Əliyevin irəli sürdüyü şərtlərə tez bir zamanda əməl edəcəyinə söz verərsə və əməldə də bunu isbatlayarsa, regionda yeni dövr başlaya bilər. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, sülh qarşılıqlı etimad, ölkələr arasında qarşılıqlı hörmət və fayda əsasında münasibətlərin formalaşmasına zəmin yaratmalıdır. Azərbaycan davamlı və möhkəm sülhün yaranmasına çalışır, o cümlədən Ermənistandan da eyni münasibəti gözləyir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Sürətli inkişafı və güclü sosial rifahı təmin edən siyasət



**Azərbaycanın yüksəlişinin əsas xarakterik göstəricilərindən biri regionların sürətli inkişafıdır. Cənab Prezident İlham Əliyevin diqqət və qayğısının, təsdiq etdiyi dövlət proqramlarının icrası nəticəsində ötən 20 ildən artıq dövrdə respublikamızın regionlarının iqtisadi potensialı hərəkətə gətirilmiş, genişmiqyaslı abadlıq və quruculuq işləri həyata keçirilmişdir. Tarazlı inkişaf, çoxsaylı yeni istehsal müəssisələrinin, müasir nəqliyyat və sosial infrastrukturların yaradılması, əhalinin məşğulluğu üçün imkanların təmin olunması bu dövrün əsas inkişaf reallıqlarıdır.**

Olduqca qürurvericidir ki, bu gün Azərbaycanın hansı rayonuna, hansı şəhərinə və hansı kəndinə getsək inkişafın şahidi oluruq. Milli Məclisdə təmsil etdiyim Quba, Xızı və Siyəzən rayonları da inkişaf nümunələri ilə zəngindir. Prezident İlham Əliyevin hər səfəri bu rayonların tarixində dərin iz buraxıb, onların inkişafına, o cümlədən turizm potensialının hərəkətə gətirilməsinə təkan verib. Bu gün də ölkəmizin hər bir bölgəsində olduğu kimi, bu ərazilərdə də genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. Dövlətimizin başçısı tərəfindən bu yaxınlarda imzalanmış sərəncama əsasən, Quba rayonundakı Çiçi-Səbətlər-Qənidərə-Sırt Çiçi-Təngəaltı avtomobil yolunun əsaslı şəkildə yenidən qurulması üçün ilkin olaraq 1,5 milyon manat vəsait ayrılmışdır. Bu yol ümumilikdə 12 yaşayış məntəqəsini əhatə edir və 7 minədək əhalinin həyat keyfiyyətinin yüksəlməsinə xidmət edəcək.

Böyük məmnunluqla qeyd etməliyik ki, bu, təkcə bir yolun çəkilməsi deyil - dövlətin bölgələrə, insanlara, rifaha və gələcəyə verdiyi önəmin bir təzahürüdür. Bu cür layihələr sübut edir ki, Azərbaycanın sosial-iqtisadi inkişaf kursu balanslı və dayanıqlı, sosial dövlət modelinə uygun şəkildə davam edir.

Bu yaxınlarda Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın Xızı rayonuna səfəri bu bölgəyə olan diqqət və qayğının bariz nümunəsidir. Onlar müxtəlif sosial layihələrin icrasına təşəbbüs etməklə yanaşı, yerli sakinlərlə də səmimi görüşlər keçirmiş, insanların problemləri və ehtiyacları ilə birbaşa maraqlanmışlar.

Səfər çərçivəsində Altıağac Milli Parkında yerləşən Vəhşi Heyvanların Reabilitasiya Mərkəzində vəhşi quşların təbiətə qaytarılması prosesi icra olunmuşdur. Bu tədbir təkcə ekologiyaya deyil, gələcək nəsillərin ana təbiətə olan münasibətinə verilən töhfə kimi də dəyərləndirilməlidir.

Bundan əlavə, hörmətli Leyla xanım və Arzu xanım Xızı Uşaq-Gənclər İdman Şahmat Məktəbinin açılışında iştirak ediblər. Giləzi qəsəbəsində 100-ə yaxın məktəbli ilə görüşərək, onlara futbol topları və idman geyimləri hədiyyəsini çatdırıb, şagirdlərin təhsil və idman nailiyyətləri ilə maraqlanıblar.

Onların təşəbbüsü və TƏBİB-in təşkilatçılığı ilə Xızı rayonunda əhalinin sağlamlığının qorunması məqsədilə səyyar tibbi xidmətlərə start verilib. Bu çərçivədə Xızı Rayon Mərkəzi Xəstəxanasına yeni verilmiş tam təchizatlı təcili yardım avtomobilləri ilə Altıağac, Baxışlı, Giləzi və Ağdərə kəndlərində tibbi müayinələr həyata keçirilir. Avtomobillər kardiomonitor, defibrilyator, mobil USM, rəqəmsal rentgen kimi müasir avadanlıqlarla təmin olunub. Bu xidmətlər vətəndaşlara yerində tibbi yardım göstərilməsinə və profilaktik tədbirlərin gücləndirilməsinə byöük töhfə verir.

Leyla Əliyevanın və Arzu Əliyevanın səfəri zamanı şəhid ailələri, ahıllar və aztəminatlı ailələrlə keçirilən görüşlər isə dövlətimizin sosial siyasətində insan amilinin nə qədər öndə tutulduğunu bir daha sübut edir. Bu fəaliyyətlər - dövlət və cəmiyyət arasında körpü rolunu oynayan insani dəyər nümunəsidir.

Onu da əlavə etmək istərdim ki, Quba, Xızı və Siyəzəndə yerli hakimiyyət orqanları öz vəzifələrini və məsuliyyətlərini düzgün qiymətləndirirlər. Daxili imkanlar hesabına abadlıq və quruculuq işlərinin aparılması, yolların təmir olunması seçicilər tərəfindən yüksək qiymətləndirilir.

Olduqca mühüm vəzifələrin yerinə yetirildiyi, o cümlədən Qarabag və Şərqi Zəngəzurun sürətli bərpa və quruculuğunun həyata keçirildiyi bir zamanda bütün bölgələrdə yaşayan vətəndaşlara göstərdiyi yüksək diqqət və qaygıya görə seçicilərimiz Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirirlər.

*Müşfiq MƏMMƏDLİ,*
*Milli Məclisin deputatı*

# "Zəngəzur dəhlizi türk dünyasını birləşdirən arteriyaya, bir dəyər zəncirinə çevriləcək"

"Zəngəzur dəhlizi həm regional, həm də qlobal əhəmiyyət kəsb edən bir layihədir. Ümumiyyətlə, bu dəhlizin əhəmiyyətini, mahiyyətini bir neçə aspektdən dəyərləndirmək daha doğru olar".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Strateji planlaşdırma şöbəsinin müdiri Aqil Əsədov deyib. Onun sözlərinə görə, ilk növbədə Zəngəzur dəhlizi ölkəmizin ayrılmaz hissəsi olan Naxçıvanla quru bağlantısını təmin etməklə, Naxçıvanın uzun illər blokadada olması, Azərbaycanın əsas hissəsindən ayrı düşməsi kimi problemləri aradan qaldıracaq: "İkinci tərəfdən, bu dəhliz işğaldan azad olunmuş ərazilərin inkişafı baxımından önəmlidir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları dövlət başçısı tərəfindən "yaşıl enerji" zonası elan edilib. İşğaldan azad edilmiş ərazilərdə olan "yaşıl enerji" ehtiyatlarının Zəngəzur dəhlizi vasitəsilə Türkiyə üzərindən Avropa bazarına çıxışı mümkündür ki, bu da dəhlizin əhəmiyyətini bir daha qabardır. Dəhliz işğaldan azad olunmuş ərazilərdən yalnız "yaşıl enerji" məhsullarının ixrac edilməsi baxımından deyil, ümumilikdə regionun inkişafı baxımından önəmlidir".

A.Əsədovun sözlərinə görə, Zəngəzur dəhlizinin açılması Orta dəhlizin daşıma gücünün illik 10-12 milyon ton artmasına imkan verəcək: "Ona görə ki, bu dəhliz Çindən gələn yüklərin Azərbaycan-Gürcüstan-Türkiyə üzərindən Avropaya çıxış marşrutuna alternativ olaraq Naxçıvandan keçməklə qardaş ölkə üzərindən Avropaya çatdırılmanı təmin edəcək".



Şöbə müdiri bildirib ki, Zəngəzur dəhlizi Azərbaycanın nəqliyyat potensialı imkanlarını daha da genişləndirəcək: "Zəngəzur dəhlizi həmçinin Türk Dövlətləri Təşkilatını birləşdirən bir xətt olacaq, çünki Orta dəhlizin əhatə etdiyi təşkilat artıq Zəngəzur dəhlizindən Türkiyəyə keçməklə bağlantı yaratmış olacaq. Başqa sözlə, Zəngəzur dəhlizi Orta dəhlizə inteqrasiya olunmaqla türk dövlətlərini birləşdirən arteriyaya, bir dəyər zəncirinə çevriləcək. Dəhliz üzərində yerləşən ayrı-ayrı ölkələr bu dəyərin formalaşmasına istər emal, istər qablaşdırma, istərsə də saxlama və yolasalma xidmətləri ilə öz qatqılarını verəcəklər. Yəni Zəngəzur dəhlizinə həm işğaldan azad olunmuş ərazilərin enerji imkanlarının dünya bazarlarına çıxarılması istiqaməti kimi, həm Qarabağ və Şərqi Zəngəzurda istehsal olunan məhsulların daha geniş bazarlara çatdırılması, o cümlədən Naxçıvan-Türkiyə üzərindən Avropaya ixrac edilməsi imkanları kontekstindən yanaşmalıyıq".

Ermənilərin havadarları vasitəsilə zaman-zaman Azərbaycan torpaqlarını bu və digər formada özününküləşdirməyə çalışdığını vurğulayan A.Əsədov xatırladıb ki, Zəngəzur deyilən ərazi də Azərbaycana məxsus tarixi torpaqlardır: "Zəngəzur dəhlizinin açılması həm də Azərbaycanın tarixi ərazilərdən istifadə hüququnun bərpa olunması deməkdir, yəni Azərbaycan o ərazilərdən yoxlamalara məruz qalmadan, tam maneəsiz şəkildə Naxçıvana gediş-gəlişi təmin edəcək".

Şöbə müdiri qeyd edib ki, bu dəhliz yalnız region ölkələri üçün deyil, ümumilikdə dünyanın marağında olan layihə kimi diqqəti cəlb edir. "İstər Avropa dövlətləri, istər dünyanın yük mərkəzi olan Çin, istərsə də okeanın o tayından ABŞ Zəngəzur dəhlizini, Orta dəhlizi dəstəkləyir. Bunlar dünya dövlətlərinin inkişafını, onların regional və qlobal inteqrasiyasını təmin edən nəqliyyat layihələridir. Nəqliyyat layihələri nə qədər çox olarsa, dövlətlər bu layihələr vasitəsilə bir-birinə nə qədər bağlı olarsa, bu, ölkələr arasında iqtisadi inteqrasiyanı, ticarət münasibətlərini daha da inkişaf etdirər. Nəticədə həm ayrı-ayrı ölkələrin malik olduğu resurs üstünlüklərinin bərabər paylanması təmin olunar, ümumilikdə ölkələrin iqtisadi tərəqqisi reallaşar. Həmçinin ABŞ şirkətləri bu dəhliz üzərindən "yaşıl enerji" imkanlarının Avropaya nəqli ilə bağlı investisiya qoymaq arzusundadır. Bu məsələlər də "yaşıl enerji" məkanı kimi işğaldan azad olunmuş ərazilərin əhəmiyyətini ifadə edir", - deyə o, əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# XİN: İranın Ermənistandakı səfirinin Xankəndi Zirvə görüşünün yekun sənədi ilə bağlı iddiaları qəbuledilməzdir

**İran İslam Respublikasının Ermənistan Respublikasındakı səfiri Mehdi Sobhaninin İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Xankəndi şəhərində keçirilmiş 17-ci Zirvə görüşünün yekun sənədi ilə bağlı iddiaları qəbuledilməzdir.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə İranın Ermənistandakı səfirinin İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi Zirvə görüşünün yekun sənədi ilə bağlı iddialarını şərh edərkən deyib.

O, İran İslam Respublikasının səfirinin diqqətinə çatdırıb ki, Zirvə görüşünün nəticələrinin əks edildiyi Xankəndi Kommünikesi ECO üzvü olan dövlətlərlə əvvəlcədən razılaşdırıldığı kimi, əvvəlki Zirvə görüşlərinin təcrübəsinə uyğun olaraq, üzv dövlətlərlə razılaşdırılmasına ehtiyac yaranmadan sammitin sədrinin xülasəsi formatında tərtib edilərək təşkilatın rəsmi internet səhifəsində dərc olunub.

Bu halda İran səfirinin guya Xankəndi Kommünikesinin qəbul olunması və İran tərəfinin ona qeyd-şərt qoyması barədə iddiaları real vəziyyəti əks etdirmir. Diplomatik praktikada qeyd-şərt yalnız danışıqlar nəticəsində qəbul edilmiş qərarlara münasibətdə verilə bilər.

"Həqiqət budur ki, İran İslam Respublikası da daxil olmaqla, ECO-nun bütün üzvləri İslam Əməkdaşlıq Təşkilatının da üzvləridir və İran da daxil olmaqla, həmin dövlətlərin hamısı iyunun 21-22-də İstanbulda keçirilmiş ECO Nazirlər Şurasının 51-ci sessiyasının yekununda danışıqlar nəticəsində qəbul edilən "Hazırkı Ermənistan ərazilərindən zorla və sistematik şəkildə didərgin salınmış azərbaycanlıların qayıdış hüququ" adlı qətnamədə və həmin sessiyanın yekun siyasi sənədi olan İstanbul Bəyannaməsində Qərbi Azərbaycan İcmasının öz yurdlarına ləyaqətli qayıdış hüququna dəstəyini ifadə edib, habelə Ermənistan tərəfindən sözügedən icmanın hüquqlarının inkar olunmasını qınayıb", - deyə A.Hacızadə bildirib.

XİN sözçüsü qeyd edib ki, Xankəndi Kommünikesi isə ECO-nun məhz bu konsensusla qəbul olunmuş Bəyannaməsinə istinadı ehtiva edir.

"Bununla əlaqədar, İran səfirinin Ermənistanın "Armenpress" agentliyinə verdiyi müsahibədə səsləndirdiyi fikirlər siyasi manipulyasiya və riyakarlıqdan başqa bir şey deyil", - deyə o əlavə edib.

# Azərbaycanın xarici siyasətinin uğurları



# Zəfər diplomatiyası

## İlham Əliyevin müstəqil xarici siyasəti sayəsində Azərbaycanın müasir tarixinin qürurlu və şərəfli dövrü yazılır

**9 iyul Azərbaycanın diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd edildi. Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 106 illik yubileyinə həsr olunmuş rəsmi qəbulda beynəlxalq müstəvidə ölkəmizin maraqlarını qoruyan və təşviq edən diplomatların fəaliyyəti dəyərləndirildi, həmçinin qarşıdakı hədəflər üçün yol xəritəsi müəyyənlşdirildi. Azərbaycanın xarici siyasətinin uğurla təbliği üçün diplomatlar qarşısında ciddi tapşırıqlar qoyuldu.**

Müsəlman Şərqində ilk demokratik respublikanın yaradılmasında və müasir dövrdə müstəqil Azərbaycan dövlətinin qurulması prosesində milli diplomatiyanın rolunu nəzərə alaraq və 1919-cu il iyul ayının 9-da AXC Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimatın qəbul edildiyini əsas tutaraq 2007-ci il avqustun 24-də Prezident İlham Əliyev hər il iyul ayının 9-nun Azərbaycan diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilməsi haqqında sərəncam imzalayıb.

Azərbaycan diplomatiyası ilk addımlarını atarkən - 1919-cu ildə Bakıda 16 xarici dövlətin, o cümlədən ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, İsveç, İsveçrə, Belçika, İran, Polşa və Ukraynanın diplomatik nümayəndəlikləri fəaliyyət göstərib. Bu gün isə ölkəmizdə 90-a yaxın dövlətin və beynəlxalq təşkilatın nümayəndəliyi, 15-dən çox xarici dövlətin konsulluğu akkreditə olunub. Hazırda Azərbaycanın dünyanın 180-dən çox dövləti ilə diplomatik əlaqələri var.

Ümumiyyətlə, xarici siyasətin düzgün müəyyənləşdirilməsi və icrası dünyanın mürəkkəb, həssas bölgəsində - coğrafi baxımdan qərb və şərqin kəsişməsində, sivilizasiyaların qovuşma məkanında, strateji yanaşmalarda isə geosiyasi və geoiqtisadi maraqların kəsişmə nöqtəsində yerləşən Azərbaycan üçün həm ötən dövrlərdə, həm də indi müstəsna əhəmiyyətə malikdir. Belə ki, ölkəmiz milli maraqlarını, regionda aparıcı dövlət statusunu qorumaqla yanaşı, Qərb, islam ölkələri, türk dünyası və Müstəqil Dövlətlər Birliyinin siyasi iqtisadi-mədəni məkanları ilə qarşılıqlı faydalı münasibətlər qurur, beynəlxalq əməkdaşlığı və bərabərhüquqlu tərəfdaşlıq əlaqələrini genişləndirir. Bu gün Azərbaycanın siyasi və iqtisadi potensialı artıb, regionda söz sahibi olan dövlətə çevrilib, beynəlxalq siyasət səhnəsində nüfuzu və mövqeyi daha da möhkəmlənib. Bu nailiyyətlər vaxtilə Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi və hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kursun məntiqi nəticələridir.

Məhz bu siyasət nəticəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində rolu və nüfuzu getdikcə artdı. 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyünün ardınca ölkəmizin 2017-2019-cu illər üçün 176 səs lehinə olmaqla BMT-nin İqtisadi və Sosial Şurasına üzv seçilməsi, 2019-cu ildən etibarən isə dünyanın 120 ölkəsini birləşdirən Qoşulmama Hərəkatına sədrliyi öz üzərinə götürməsi xarici siyasətin nailiyyətləri kimi tarixə yazıldı.

Həyata keçirdiyi müstəqil siyasətlə Azərbaycanı tarixinin ən qədrətli dövlətinə çevirən Prezident İlham Əliyev hadisələri düzgün analiz etmə, dorğu qərar vermə bacarığı, uğurlu hücum diplomatiyası ilə ölkəmizi həm də dünyada etibarlı tərəfdaş kimi tanıtdı. Müasir dünyamızın acı reallıqları fonunda İlham Əliyev elə də böyük olmayan dövləti - Azərbaycanı beynəlxalq siyasətin subyektindən onun mühüm aktoruna çevirdi. Azərbaycan qısa zaman ərzində Aropanın enerji təhlükəsizliyinin təminatçısı statusuna sahibləndi.

Çoxvektorlu və ya balanslaşdırılmış xarici siyasət strategiyası Azərbaycanın markasına çevrildi, desək yanılmarıq. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və hər kəslə öz milli maraqlarına əsaslanan münasibət qurmağa yönəlmiş çoxtərəfli xarici siyasət kursu ilə Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanındı.

Təkcə son illərdə Azərbaycanın xarici siyasətinin uğurlarına nəzər yetirsək, aydın şəkildə görərik ki, ölkəmizlə müxtəlif sahələr üzrə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı artmaqdadır. Həmçinin Azərbaycan da bir çox böyük dövlətlərlə srtateji tərəfdaşlığını gücləndirməkdə maraqlıdır.

Əlbəttə ki, Azərbaycanın strateji tərəfdaşlıq etdiyi ölkələrin sayının artmasını, müttəfiqlərinin coğrafiyasının genişlənməsini şərtləndirən əsas amil isə İkinci Qarabağ müharibəsindəki Şanlı Zəfərimizdir.

Bu savaşa qədər İlham Əliyev 30 illik erməni işğalını, erməni vandalizmini dünyaya çatdırmaq istiqamətində hücum diplomatiyası həyata keçirdi və bu istiqamətdə xaricdəki bütün diplomatlarımız qarşısında ciddi tapşırıqlar qoydu. Elə bir mötəbər təşkilat olmadı ki, cənab İlham Əliyev o qurumların ali tribunasından Azərbaycan həqiqətlərini dünyaya bəyan etməsin. Əlbəttə ki, bu hücum diplomatiyasının uğurlu nəticəsi də olmalı idi. Azərbaycan liderinin 2003-cü ildən həyata keçirməyə başladığı xarici siyasət kursu və hücum diplomatiyası 17 ildən sonra, 2020-ci ildə böyük qələbə ilə nəticələndi. Azərbaycan haqq savaşını qazandı və 2023-cü ildə suverenliyini, ərazi bütövlüyünü tam təmin etdi.

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan regionda yeni reallıqlar yaratdı. Dünyanın əksər böyük dövlətləri İlham Əliyevin yaratdığı reallıqları yüksək qiymətləndirdi.

Bu gün İlham Əliyev şəxsiyyətinə, liderliyinə, geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, o, təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, ümumiyyətlə, dünya miqyasında tanınan qlobal liderliyi etiraf olunan şəxsiyyətdir. Elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud qlobal problemlərin həlli yolları barədə fikirlər səsləndirməsin, təkliflərini irəli sürməsin. Yəni İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq, dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Buna misal olaraq İlham Əliyevin Qoşulmama Hərəkatının Sədri kimi irəli sürdüyü təşəbbüsləri, mühüm təklifləri göstərmək olar.

Hazırda Azərbaycan böyük layihələrin təşəbbüskarı və iştirakçısı qismində regional əməkdaşlığı inkişaf etdirən və beynəlxalq nüfuza malik dövlətdir. Etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycanın xarici siyasət uğurları qonşu ölkələrlə və dünyanın digər dövlətləri ilə balanslaşdırılmış münasibətlərin qurulmasına, qarşılıqlı maraqlardan irəli gələn bərabər dialoq və əməkdaşlığın həyata keçirilməsinə əsaslanır. Regionun lider dövləti olan Azərbaycan bu gün dünya miqyasında sözünü deyən ölkələrdən biridir. Dünyanın kosmik ölkələr ailəsinin üzvü olan Azərbaycanın bu gün orbitdə 3 peyki mövcuddur. Dövlətimizin başçısı qlobal transmilli layihələrin müəllifi kimi Azərbaycanı "Şərq-Qərb", "Şimal-Cənub", Orta dəhliz kimi mühüm beynəlxalq nəqliyyat-tranzit layihələrinin fəal iştirakçısına çevirib. Onun müəllifi olduğu transmilli layihələr regionda tamamilə yeni mənzərə yaradıb. Azərbaycan Avropanın enerji xəritəsini yenidən tərtib edib.

Bütün sahələrdə əldə olunan uğurlar beynəlxalq təşkilatların hesabatlarında, nüfuzlu sosioloji mərkəzlər tərəfindən vaxtaşırı keçirilən rəy sorğularında təqdir olunur və respublikamızın davamlı inkişaf yolunda olduğu xüsusi vurğulanır.

Bir sözlə, yürütdüyü siyasətlə 22 il ərzində 200 illik erməni xülyasına, 30 illik münaqişəyə son qoyub. Azərbaycanın suverenliyini tam təmin edən, ölkəni qloballaşan dünyada təhlükəsizlik adasına çevirən bir siyasəti Zəfər diplomatiyası adlandırmaq olar.

Tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin müdrik dövlət başçısı kimi yüksək diplomatik istedadı və milli maraqlara əsaslanan xarici siyasəti sayəsində Azərbaycanın müasir tarixinin yeni və şərəfli erası yazılır. Lakin Prezidentin də söylədiyi kimi, qazanılan uğurlarla kifayətlənməməli və daha qüdrətli Azərbaycan naminə qarşıya qoyulan vəzifələrin icrası uğurla reallaşdırılmalıdır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Hücum diplomatiyası əzmlə davam etdirilir

**Prezident İlham Əliyevin 24 avqust 2007-ci il tarixli Sərəncamı ilə 9 iyul tarixi Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd edilir. Bu gün 106 yaşlı Azərbaycan diplomatiyası müzəffər lider, Prezident İlham Əliyevin rəhbərliyi altında özünün qızıl dövrünü yaşayır. Vətən müharibəsində və antiterror əməliyyatlarında qazanılan böyük Zəfərimiz hücum diplomatiyası müstəvisində də əzmlə davam etdirilir, regionda sülh və sabitlik uğrunda ləyaqətli mübarizə məhz ali siyasi iradənin direktivləri ilə diplomatlarımız tərəfindən ləyaqətlə icra olunur.**



Milli Məclisin deputatı Bəhruz Məhərrəmov "Azərbaycan" qəzetinə bildirib ki, Azərbaycan başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur və ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi özünün konstitusion niyyəti kimi bəyan edir. Azərbaycan beynəlxalq sülhün və sabitliyin qorunub saxlanmasına yönəlmiş birgə tədbirlərdə iştirak etməklə, beynəlxalq və regional təhlükəsizliyə töhfə vermək üçün davamlı səylər göstərərək konstitusion niyyətə sədaqətini davamlı şəkildə nümayiş etdirir. Ölkəmiz qlobal və regional səviyyədə terrorçuluğa qarşı mübarizə məqsədilə qəbul edilmiş bütün konvensiyaların iştirakçısı kimi qlobal təhlükəsizliyin təmin olunmasında iştirak edir, beynəlxalq təhlükəsizliyin təmin olunmasına yönəlmiş səyləri tam dəstəkləyir. Miqyas və nüfuzundan asılı olmayaraq, universal və regional beynəlxalq təşkilatların dünyada yaranan yeni təhdidlərlə mübarizədə getdikcə daha çox rol oynaya biləcəyinə ümid edərək cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin xarici siyasət kursunda Azərbaycanın beynəlxalq təşkilatların işində fəal iştirak etməsi onun təhlükəsizliyi və xarici siyasəti üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan hesab edir ki, beynəlxalq təşkilatlar təhdidlərin aradan qaldırılmasına və ya onların qarşısının alınmasına yardım etməklə yanaşı, ölkəmizin milli maraqlarının qlobal siyasətdə müdafiəsi üçün uğurlu platformaya çevrilə bilər. Eyni zamanda beynəlxalq təşkilatlar Azərbaycanın üzləşdiyi təhlükəsizlik problemlərinə tərəfdaş dövlətlərin diqqətini cəlb etmək üçün əlverişli forum rolunu oynayır. Təsadüfi deyil ki, hələ 2007-ci ildə qəbul edilən Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında universal və regional beynəlxalq təşkilatların mövcudluğu, inkişafı və müasir dünyada baş verən dəyişikliklərə uyğunlaşmasının ölkəmiz üçün əhəmiyyəti xüsusi qeyd edilir: "Azərbaycan 1992-ci ildən üzvü olduğu BMT-nin beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar olmasında, davamlı inkişafın və demokratikləşmənin qorunub saxlanmasında əvəzsiz rol oynadığını qəbul edir və BMT dəyərlərini bölüşərək insan hüquqları, iqtisadi və sosial sahələrdə həyata keçirilən müxtəlif proqramlar çərçivəsində BMT ilə əməkdaşlığı genişləndirir", - deyə Bəhruz Məhərrəmov əlavə edib.

Deputat qeyd edib ki, Azərbaycan XXI əsrin problem və təhdidlərinə səmərəli cavab vermək üçün BMT-nin iş qabiliyyətinin artırılması məqsədilə, o cümlədən beynəlxalq hüquq sisteminin möhkəmləndirilməsi və qəbul edilmiş qərarların icrasının təmini istiqamətində bu təşkilat daxilində islahatların aparılmasını dəstəkləyir. Ölkəmiz 2012-2013-cü illər üçün səsvermədə iştirak edərək 155 səslə BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlük hüququ qazanıb, 2012-ci il mayın 1-dən isə BMT TŞ-yə sədrlik edib.

Eyni zamanda Azərbaycan ATƏT-in yeni siyasi mühitdə oynadığı mühüm rolu nəzərə alaraq, təşkilatın səmərəliliyinin, xüsusən də onun prinsiplərinə riayət edilməsi istiqamətində bütün təşkilat üzvlərinin xoşməramlı niyyəti və fəal iştirakı şəraitində müvafiq islahatların aparılması yolu ilə onun rolunun artırılmasında maraqlı olduğunu nümayiş etdirib. Ölkəmiz habelə Avropa Şurası ilə əməkdaşlığı, Avropa xalqları ailəsinə inteqrasiyanı və Avropa standart və dəyərlərindən bəhrələnməni vacib istiqamət kimi müəyyən edib. Sivilizasiyalararası körpü rolunu oynayan Azərbaycan islam dünyasının tərkib hissəsi kimi İslam Konfransı Təşkilatı çərçivəsində fəaliyyətinə Qərb və Şərq mədəniyyətlərindən bəhrələnməklə dövlətlər və xalqlar arasında dialoqa töhfə vermə imkanı kimi yanaşıb. Habelə Müstəqil Dövlətlər Birliyi, "Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM", Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı kimi təsisatlar ilə əməkdaşlığa iqtisadi, siyasi, hüquqi və humanitar sahələrdə münasibətlərin inkişaf etdirilməsi potensialı kimi baxmaqdadır. "Məlumdur ki, tarixi proseslərin sonrakı gedişatı tam fərqli mənzərə və reallıqlar ortaya çıxarıb. Ələlxüsus Vətən müharibəsi və antiterror tədbirləri artıq tam yeni geosiyasi konfiqurasiya demək idi. 8 noyabr Zəfəri Azərbaycan tarixinin müstəsna mühüm hadisələrindən biri, son 200 illik tariximizdə isə xalqımızın əzmini, dövlətimizin qüdrətinin inikasını dolğun əks etdirən ən şanlı səhifəmizdir. Məhz Zəfərimizlə Azərbaycan cənab İlham Əliyevin liderliyində ermənilərə, son yüz ildə Ermənistana havadarlıq edən iri güclərə qalib gəlməklə regionun tarixi inkişaf konsepsiyasını dəyişdi. Ulu Öndər Heydər Əliyev hələ 1998-ci ilin 18 oktyabr tarixində baş tutan andiçmə mərasimində bəyan etmişdi ki, "Azərbaycanın sərhədlərinin bütövlüyü, ərazi bütövlüyü bizim üçün müqəddəsdir. Biz bütün vasitələrdən istifadə edib Azərbaycanın ərazi bütövlüyünün bərpasına nail olacağıq". Cənab İlham Əliyevin də 31 oktyabr 2003-cü ildə, andiçmə mərasimində Prezident kimi ilk çıxışında milli mənafe mövzusunda mövqeyi kifayət qədər korrekt oldu. "Bizim səbrimiz tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcəkdir". 200 illik regional düyünün açılması, 30 illik işğala son qoyulması və mütləq qələbəyə nail olunması üçün Prezident İlham Əliyevə cəmi 17 il lazım oldu", - deyə siyasətçi bildirib.

B.Məhərrəmov 17 il ərzində Prezident İlham Əliyevin Heydər Əliyev siyasi kursuna sadiq qalaraq, özünün hər addımı ilə bizi böyük Zəfərə daha da yaxınlaşdırdığını vurğulayıb. O xatırladıb ki, Azərbaycan regionun hərbi-siyasi gücünə çevrilərək dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşacaq ordu, 1200 adda hərbi təyinatlı məhsul istehsal edən nəhəng müdafiə sənayesi infrastrukturu yaratmağa nail olub.

Deputat 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsinin Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində zəfərlə sona çatdığını bildirib. Qeyd edib ki, İkinci Qarabağ müharibəsində işğala son qoymaqla, 2023-cü il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsinin təsis olunması ilə ərazi bütövlüyümüzü, sentyabrın 19-u isə suverenliyimizi tam bərpa etməklə Prezident İlham Əliyev Azərbaycan tarixinin heç bir dövründə heç bir liderə müyəssər olmayan geosiyasi reallıq yaratdı.

Deputat vurğulayıb ki, COP29-a evsahibliyi Azərbaycan diplomatiyasının daha bir uğuru, Azərbaycana böyük ehtiramın və ölkəmizdə "yaşıl enerji" siyasəti başda olmaqla, həyata keçirilən tədbirlərə münasibətin ifadəsi olduğu kimi, tədbirin yekunları da ölkəmizin diplomatiya tarixinin qızıl səhifəsi hesab olunmalıdır.

Siyasətçi deyib ki, bu gün qeyd olunanlar fonunda Azərbaycanın regionda hərbi-siyasi güc mərkəzi olmaqla yanaşı, həm də yeni geosiyasi konfiqurasiyada beynəlxalq münasibətlərin yol xəritəsinin formalaşmasında rol alan əhəmiyyətli güc olduğunu deyə bilərik. Bu prosesdə Azərbaycan diplomatiyasının rolu hər ötən gün özünü daha qabarıq formada göstərməkdədir.

Prezident İlham Əliyevin qətiyyətli xarici siyasət kursu, o cümlədən qazandığı çoxlu hərbi-siyasi qələbələr fonunda Azərbaycan diplomatları artıq beynəlxalq müstəvidə daha güclü tərəf və həlledici oyunçu kimi çıxış edərək tarixinin ən təsirli və ən qüdrətli dövrünə qədəm qoyub. Proseslərin gedişi göstərir ki, Azərbaycan Prezidentinin zamanında reallaşdırdığı çoxsaylı layihələr, o cümlədən müəyyən etdiyi xarici siyasət kursu konsepsiyası hələ uzun dövrlər ərzində bölgəmizdə sülhün, sabitliyin təminatçısı qismində çıxış edəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qarabağ və Şərqi Zəngəzur dirçəliş yolundadır

## İşğal izlərini dost dəstəyi əvəz edir

**Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, Prezident İlham Əliyevin dediyi kimi, cənnətə çevrilir. Üç onillik ərzində bu torpağın qoynuna erməni vandallarının vurduğu yaralar genişmiqyaslı və vüsətli tikinti-quruculuq işləri ilə sağalmaqdadır.**




Vaxtilə yurddan didərgin salınan, bu yerləri göz yaşları ilə tərk etmək məcburiyyətində qalan sakinlər də dövlətə minnətdarlıqlarını bildirərək, şəhidlərə Allahdan rəhmət diləyərək, qazilərə sağlamlıq arzulayaraq öz kənd və şəhərlərində tikilmiş yeni evlərinə köçürlər.

Bu gün Qarabağ və Şərqi Zəngəzur həm də qonaq-qaralıdır. Bir çox dövlətlərin rəhbərlərindən adi səyahətçilərədək yüzlərlə insan indiyədək bu geniş quruculuğun və Böyük qayıdışın şahidi olub. Qarabağ və Şərqi Zəngəzur hətta mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edir.

Biz işğal nəticəsində viran qalmış yaşayış məntəqələrini özümüz bərpa edirik, torpağımızı özümüz dirçəldirik, Prezidentimizin sözləri ilə desək, heç kəsdən kömək istəmədən, heç kəsdən bir manat belə almadan...

Bütün bunlar dostlarımızı çox sevindirir. Onlardan elələri də var ki, obrazlı ifadə etsək, bu əzəmətli quruculuğa bir kərpic qoymaqla bizə dost, qardaş olduqlarını bir daha təsdiqləmək istəyirlər.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev qazax xalqı adından Füzuli şəhərində tikilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı zamanı Qarabağda dost, qardaş izini əbədiləşdirmək istəyənlərin sanki hamısının fikrini ifadə edərək deyib: "Bu, bizim Azərbaycan xalqına səmimi hədiyyəmizdir. Bilirəm ki, Azərbaycanın potensialı böyükdür və Siz özünüz də bütün bunları edə bilərsiniz, amma biz həmişə qardaşlıq hisslərimizi ifadə etməliyik və belə maddi formada".

Yeri gəlmişkən, sözügedən mərkəz 2024-cü il martın 12-də açıldı. 1,5 hektar ərazidə yaradılıb. Obyektin tikinti sahəsi 2700 kvadratmetrdir. İkimərtəbəli binada 600 uşağın bir neçə növbədə məktəbdənkənar təhsil alması üçün hər cür şərait yaradılıb. Burada mühazirə zalı, şahmat və kulinariya sinifləri, incəsənət və heykəltaraşlıq studiyası, xoreoqrafiya və idman zalı, səsyazma kabineti, musiqi və vokal sinfi, foto-videomontaj, veb-dizayn və robototexnika kabinetləri, akt zalı, 3D modelləşdirmə sinfi var. Mərkəzdə IT-startaplara və Azərbaycanın milli mədəniyyətinə, o cümlədən xalçaçılıq sənətinə xüsusi diqqət yetirilir.

Bir qədər də əvvələ qayıdaraq xatırlayaq ki, hələ 2022-ci il oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti RəcəbTayyib Ərdoğan Cəbrayıl rayonu ərazisində "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlini qoymuşlar. Kompleks üçün iki ölkə mütəxəssislərl birlikdə rayonun Şükürbəyli-Cəbrayıl-Hadrut yolunun ətrafında 40 hektar ərazi seçilmişdir. Layihə özündə üçmərtəbəli Meşə Təlim Mərkəzində konfrans zalı, təlim otaqları, qonaq evi, ikimərtəbəli inzibati bina, laboratoriya, yeməkxana, "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" yaradılmasını ehtiva edir.

"Ağıllı Tingçilik"də qabaqcıl texnologiyalar əsasında istixanalar, toxum saxlama mərkəzi, qapalı kök sistemli ting istehsal sahələri, köçürmə sahələri, kölgələndirmə, soyuducu, qablaşdırma və gübrə anbarları, ting tədarük mərkəzi, təlim zonası, maşın və traktor təlim parkları inşa ediləcək. Burada il ərzində yerli iqlim şəraitinə uyğunlaşdırılmış 2 milyon müxtəlif ting yetişdirilərək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının meşə fondu torpaqlarında meşələrin salınmasında və yaşıllaşdırma işlərində istifadə olunacaq.

Dost və qardaş Özbəkistan isə işğaldan azad olunmuş ərazilərimizdə əvvəlcə məktəb tikdi. Füzuli şəhərindəki Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışını 2023-cü il avqustun 23-də Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev etdilər.

Xankəndidə indi artıq həm də Azərbaycan-Özbəkistan birgə müəssisəsi - "Businesstex JV" tikiş fabriki fəaliyyət göstərir. Fabrikdə müxtəlif növ parçadan 150 çeşiddə kişi, 300 çeşiddə qadın və 150 çeşiddə uşaq geyimləri istehsal olunur.

Hazırda müəssisə hər gün 2500 ədəd müxtəlif trikotaj məhsulları buraxır və bu rəqəmin 10 minə çatdırılması nəzərdə tutulur. Gələcəkdə kişi köynəklərinin, xüsusi təyinatlı və hərbi geyimlərin istehsalı planlaşdırılır. Məhsulların 80 faizinin müxtəlif ölkələrə ixracı həyata keçiriləcək. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim keçmiş 250 nəfər işçi çalışır. Ümumilikdə müəssisədə 500 iş yeri yaradılacaq. Əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşlar işlə təmin olunurlar.

Cari ayın əvvəlində dövlətimizin başçısı və Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev fabrikə gələrək müəssisənin fəaliyyəti ilə tanış oldular.

Zirvə görüşündə Qırğız Respublikasının Prezidenti də iştirak edirdi. Tədbirdən bir gün əvvəl bu dost ölkənin dövlət başçısı Sadır Japarov Prezident İlham Əliyevlə birlikdə Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak etdilər. Elə həmin gün eləcə də Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbinin açılışı oldu.

Prezident İlham Əliyev burada kəndin sakinlərini salamlayaraq dedi: "Qarabağın bərpası və dirçəlişində göstərdiyi köməyə görə sizin adınızdan və bütün keçmiş köçkünlərin adından əziz Qardaşım, Qırğızıstan Prezidenti Sadır Nurqojoyeviç Japarova minnətdarlığımı bildirmək istəyirəm. Sadır Nurqojoyeviçin təşəbbüsü ilə bu regionun hazırda ən böyük yaşayış məntəqəsi olan Xıdırlı kəndində gözəl məktəb tikilib. Bu gün biz ona baxış keçirdik və rəsmi şəkildə açdıq. Məktəbə Ayköl Manasın adı verilib. Bildiyiniz kimi, "Manas" qırğız xalqının dastanıdır, qırğızların ruhunu təcəssüm etdirir".

İşğaldan azad olunmuş ərazilərimizdə keçən ilin may ayında Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko da olub. Şuşada və Füzulidə gedən geniş quruculuqdan çox məmnun qalıb. Bir dost kimi bu yerlərə əliboş gəlməyib. İndi bölgənin kənd təsərrüfatında Belarus istehsalı olan traktorlar görülən işlərə dəstək verir. Hədiyyə kimi gətirilən avtobus da sakinlərə gərəklidir.

Macar dostlarımız da nailiyyətlərimizə ürəkdən sevinirlər və yalnız bununla kifayətlənmirlər. Macarıstan şirkətləri işğaldan azad olunmuş ərazilərdə aparılan tikinti işlərində fəal iştirak edirlər. Cəbrayılın Soltanlı yaşayış məntəqəsindəki tikinti işləri macar şirkətləri tərəfindən həyata keçirilir.

Azərbaycanda ən iri neft, qaz və ixrac layihələrinin əməliyyatçısı olan BP isə Cəbrayıl rayonunda SOCAR-la (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) birlikdə "Şəfəq" adlı böyük bir günəş-elektrik stansiyası tikir.

Tezliklə bu cür misalların sayı daha da artacaq. Azərbaycanın Qarabağı və Şərqi Zəngəzuru yenidən dirçəldərək cənnətə çevirməsi dostlarımızın ürəyini dağa döndərəcək, bizi gözügötürməyənlər isə bu əzəmətə baxıb görk olacaqlar.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan sənayesinin yeni ünvanı

## Ağdam Sənaye Parkında lift də istehsal olunacaq

**Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən yenidənqurma və bərpa işləri ölkənin sosial-iqtisadi inkişafına əlavə təkan verməkdə davam edir. Bu baxımdan Ağdam Sənaye Parkı xüsusi əhəmiyyətə malikdir. Parkın qurulması həm regionun iqtisadi potensialını işə salmağa, həm də yerli əhalinin məşğulluq imkanlarını genişləndirməyə xidmət edir.**



Qarabağ və Şərqi Zəngəzur bu gün təkcə tarix və mədəniyyətin deyil, həm də iqtisadi inkişafın yeni ünvanına çevrilir. Bir zamanlar işğal altında qalan bu ərazilərdə indi iqtisadiyyatın, o cümlədən aqrar sektorun dirçəliş səsi eşidilir, quruculuq nəfəsi duyulur. Dövlət burada fəaliyyət göstərən iş adamlarına güclü dəstək verir, onları yeni imkanlarla təmin edir. Ərazidə yaradılan hər iki sənaye parkında sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün mühüm güzəşt və imtiyazlar tətbiq olunur. Ona görə də sənaye parkına iş adamlarının marağı getdikcə artır. Bu hesaba sürətlənən dirçəlişin daha bir nümunəsi Azərbaycan-Çin tərəfdaşlığı çərçivəsində atılan yeni addımdır. Bu günlər "Fujiai Azerbaijan" MMC-yə İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən Ağdam Sənaye Parkının rezidenti statusu verilib.

Beynəlxalq tərəfdaşlıq əsasında parkın 1 hektarlıq ərazisində müasir lift istehsalı müəssisəsi inşa ediləcək. Ümumi investisiya dəyəri 3,7 milyon manat olan layihə təkcə texnologiyanın və istehsalın inkişafını özündə ehtiva etmir, həm də azad edilmiş torpaqlarda iqtisadi həyatın nə qədər sürətlə canlandığını göstərir. Müəssisədə Çinin qabaqcıl texnologiyalarından istifadə ediləcək. İllik istehsal gücü 1200 lift olacaq zavod regionda müasir texnoloji məhsulların istehsalına yönəlik ilk nümunələrdən biridir. Bu isə həm yerli tələbatın ödənilməsi, həm də ixrac potensialının artırılması baxımından böyük əhəmiyyət kəsb edir. Özü də bu, hələ başlanğıcdır. Şirkət gələcəkdə eskalator istehsalı üzrə ikinci bir layihəni də həyata keçirməyi planlaşdırır ki, bu da Ağdamın təkcə kənd təsərrüfatı və tikinti yox, həm də texnoloji istehsal mərkəzinə çevriləcəyini göstərir.

Bütün bu imkanlar həm də ona dəlalət edir ki, Qarabağ və Şərqi Zəngəzurda sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq sadəcə biznes qurmaq deyil, eyni zamanda tarixi missiyanın iştirakçısı olmaqdır. Bu torpaqlarda atılan hər addım, qurulan hər müəssisə, verilən hər qərar Azərbaycanın gələcəyinə hesablann yeni səhifədir. 5 il öncə ruhlar şəhəri adlanan Ağdam bu gün dirçələn, ayağa qalxan, yenidən nəfəs alan şəhərə çevrilir. İllərlə düşmənin tapdağı altında qalmış, yerlə yeksan edilmiş şəhər artıq öz doğmalarını qucaqlamağa, əvvəlki şöhrətini yenidən bərpa etməyə başlayıb. Ağdamda çəkilən yol, tikilən bina, salınan hər bir sənaye sahəsi yalnız fiziki yenilənmə deyil, həmçinin mənəvi qayıdışın və milli ruhun təntənəsidir. Bu dirçəliş təkcə bizim deyil, artıq dünyanın da diqqət mərkəzindədir.

Azərbaycanın azad edilmiş ərazilərində baş verən bu möhtəşəm inkişaf prosesi beynəlxalq ictimaiyyət tərəfindən də maraq və təqdirlə izlənilir. Qarabağın haqq səsi bu dəfə silah səsləri ilə yox, quruculuqla, inkişafla, yüksəlişlə eşidilir. Dəyişimin şahidi olmaq istəyənlər isə bir-birinin ardınca Qarabağa və Şərqi Zəngəzura səfər edirlər. Bu günlər Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak edən nümayəndə heyətlərinin Ağdama səfər edərək, burada görülən genişmiqyaslı bərpa və sənayeləşmə işləri ilə yerində tanış olmaları da fikrimizi təsdiq edir.

Səfər çərçivəsində ECO-ya üzv ölkələrin dövlət və hökumət başçıları, nazirlər və nümayəndə heyətləri Ağdam Sənaye Parkı ilə yaxından tanış olublar. ECO ölkələrini təmsil edən iş adamlarına işğaldan azad olunmuş ərazilərimizin ölkə iqtisadiyyatına reinteqrasiyası istiqamətində görülən işlər barədə məlumat verilib. Qeyd olunub ki, işğaldan azad olunan ərazilərin iqtisadi potensialının reallaşdırılması Azərbaycanın əsas hədəflərindəndir. Bu məqsədlə dövlət başçısının rəhbərliyi ilə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir.

Onlara parkın ümumi planı, hazırda fəaliyyət göstərən müəssisələr, nəzərdə tutulan investisiya layihələri və bölgənin iqtisadi gələcəyi barədə ətraflı məlumat verilib. Bildirilib ki, parkın ərazisində artıq bir sıra müəssisələr fəaliyyət göstərir. Qeyd olunub ki, strateji baxımdan əlverişli coğrafi mövqedə yerləşən və 190 hektarlıq sahəni əhatə edən park bu gün ölkə sənayesinin yeni inkişaf ünvanına çevrilib. Artıq parkın 70 faizindən çoxu sahibkarların istifadəsinə verilib. Bu, sənaye parkına investor marağının nə qədər çox olduğunun göstəricisidir.

Səfər iştirakçıları Ağdam Sənaye Parkının qısa müddətdə əldə etdiyi uğurlara böyük maraq göstəriblər. Onlar bu modelin region ölkələri üçün də nümunəvi təcrübə ola biləcəyini qeyd ediblər. Həmçinin bəzi üzv dövlətlərdən olan nümayəndələr gələcəkdə Ağdamda investisiya layihələrində iştirak etmək niyyətində olduqlarını bildiriblər. Bu, Ağdamın artıq təkcə bir şəhər deyil, həm də əməkdaşlığın, inkişafa olan inamın və yenidən doğulan Qarabağın simvolu olduğunun göstəricisidir.

Əslində bu səfər təkcə tanışlıq xarakteri daşımırdı, o həm də mesaj verirdi - işğaldan azad edilmiş torpaqlar artıq beynəlxalq iqtisadi əməkdaşlığın yeni platformasına çevrilir. ECO kimi nüfuzlu beynəlxalq təşkilatın nümayəndələrinin Ağdama səfəri bu baxımdan xüsusi məna daşıyır. Çünki İqtisadi Əməkdaşlıq Təşkilatının əsas məqsədlərindən biri üzv ölkələr arasında ticarət, sənaye və nəqliyyat sahələrində əməkdaşlığı gücləndirməkdir. Ağdamda görülən işlər isə bu əməkdaşlığın konkret nümunəsi ola biləcək miqyasda həyata keçirilir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Xankəndi, Ağdərə və Xocalıya 45,5 milyon manata yaxın investisiya qoyulub

**"Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında sahibkarlar üçün geniş imkanlar yaradılıb. Şəhər və rayonlardakı mövcud tikililər müraciətlər əsasında qanunvericiliyə uyğun olaraq sahibkarlara icarəyə verilir".**

Bunu diplomatik xidmət orqanları rəhbərlərinin "Azərbaycanın xarici siyasəti suverenliyin bərpasından sonra: prioritetlər və çağırışlar" mövzusunda IX müşavirəsinin Xankəndi şəhərində keçirilən xüsusi sessiyasındakı çıxışında Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov deyib.

Bildirilib ki, indiyədək Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında 474 obyekt sahibkarlara icarəyə verilib. Bölgədə müxtəlif təyinatlı obyektlər fəaliyyətə başlayıb. Hazırkı dövrədək bu ərazilərə investorlar tərəfindən 45,5 milyon manata yaxın investisiya yatırılıb.

Onun sözlərinə görə, fəaliyyətə başlamış obyektlərdə 2 minə yaxın şəxs işlə təmin olunub. Mövcud müqavilələr üzrə digər obyektlər fəaliyyətə başladıqdan sonra iş yerlərinin sayı 5 minə çatacaq: "İqtisadi uğurların əldə edilməsində, dövlətin işğaldan azad edilmiş ərazilərdə tətbiq etdiyi güzəşt mexanizmləri də əhəmiyyətli rol oynayır. Təşviq mexanizmləri Qarabağın iqtisadiyyatının bərpası prosesinə yerli investorlarla yanaşı, xarici investorların da cəlb edilməsinə şərait yaradır. Bu baxımdan işğaldan azad olunmuş ərazilərdə investisiya fəaliyyəti üçün yaradılmış əlverişli şərait və təşviq mexanizmləri barədə xarici investorların məlumatlandırılması istiqamətində xaricdəki diplomatik nümayəndəliklərlə birgə əməkdaşlığa da maraqlıyıq".

## "Araz Vadisi İqtisadi Zonası"nda daha bir rezident qeydə alınıb

**"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yeni rezidenti tərəfindən transformator istehsalı layihəsi həyata keçiriləcək.**

Birləşmiş Ərəb Əmirliklərinin "SENSEMI DMCC" şirkətinin Azərbaycandakı nümayəndəliyinə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidentliyi statusu verilib.

Yeni rezident tərəfindən Sənaye Parkının 2 hektar ərazisində transformator istehsalı müəssisəsi yaradılacaq. Müasir avadanlıqlardan istifadə ediləcək müəssisədə il ərzində 3 min transformator istehsalı nəzərdə tutulur. Layihənin investisiya dəyəri 17 milyon manata yaxındır.

Qeyd edək ki, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında hazırda investisiya portfeli 140 milyon manat olan 18 sahibkarlıq subyekti rezident, 4 sahibkar isə qeyri-rezident kimi qeydiyyatdan keçib.

# "Konstitusiya və Suverenlik İli"nə uzanan milli yol




**44 günlük Vətən müharibəsindən başlayan Zəfər silsiləmizin məntiqi nəticəsi olaraq Azərbaycan xalqı 2025-ci ili ərazilərimizin bütövlüyünün qürur hissi ilə "Konstitusiya və Suverenlik İli" kimi təntənə ilə qeyd edir.**

Sərhədlərimizdə başdan-başa üçrəngli, ay-ulduzlu bayrağımız dalğalanır, Konstitusiyamız bütün ərazilərimizdə qüvvədədir. Cəmi beş il əvvələ qədər həsrəti ilə yaşadığımız Qarabağ və Şərqi Zəngəzura indi həyat qayıdıb, Şuşada, Xankəndidə, Xocalıda... körpələr doğulur, əzəli sakinlərinə qovuşdurulan bu torpaqlardan doğma nəfəs duyulur...

Şuşa, Xankəndi zəfərlərinin müəllifi müzəffər lider İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə milli maraqlarımızın təmini uğrunda atdığı uğurlu addımlar Azərbaycan dövlətinin, xalqının pozulmuş konstitusion hüquqlarının tam bərpası ilə tarixə, ədalətə, beynəlxalq hüquqa dayanan haqq etdiyi nəticəyə yetişib, biz bütöv Azərbaycanın qalib vətəndaşları olmuşuq.

### Azərbaycan gerçəklikləri

Nəyi necə, nə vaxt edəcəyini yaxşı bilən Prezident İlham Əliyevin ötən iki onillik ərzində ölkəmizin, xalqımızın milli hədəfləri naminə həyata keçirdiyi uzaqgörən və məqsədyönlü siyasəti sayəsində müstəqillik tarixində ən qüdrətli çağlarını yaşayan Azərbaycanın siyasi nüfuzu, diplomatik uğurları Cənubi Qafqazın sərhədlərini çoxdan aşaraq dünyaya səs salıb. Bölgədə sülh və əməkdaşlıq üçün mühüm zəmin formalaşdıran regionun qüdrətli dövləti Azərbaycanın sürətli və hərtərəfli inkişafı beynəlxalq səviyyədə də diqqət çəkir. ABŞ, Çin kimi dünya nəhənglərinin belə Azərbaycanla çoxşaxəli əməkdaşlıqda maraqlı olması təsadüfi deyil. Yürüdülən məqsədyönlü siyasət, bu istiqamətdə ölkəmizdə yaradılan yüksək şərait sayəsində enerji, nəqliyyat qovşağına çevrilən Azərbaycan, həm də etibarlı, güvənilən ölkə kimi ad qazanıb.

Bu gün dünyanın dörd bir yanında qarşıdurmalar, münaqişələr, müharibələr gedir. Göstərilən səylərə baxmayaraq, təəssüf ki, bir müharibə bitməmiş, digəri alovlanır, silahlar susmaq bilmir, dinc insanlar yurd-yuvalarından qaçqın düşür, miqranta çevrilir, günahsız yerə ölürlər...

Dünyanın müharibə atəşində yandığı bir dövrdə Azərbaycanda hökm sürən sabitlik, təhlükəsizlik xüsusi önəm kəsb edir. Azərbaycan sabitlik adası olaraq yer üzündə sülhün təşviqi, barışın bərqərar olması üçün mühüm çağırışlar edir, aktiv fəaliyyət göstərir. Hətta Azərbaycanın gərginlik yaşayan ölkələr arasında barışdırıcı rol oynaması diqqət çəkir.

Ölkəmizin sərgilədiyi qətiyyətin yaratdığı reallığın nəticəsidir ki, bir zamanlar separatizm yuvasına çevrilmiş Qarabağ indi beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyi ünvana çevrilib. Bu yaxınlarda isə İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü Xankəndidə keçirildi və buradan dünyaya sülh və əməkdaşlıq mesajları çatdırıldı.

Bütün bunlar Prezident İlham Əliyevin yürütdüyü müdrik siyasət nəticəsində Azərbaycanın qarşısına qoyduğu bütün milli hədəflərinə yetməsini özündə əks etdirən gerçəkliklərdir.

### Xalq, ordu, dövlət birliyi

O da etiraf olunası reallıqdır ki, heç də hər bir dövlətə, xalqa qarşısına qoyduğu milli hədəflərə çatmaq müyəssər olmur. Buna görə qarşıya çıxan bütün çətinlikləri qətiyyətlə dəf edən, milli iradə ortaya qoymağı bacaran, prinsipiallıq nümayiş etdirən və xalqı, ölkəsi uğrunda cəsarətlə mübarizə aparan liderə malik olmaq başlıca şərtdir. Bu mənada xoşbəxt xalqıq ki, Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev kimi vətənpərvər şəxsiyyətlərin sayəsində Azərbaycan son iki əsr ərzində düçar olduğu bəlalardan, ağrı-acılardan qurtulmağı bacarıb. Təbii ki, torpaqlarımızın azadlığına, suverenliyimizin tam bərpasına uzanan bu çətin, mübarizələrlə dolu şərəfli yolda xalqımızın milli həmrəyliyi, öz dahi rəhbəri ətrafında sıx birləşməsi, "dəmir yumruğ"a çevrilməsi də mühüm rol oynadı. Xalq, ordu, dövlət birliyimiz təcavüzkar Ermənistanı da, ona havadarlıq edən xarici qüvvələri də darmadağın edərək yerlərində otuzdurdu, ərazilərimizdə separatizmin kökü birdəfəlik kəsildi, Qarabağda, Şərqi Zəngəzurda, bütöv Azərbaycanda "Zəfər tağı" hörüldü.

Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbilə ölkəmizdə ikinci dəfə hakimiyyətə gələndə Azərbaycan bir dövlət olaraq məhv olmağın astanasında idi. Yenicə müstəqilliyini qazanan respublikamızda xaos hökm sürür, bütün sahələrdə tənəzzül, çöküş yaşanır, hakimiyyət davası aparılır, vətəndaş müharibəsi gedirdi. Bu hərc-mərclikdən yararlanan təcavüzkar Ermənistan isə ərazilərimizi bir-bir işğal edirdi, ölkə bir milyondan çox qaçqın və məcburi köçkün problemi ilə üz-üzə qalmışdı.

Yalnız Ulu Öndər Heydər Əliyevin məharətli siyasəti, diplomatik bacarığı Azərbaycanı labüd olan faciələrdən xilas etdi. Daxili çəkişmələri sonlandıran dahi siyasətçi Heydər Əliyev işğalçı Ermənistanı atəşkəs haqqında müqavilə imzalamağa məcbur etdi. Ulu Öndər uğurlu neft strategiyasının əsasını qoyaraq ölkəni iqtisadi tənəzzüldən xilas etdi, qaçqın və məcburi köçkünlərin problemləri aradan qaldırılmağa başlandı.

Eyni zamanda Azərbaycan müstəqil dövlət olaraq hüquqi, dünyəvi dövlət quruculuğunu inkişaf etdirməyə başladı ki, bu da konstitusiyanın qəbulunu birmənalı edirdi.

12 noyabr 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış milli konstitusiyamız qəbul edildi. Yeni konstitusiya layihəsini hazırlayan komissiyanın 3 oktyabr 1995-ci ildə keçirilən iclasında komissiyanın sədri Heydər Əliyev demişdi: "Bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir. Bir sözlə, biz elan etmişik və mən bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq".

### Vətən uğrunda

Ulu Öndərin siyasi yolunu layiqincə davam etdirən Prezident İlham Əliyev Azərbaycanın bugünkü güclü, qüdrətli, nüfuzlu mövqeyə yüksəlməsi üçün şəxsi əzm, iradə, qətiyyət və səy nümayiş etdirdi. 2003-cü ildən etibarən ölkəmizi hərtərəfli inkişaf mərhələsinə yüksəldən Prezident İlham Əliyev xüsusilə hərbi sahənin gücləndirilməsi üçün mühüm addımlar atdı.

Ölkəmizin rəhbərinin gündəliyindəki bir nömrəli məsələ torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmini idi.

Elə bu istiqamətdə həyata keçirilən düşünülmüş siyasətin sayəsində də Azərbaycan ardıcıl və qətiyyətli qələbələr qazandı.

Torpaqlarımızın bütövlüyünə gedən yolda 2016-cı ildə əldə olunan Aprel zəfəri mayak rolunu oynadı. Cəmi 4 gün ərzində düşməni qarşısında diz çökdürərək Lələtəpəyə Azərbaycan bayrağını sancan şanlı ordumuz tezliklə bütün ərazilərimizin azadlığına qovuşdurulacağının mesajını çatdırdı.

İki ildən sonra uğurlu Günnüt əməliyyatı qələbə silsiləmizin növbəti bəndi, Şuşaya gedən yolun daha bir addımı oldu.

Münaqişənin sülh yolu ilə tənzimlənməsi üçün onilliklər boyu böyük təmkin nümayiş etdirən Azərbaycanın səbir kasasını daşıran son damla 2020-ci ilin iyulunda baş verən Tovuz döyüşləri oldu.

Təcavüzkar Ermənistana dərsini verməyin zamanı artıq çatmışdı və 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin əmrilə Vətən uğrunda irəli şığıdı. Qəhrəman döyüşçülərimiz cəmi 44 gündə düşməni döyüş meydanında darmadağın edərək işğalda olan torpaqlarımızı azad etdilər. Ağdam, Kəlbəcər, Laçın rayonları bir güllə atılmadan, bir itki verilmədən öz sahiblərinə qaytarıldı.

2023-cü ilin sentyabrında keçirilən 23 saatlıq antiterror tədbirləri nəticəsində suverenliyimiz tam bərpa edildi, konstitusiyamız bütün ərazilərimizdə hüquqi qüvvəyə mindi. "Dəmir yumruq" Qarabağda separatizmi məhv etdi.

Qalib lider İlham Əliyevin bir tələbilə ötən il Qazaxın Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri özümüzə qaytarıldı.

Bir sözlə, başlanğıcı Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan milli hədəflər Prezident İlham Əliyevin qətiyyətli siyasəti ilə gerçəkləşdirildi.

15 oktyabr 2023-cü ildə - Prezidentlik fəaliyyətinin 20 ilinin tamamında Qarabağın mərkəzi Xankəndidə Azərbaycan bayrağını dalğalandıran zaman qalib lider İlham Əliyev bu barədə dedi: "Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi".

Azərbaycanın əldə etdiyi uğurların hamısı suverenliyimizin tam təmin olunmasının və konstitusiyamızın bütün ərazilərimizdə qüvvəyə minməsinin parlaq təzahürləridir.

Milli maraqlarımızın təmini bugünkü və sabahkı Azərbaycanın sürətli və hərtərəfli inkişafının möhkəm təməlləri və qarantıdır.

Ölkəmizdə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Prezidentin Sərəncamında da bu məqam vurğulanır: "Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Keşişlər daim terrorçuların yanında olublar

## Erməni şovinizmi iflasa uğradı

**Ötən əsrin əvvəllərində ermənilər bolşeviklərin əli ilə qədim Azərbaycan şəhəri olan İrəvana yiyələnəndən sonra Şəmkir mahalının Çardaxlı kəndindəki keşişin evi Göyçə tərəfi ilə Gəncəbasar bölgəsində məskunlaşan ermənilərin əlaqələndirmə mərkəzinə çevrilmişdi. Sovet dönəmindən gizli fəaliyyətdə olan erməni keşişlərinin yaşadıqları məkan həm də yaratdıqları fonda aylıq üzvlük haqqı ödənilən məkan idi. Belə ünvanlarda özünü keşiş, bəzən də "ağsaqqal" kimi tanıdanlar, əslində terrorçu erməni silahlı birləşmələrinin tələb və tövsyələrinin icrası ilə məşğul idilər.**

Belə "ağsaqqal" və üzvlük haqqı yığanlardan biri də Şəmkirin Təzəkənd kəndində - Şəmkir stansiyasında yaşayan erməni dərzi Artun idi. Xruşşovun dövründə çörək bir müddət siyahı və talon sistemi ilə veriləndə Şəmkir stansiyasının əhalisi hamı bir nəfər kimi dükanlarından çörəyi növbə ilə çətinliklə alırdı. Amma bu kənddə yaşayan ermənilər dərzi Artunun həyətinə gəlir, siyahıda adlarının qabağına imza atır, çox rahat və sakit şəkildə istədikləri qədər çörək alıb gedirdilər.

Başqa bir misal, Şəmkir stansiyasında və ya ona yaxın Keçili, Təhnəli, Qaracəmirli, Qapanlı kəndlərində ermənilərdən ölən olanda təşkilatçı-"ağsaqqal" dərzi Artun olardı. Cənazəni Şəmkir stansiyasında yox, xüsusi maşınlar və müsiqiçilərin müşayiəti altında Lenin qəsəbəsi (indi Çinarlı) yaxınlığında ermənilərə məxsus qəbiristanlıqda dəfn edərdilər.

Kəndimizdəki ermənilərin hökümət idarələrində kiminsə dolaşıq işi olurdusa, onu Artun həll edərdi. Artunun oğlu Lavrentlə yaxın idik, onlarda tez-tez olurdum, hər dəfə ayın son günləri kəndimizdə yaşayan ermənilərin Artuna 5-10 manat və ya daha çox məbləğdə pul verər, 48 vərəqli "ümumi dəftər"də adlarının qarşısında qol çəkib gedərdilər. Bir dəfə Lavrentdən soruşdum: - Bu pul verənlər atandan borc alıblar ki, onu qaytarırlar? - Yox, ermənilərə, uzaqda, Qarabağda yaşayan ermənilərə kömək üçün verirlər. Əsl həqiqət isə 1980-ci illərdə məlum oldu. Sən demə, o pulları Artun KRUNQ-a yardım fonduna yığırmış.

Göyçəyə gəlməyə başlayan ermənilər o yerlərə ayaq qoyduqları vaxtdan yerli azərbaycanlılara qarşı terror, qarət və qətliamlar törətdilər. Bu qırğınların coğrafiyasını böyütmək üçün ermənilər Gədəbəyin Yaqublu dərəsindən keçməklə Çardaxlı kəndinin koordinatoru - keşişi Vahanın vasitəsilə Şəmkir və Gəncə erməniləri ilə "iş birliyinə" çalışırdılar. Onların məkrli niyyətinə bələd olan Yaqublulardan Məcid ağa, Əsgər ağa, Mustafa ağa, Məşədi Mehralı və onların dəstə üzvləri, eləcə də Yasamalın ətəyində yerləşən Morul və Aşağı Ayıflı (indi Şiştəpə) kəndlərinin camaatı buna imkan vermirdilər. Ancaq bu da bir tale yazısıdır ki, ərazi iddialı daşnakların məkrli əməlləri ötən əsrin əvvəllərindən bugünə kimi ermənipərəst qüvvələr tərəfindən dəstəklənir.

1982-ci ildən sonra Şəmkir erməniləri, xüsusilə Çardaxlı kəndinin sakinləri yenidən baş qaldırdılar. O dövrdə Çardaxlıya Yerevandan və Rusiyanın müxtəlif ərazilərindən gəlib-gedənlərin sayı gündən-günə artırdı. Hətta xarici ölkələrdən erməni emissarları da qonaq qismində Çardaxlıya gəlirdilər. Bu gəlişlərdə əsas məqsəd Qarabağ da daxil olmaqla Yevlaxdan Qazaxa, bir tərəfi də Kür çayınadək bu ərazilərin işğalına Şəmkirdən necə başlamağın yolları aranırmış.

Şəmkir Payon Partiya Komitəsinin sabiq birinci katibi Əjdər Əsədov bu "tədbir"dən hansı yollasa xəbər tutur. Məlum olur ki, Çardaxlı kəndinə gələn ermənilərin yarıdan çoxu ya Yerevanda yüksək vəzifə sahibi olanlar, ya da keçmiş SSRİ-nin müxtəlif şəhərlərində yaşayanlar və işləyənlərdir. Avtomobillərin dövlət nömrə nişanlarından bilinirdi ki, bu dəbdəbəli maşınlar Ermənistandan gəlib, yoxsa Rusiyadan. Hamının yaxşı tanıdığı Eçmiədzinin baş keşişi - katalikos Vazgenin bacısı oğlu, həm də müavini əslən Çardaxlıdan idi. O da günaşırı Çardaxlıya gəlir və hər dəfə də özü ilə bir dəstə müxtəlif rəhbər vəzifəli şəxslər gətirirdi. Onun bağ evində yanında gətirdiyi "qonaqlar" yerli erməniləri "maraqlı söhbətlər"ə dəvət edərək təlimatlandırılır, qarşıdakı planlarla tanış edilirdilər.

Marşal Baqramyanın dekabrın 1-də keçiriləcək yubiley tədbirinə hazırlıq işlərini əllərində bayraq edən missionerlərin məqsədi saxta "genosid" gününü Çardaxlıda 1987-ci ilin aprel ayında təntənəli qeyd etmək idi. Çox məxfi şəkildə hazırlıq görülən bu "tədbirə" dünyanın müxtəlif şəhərlərindən 50 mindən çox erməni dəvətli idi. "Genosid" günü toplantıda qəbul ediləcək qərarın icra komandasını katolikos Vazgen və Ermənistan KP MK-nın katiblərindən biri verəcəkdi. Hətta onların Yerevandan gətirdikləri məramnamə və xəritələrdə Çardaxlı uydurma "böyük Ermənistan"ın paytaxtı, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Samux, Xanlar və digər rayonlar Ermənistan ərazisi kimi göstərilirdi. Tədbirə hazırlıq məqsədilə Yerevandan maşın-maşın şüar, transporant, qondarma Artsaxın bayrağı da gətirilmişdi.

Bütün bunlar barədə Şəmkir rayon Partiya Komitəsinin birinci katibi Əjdər Əsədov Azərbaycan KP MK-ya ətraflı məlumat versə də, respublika Dövlət Təhlükəsizliyi Komitəsinə 20-yə yaxın məktubla müraciət etsə də, buna əhəmiyyət verən olmur, əksinə, lazımsız işlərlə məşğul olmamağı, boş söhbətlərdən əl çəkərək ermənilərə toxunmamağı tövsiyə edirdilər.

Bundan böyük təəssüf hissi keçirən Əjdər müəllim sonralar mətbuata açıqlamasında demişdir ki, rayon milis şöbəsinin rəis müavini Hüseyn Allahyarov vətənpərvər adam idi, kabinetə çağırıb, bu barədə onunla geniş söhbət etdik. Qərara gəldik ki, separatçıların aprelin 24-də keçirəcəkləri saxta "genosid" tədbirini heçə endirmək üçün əvvəl ilk növbədə Çardaxlıya gələn "qonaqların" qarşısı alınmalıdır. Bunun üçün Şəmkir və Gədəbəydən Çardaxlıya gedən yollarda karantin postları yaradıldı, gəlib-gedənlər nəzarətə götürüldü. Sabahısı Moskvadan Azərbaycan KP MK-ya, Nazirlər Sovetinə postların götürülməsi barədə göstərişlər verildi. Yuxarıdan olan zənglərə aydınlıq gətirim ki, "dabaq" xəstəliyi kəskin yayılan, qorxulu, keçici xəstəlikdir. Bu xəstəliyə qarşı qoyulmuş 40 günlük karantin postunun götürülməsi bu tezlikdə mümkün deyil…

Karantin zamanı ictimaiyyətin nümayəndələri ilə apardığımız söhbətlər də öz bəhrəsini verirdi. Məlum oldu ki, Çardaxlı sovxozunun direktoru, əslən Çardaxlıdan olan Suren Yeginyan gəncliyindən Azərbaycandan kənarda yaşamış, Rusiyada, Stavropol diyarında "kəşfiyyat" xarakterli işlərdə çalışmışdır. Sonra Yerevan şəhərində "26 Komissar" rayonunun milis rəisi olmuşdu. O, Çardaxlıda sovxoz direktoru işləyə-işləyə həm də Yerevanda "26 Komissar" rayonunda da xidmətini davam etdirirdi. Milis polkovniki Yeginyanın Yerevandakı maaşı hər ay bankdakı hesabına köçürülürdü, sovxoz direktoru kimi də buradan əməkhaqqı alırdı. Hətta Şəmkirdə aidiyyəti dövlət qurumlarına məxsus 5 hökumət telefonundan biri, rayon rəhbərliyindən xəbərsiz, Çardaxlıda onun və onun əlaltılarının istifadəsində idi və s. Bu inanılmaz faktlara görə rayonun hərbi komissarı, erməni dilini çox yaxşı bilən Mehman Mansurov Yerevana getmiş, deyilənlərin təsdiqini sübutlayan rəsmi sənədlərlə geri dönmüşdü. Üstəlik o da məlum olmuşdu ki, Suren Yeginyan Moskvada Mərkəzi Kəşfiyyat İdarəsinin əməkdaşı olmaqla, KRUNQ-un Çardaxlı kəndi üzrə səlahiyyətli nümayəndəsidir, gecə-gündüz yanında hərlənənlər isə KRUNQ-un fəal üzvləridir. Onun vasitəsilə Çardaxlıya birbaşa Yerevandan rəhbərlik edilirdi.

Yeginyanın işlərinin rəvan getməsi üçün respublika Dövlət Təhlükəsizliyi Komitəsinin Şəmkir rayon regional şöbəsinin rəis müavini, əslən Xanlardan (indi Göygöl) olan Aşot əlindən gələni edirdi. Gündəlik və aylıq icra proqramı Yerevanda - ovaxtkı Lenin prospekti 12-də, Marksizm-Leninizm İnstitutunun nəzdindəki Tarix muzeyində hazırlanaraq Çardaxlıya çatdırılır və yerli ermənilər tərəfindən iş bölgüsü aparılırdı. Plana əsasən Baqramyanın 90 illik yubuileyi münasibətilə keçiriləcək yığıncaqda ermənilərin birbaşa Moskvadan - Kremldən və Bakıdan xahiş və tələbləri həm də ondan ibarət idi ki, Çardaxlıya şəhər statusu verilsin və marşal Baqramıyanın şərəfinə Xristoforoqrad (onun atasıdır) adlandırılsın. Bu münasibətlə qabaqcadan Moskvaya və Bakıya qucaq-qucaq məktub və teleqramlar göndərilirdi.

Əjdər Əsədov bildirmişdi ki, tədbirdən bir gün əvvəl Azərbaycan KP MK-nın ikinci katibi V.Konovalov zəng edib Baqramyanın yubileyinə hazırlıq barədə maraqlanmış, əlavə tapşırıqlar vermişdi: "Sabahısı rayon partiya komitəsi və icraiyyə komitəsinin işçiləri ilə birlikdə axşam saat 8-də "yubiley" tədbirinə yollandıq. Sovxozun idarə binasına çatanda gördük ki, buraya minlərlə adam toplaşıb, əksəriyyəti də Yerevandan və keçmiş SSRİ-nin müxtəlif şəhərlərindən - Moskvadan, Gürcüstandan, Novorossiyskdən, Voronejdən, Krasnodardan, Stavrapoldan, Kazandan və s. yerlərdən gəlmədir. Onları müşayiət edə-edə idarə binasına daxil olanda 100-dən çox qadın söyüş söyə-söyə çığırdılar, onların arasından Aniçka adlı birisi üstümə şığıdı. Qadını müdafiə edirmiş kimi saqqallı erməni dığası pəncərəni sındıraraq üzərimə gəldi. Bu adamların haradan olduğundan xəbərsiz idik. Yaxşı ki, Hüseyn Allahyarov köməyimə çatdı, ara qarışdı… Demə, Allahyarov ehtiyat üçün özüylə xeyli qüvvə gətiribmiş, Gəncə şəhər milis idarəsinin rəisi Zahid Dünyamalıyevdən kömək almışdı. Üç saatdan çox davam edən əlbəyaxa qarşıdurma baş verdi. Bizimkilər Yerevandan gələn minik maşınlarını çevirir, şüşələrini sındırırdılar… Dava gecə saat 11-ə kimi çəkdi. Ermənilər axırda qaçmağa başladı, gecəyarı kənd boşaldı, qalan az sayda qocalar oldu. Onları çox hörmətlə bir yerə topladıq, anlatdıq ki, günah onların özlərindədir. Başqasının torpağına göz dikənin axırı belə olur. Bu kənd qədimdən azərbaycanlı kəndidir. Dövr elə gətirib ki, siz də burada yaşayırsınız, amma rayonun rəhbərliyi ilə əlbir işləməlisiniz, iqtisadiyyata kömək etməlisiniz. Biz Yerevanın işinə qarışırıq ki, onlar da bizm işimizə qarışsın?

Bundan sonra rayon Partiya Komitəsinin qərarı ilə Hüseyn Allahyarovun rəhbərliyi altında sovxozda yoxlama aparılır. Çoxlu cinayət xarakterli yeyinti, dağıntı, mənimsəmə faktı aşkar edildiyi üçün Yeginyan və bir neçə erməni lideri partiya sıralarından çıxarılır, toplanmış materiallar rayon prokurorluğuna təqdim edilir.

Bu məsələyə rayon prokurorluğunda nəinki baxılmadı, onlara "gözün üstdə qaşın var" deyən də olmadı. Bir az da dərinə gedəndə bəlli oldu ki, mərkəzdən rayon prokurorluğuna qəti şəkildə tapşırılıb ki, Çardaxlı ilə, Yeginyanla işiniz olmasın… Bir neçə gün sonra Moskvadan, SSRİ DİN-dən 5 nəfər general gəldi. Bunlar azmış kimi, Azərbaycan KP MK-nın komissiyaları Çardaxlıda oldu. Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin birinci müavini Kudaşkin və Respublika Prokurorluğunun DTK-ya məsul nəzərətçisi, milliyyətcə erməni Parsadanov başda olmaqla müəyyən qüvvələr separatçıları müdafiəyə qalxdılar, onların Çardaxlıya qayıtmasını təşkil etdilər. Qaçıb iki aydan artıq Yerevanda gizlənən Yeginyanı üzə çıxarıb təmtəraqla gətirib qoydular öz vəzifəsinə. Bundan sonra Yeginyanın digər arzu, istək və tələbləri ilə maraqlandılar. Onun birinci tələbi rayon rəhbərlərinin vəzifədən çıxarılması idi.

Beləliklə, az müddət sonra Sov.İKP MK-nın inspektoru Afanasyevin, Azərbaycan KP MK-nın katibi və şöbə müdirlərinin iştirakı ilə keçirilən növbədənkənar rayon plenumunda, büro üzvləri səs verməsələr də, Əjdər Əsədov Şəmkir Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsindən azad edilir.

…Unutqanlıq milli təəssübkeşlikdən uzaq olanların yaratdıqları imkan və şərait nəticəsində işğalçı ermənilər 1988-ci ildə nəinki Çardaxlıda, eləcə də Qarabağda, Sumqayıtda, Bakıda və digər bölgələrdə illərlə hazırladıqları təxribatları gerçəkləşdirdilər. Nəhayət, Vətən müharibəsindəki Zəfərimizlə erməni separatizminə son qoyuldu.

Dünyanın o qarmaqarışıq vaxtlarından erməni separatçıları tərəfindən Göyçə ətrafı ərazilərdən zorla qovulan 18 mindən çox soydaşımız şəmkirlilərin dəstəyilə Çardaxlıda və digər ətraf kəndlərdə yerləşdirilmişdir. İndi onlar Qərbi Azərbaycan İcmasında mütəşəkkilliklə birləşərək öz dədə-baba yurdlarına qayıtmaqda israrlıdırlar.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Azərbaycan Milli Mətbuatı - 150

**İsmayıl bəy Mustafa ağa oğlu Qaspıralı öz dövrünün böyük mühərrirlərindən biri idi. Onun fəaliyyəti nə qədər çoxşaxəli olsa da, həyatının və məşğulluğunun başlıca məqsəd və məramını mətbuat təşkil edirdi.**

# Dövrünün "Tərcüman"ı

1883-cü ildə "Tərcüman" qəzetində "Halın ifadəsi" məqaləsində yazırdı: "Bir insana nitq və dil nə qədər gərəkdirsə, çox insanlara, yəni bir millətə, bir qövmə mətbuat və nəşriyyat o dərəcədə gərəkdir: çünki mətbuat xalqın, millətin dilidir. Mətbuat millətin bir dilidir ki, səsi dünyanın bir tərəfindən o biri tərəfinə qədər gedər. Bir dildir ki, sədası min il sonra da eşidilər. Mətbuat bir qüvvədir ki, dənizlərin, çöllərin bir tərəfindən o biri tərəfinə keçər, zamanları bir-birinə qovuşdurar. Dövrümüzdə bu nəhəng qüvvəyə malik olan kiçik və böyük millətlər olduğu halda, bizdə mətbuat əsərinin yox deyiləcək dərəcədə olması neçə vaxtlardan bəri könlümüzə bir qayğı, bir ağrı verməkdə idi". İsmayıl bəy mətbuata məhz belə dəyər vermişdir.

Görkəmli naşir 1880-1883-cü illərdə "Tonquc", "Şəfəq", "Qəmər", "Ay", "Ulduz", "Günəş", "Həqiqət", "Lətail" kimi məcmuə və qəzet adları ilə nəşrlər, eyni zamanda "Salnameyi-türki" və "Mirati-cədid" adlı almanaxlar buraxmış və müxtəlif imzalarla yazdığı məqalələrində məhz maarifçilik ideyalarını yaymışdır.

## "Tərcüman"ın şüarı: "Dildə, fikirdə, işdə birlik"

1883-cü il aprelin 10-da - Krımın Rusiya tərəfindən işğal edilməsinin 100 illiyi tamam olduğu gün naşir türkcə-rusca çıxacaq "Tərcüman-Perevodçik" qəzetini buraxmaq üçün icazə alır. O, bu icazəni dördillik mübarizədən sonra əldə edir. "Dildə, fikirdə, işdə birlik" "Tərcüman"ın şüarı olur. Redaktor bu ideyanı geniş bir ərazidə yaşayan türk xalqları arasında yorulmaq bilmədən təbliğ edir. İlk vaxtlar cəmi 320 nüsxə çıxan "Tərcüman"ın tirajı sürətlə artır və 20 mini keçir.

Qəzetin qədəmi yüngül olur. Növbəti, 1884-cü ildə Qaspıralı Baxçasarayda ilk "üsuli-cədid" məktəbi açır. Buraya müxtəlif bölgələrdən şagirdlər toplayır və onlara fonetik təlim qaydalarını öyrədir. Bu yolla, yəni şagirdlər vasitəsilə o həmin qaydaları bütün Rusiya müsəlmanları arasında yayır. Bundan əlavə, Qaspıralı "Xose-yi Sibyan" adlı əlifba dərsliyini tərtib edir. Həmin kitabla bütün Rusiya müsəlmanlarının mədəni həyatında, onların maariflənməsində yeni bir mərhələ başlanır.

Velikorus millətçiliyinin türk-müsəlman xalqları üçün böyük təhlükə olduğunu Qaspıralı çox aydın dərk edirdi. Məhz buna görə də imperiyada yaşayan müsəlman xalqları arasında milli şüurun formalaşması, onların sıx əlaqəsi və bir-birinə bağlılığını məqsədə çevirmişdi. Hər vasitə ilə buna can atır, mətbuatda alovlu çıxışlar edirdi. O zaman Firidun bəy Köçərli "İsmayıl Qaspıralı "Tərcüman"ı ilə bizi ayıltdı", - demişdi.

Tədqiqatçı, professor Xeyrulla Məmmədov "Tərcüman"a özünəməxsus tərzdə dəyər verib: "Tərcüman" (1883-1918) XIX əsrin sonu - XX əsrin əvvəlində Rusiya müsəlmanları mühitində nəşr edilən qəzet və jurnalların ən uzunömürlüsü, geniş miqyasda yayılanı və ən çox oxunanı olmuşdur. O, bir il iki ay "Ziyayi-Qafqasiyə", səkkiz il yarım "Kəşkül", bir il doqquz ay "Şərqi-Rus", 1905-ci il inqilabından sonra Qafqazda, Krımda, Volqa boyunda, Türküstanda çıxan müxtəlif məsləkli dövri mətbuat orqanları - "Həyat", "İrşad", "Molla Nəsrəddin", "Nur", "Azad xalq", "Yıldız", "Vətən xadimi", "Fikir", "Əl-islah" və s. qəzet və jurnallarla paralel fəaliyyət göstərmişdir. 1891-ci ilin oktyabrında - "Kəşkül"ün bağlanmasından 1903-cü ilin martına - "Şərqi-Rus"un nəşrə başlamasına qədər, təxminən 12 il "Tərcüman" Rusiya imperiyasının müsəlman əhalisinə məxsus yeganə qəzet olmuşdur".

Bu nəşr Rusiyada müsəlmanların məskunlaşdığı bölgələrin həyatını, orada gedən prosesləri işıqlandırmağa çalışırdı. Ona görə də getdikcə sevimli qəzetə çevrilirdi. O, Kazan, Orenburq, Qarasubazar, Baxçasaray, Uralsk, Sibir tatarlarının, Cənubi Qafqaz türklərinin həyatını diqqətindən kənarda qoymurdu. Öz səhifələrində ziyalılara çox yer verirdi. İsmayıl bəy Qaspıralı erməni daşnaklarının 1897-ci ildə Anadoluda, 1905-1906-cı illərdə Qafqazda törətdikləri qanlı cinayətləri hiddətlə pisləmiş və bu fəsad əhlini ağlını başına yığmağa çağırmışdır.



*İsmayıl bəy Qaspıralı, Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov*

## Ümumi iş, milli mənafe

İ.Qaspıralı Rusiya imperiyasındakı türk xalqlarının tarix, din, dil, adət-ənənə birliyini nəzərə alaraq, onların daha da yaxınlaşması, əqidə, məslək baxımından birləşməsi, tərəqqi etməsi üçün ortaq ədəbi dil formalaşdırmaq təşəbbüsü ilə çıxış etmiş və bu istiqamətdə "Tərcüman" vasitəsilə müəyyən işlər də görməyə başlamışdı. O yazırdı: "Dayanmadan çalışaq, mühərrir rəfiqlər, bizlər hazırda nə qədər qəzet, risalə yazsaq da, dünyamızı dərhal islah edə bilməyəcəyimiz məlumdur, lakin əlimizdən gələcək çox mühüm bir işimiz də vardır. Bu da ortaq ədəbi dilə təməl, əsas, bünövrə qoymaqdır. Bu işə ziyadə diqqət yetirək". ("Dostlarıma açıq məktub").

Ə.Ağaoğlunun fikrincə, İ.Qaspıralının təbliğ etdiyi qayə türklərə özlərini tanıtdırmaq, milli şüuru inkişaf etdirərək onlara bir olduqlarını təlqin etməkdən ibarət olmuşdur: "Və bu qayəyə çatmaq üçün ən əvvəl türkləri hər yerdə boğan, birliyindən ayıran, milli şüurdan məhrum edən cəhalətlə mübarizəyə girişir və bunun üçün də ən müəssir amil olaraq mətbuatla məktəbə müraciət edir. Məktəb və mətbuat: türklüyü xilas edəcək o iki silah! Və mərhum bütün həyatını türkləri silahla təchiz etməyə xərclədi. İsmayıl bəy ailəsi ilə həm mühərrir, həm mürəttib, həm də müvəzirlik vəzifələrini icra edirdi. Qəzeti oxutdurmaq üçün İsmayıl bəy dəfələrlə Krımdan Qafqaza, Türküstan, Buxara, Kazan və Orenburqa qədər səfər edərək qapı-qapı dolaşmaq məcburiyyətində idi!" (A.Tahirli "Bütün türklərin tərcümanı").

Professor Xeyrulla Məmmədov Qaspıralı haqqında belə yazırdı: "Özü fəaliyyətini təkmilləşdirib, əsrin tələb və ehtiyacları mövqeyindən yeni istiqamətdə daha mənalı və məzmunlu tədbirlər həyata keçirməyə başladı. Naşirlik, redaktorluq, yazıçılıq və pedaqoqluq etdiyi uzun illər ərzində çatdığı yüksək mövqe, topladığı zəngin təcrübə, qazandığı böyük hörmət İ.Qaspıralını xalqa ağlı və qələmi ilə xidmət göstərmək istəyənlərin sevimli müəlliminə çevirdi. Krım yarımadası, Baxçasaray şəhəri həmvətənlərinin tərəqqisi işinə xidmət etmək istəyənlərin Kəbəsi oldu. Hamı üzünü bu qüvvəyə tutdu və "zülmət səltənəti"ndən qurtuluş üçün nicat istədi. Bu isə İ.Qaspıralıya Rusiyadakı soydaşları arasında yetişən ziyalıların bir neçə nəsli ilə dostluq və əməkdaşlıq etmək, fəaliyyətini işıqlandırmaq imkanı yaratdı".

## Fədakar fəaliyyət, mübariz ruh

"Tərcüman"ın redaktoru kimi fəaliyyət göstərdiyi 31 il ərzində Azərbaycanın həyatında elə bir mühüm hadisə olmamışdır ki, İsmayıl bəy ona münasibət bildirməsin və elə az-çox tanınan ziyalı yox idi ki, qəzetdə onun adını çəkməsin. Qaspıralı bir sıra elm, maarif, mədəniyyət xadiminin həyat və yaradıcılığını şəxsən izləyirdi. Onların arasında Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Nəriman Nərimanov, Əlimərdan bəy Topçubaşov, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə və başqaları var idi.

İsmayıl bəy Azərbaycanın ədəbi-mədəni həyatında, mətbuatında baş verən hadisələri ardıcıl izləyirdi. 1903-cü ildə qələmə aldığı "Tiflisdə yeni qəzet" adlı yazısında "Şərqi-Rus" qəzetinin nəşrə başladığını bildirmişdir: "Qafqaz üçün bir qəzet lazım olduğu çoxdan bəri hiss olunurdu. Buna baxmayaraq, bir neçə dəfə təşəbbüs edilsə də, icazə verilməmişdi. Bu dəfə isə Məhəmmədağa Şahtaxtlı imtiyaz almağa nail oldu. Təbrik edir, uğurlar arzulayırıq. 20 ildən bəri "Tərcüman" yalnız çalışırdı. İndi dostu zühur etdi. Ümid edirik ki, məsləki də başqa olmaz. Yalnızlığımız bizə çox ağır gəlirdi. İş çox, məsələ çox. Qələm bir idi, iki oldu". Bu sözlər Qaspıralının bir tərəfdən mətbuatın fədaisi olduğunu göstərirdisə, digər tərəfdən Azərbaycanı çox sevdiyini, onun tərəqqisinə çalışdığını təsdiqləyirdi.

İsmayıl bəyin irsində Həsən bəy Zərdabinin mətbu fəaliyyətinin, "Əkinçi" qəzetinin və Azərbaycanda çıxan digər nəşrlərin, mətbəələrin tarixi əhəmiyyəti dəfələrlə yüksək səviyyədə xüsusi qədirbilənliklə vurğulanmışdır. Onun "Həyat" qəzeti barədə yazdığı məqalə də bu baxımdan çox maraqlıdır. O, 1905-ci ildə Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlunun redaktorluğu ilə çıxan "Həyat" qəzetinin işıq üzü görməsindən duyduğu fərəhi belə ifadə etmişdi: "Şükür Xudaya! Maşallah zamana! İyirmi illik həsrətdən sonra "Həyat" göründü".

## İ.Qaspıralının təbliğ etdiyi qayə

İsmayıl bəy Qaspıralı 1906-cı il aprelin 7-də Tiflisdə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalını Azərbaycan mətbuatı tarixində xüsusi hadisə, Rusiyanın türk-müsəlman xalqlarının ədəbiyyatında satira və yumorun inkişafına təkan verən yeni istiqamət kimi təqdir etmişdi. Ədib oxucuların diqqətini ilk növbədə məcmuənin müsəlman həyatının ciddi qüsurlarının islahı üçün zəruri olan kəskin tənqidi pafosuna cəlb edirdi. O yazırdı: "Tiflisdə Cəlil əfəndi Məmmədquluzadənin "Molla Nəsrəddin" namında nəşr etməyə başladığı gülünclü tənqid və lətifə məcmuəsinin birinci nüsxəsi idarəmizə gəldi. İş bu nüsxə səkkiz səhifəyi havi olub, dörd səhifəsi Qafqaziya əhvalını tənqidanə və həcvyanə təsvir edən bir qaç boyalı gözəl rəsmlər ilə təzyin edilmişdir. Və mündəricatı dəxi şayani diqqət və ibrət olub, millətimiz arasında bəzi suyi-adət və hərəkət haqqında xeyli tənqidanə yazılmış lətifə və fəqərələri tamildir. Əgər irəli nüsxələri dəxi böylə müntəzəm bir surətdə nəşr olunsalar, tərəqqi edəcəklərinə şübhə olmayıb, bizim bu qisim yeni ədəbiyyatımız dəxi tədricən intişar edərək millət arasında rəğbət bulub fayda gətirməsi məlumdur".

"Tərcüman"ın mətbuat xülasələrində "Molla Nəsrəddin" bir qayda olaraq həmişə diqqət mərkəzində olurdu. Digər qəzet və jurnallarla müqayisədə bu jurnalın məziyyətləri daha qabarıq açıqlanırdı. Bu baxımdan 1906-cı ildə "Tərcüman"da "Bizim mətbuat" başlığı altında dərc olunmuş bir icmal xüsusi maraq doğurur. "Molla Nəsrəddin"də İ.Qaspıralının diqqətini cəlb edən ən başlıca cəhət redaktor və redaksiya əməkdaşlarının mühərrirlikdə və yazıçılıqda yüksək istedad nümayiş etdirmələri idi. Onun fikrincə, bu, özünü jurnalın tükürpərdici acı həyat həqiqətlərini təsvir, köhnə adət-ənənələri tənqid edən satira və yumorla dolu yazılarında, böyük məharətlə çəkilmiş dərin milli koloritə malik rəsmlərində, sadə və təsirli, çox vaxt iynəli dilində, mənalı və ibrətli gülüşündə, mürəkkəb ictimai-siyasi problemləri lətifə və zərbi-məsəllər qədər yığcam şəkildə ifadə etmək bacarığında, kiçik yazıların bədii təsir gücündə təzahür edirdi. Bütün bu keyfiyyətlərinə görə İ.Qaspıralı hamıya "Molla Nəsrəddin"i oxumağı və ondan bəhrələnməyi tövsiyə edirdi. O yazırdı: "Məcmuələrimizin dördüncüsü boyalı rəsmləri ilə təzyin olunub, həcviyyatdan, lətayifdən, tənqid və müvaxizədən bəhs edən "Molla Nəsrəddin" məcmuəsidir. Bu məcmuə həftədə bir kərə Tiflisdə çıxmaqdadır. Mühərriri Cəlil bəy Məmmədquluzadədir. Şimdiyə qədər müntəzəmən 23 nüsxəsi nəşr olundu. Rəsmləri və mündəricatı qayət gözəl və millidir. Lisanı ötkün və təsirlidir. Masalları gülgülü və ibrətlidir. Şöylə ki, acı, ağu həqiqətləri ballı, şəkərli oxumaq, üsul və köhnə adətlər və körənəklər lətifə ilə mat edildiyini görmək istəyənlər bu jurnalı alsınlar, oxusunlar".

"Molla Nəsrəddin" jurnalı təqiblərə məruz qalanda isə İ.Qaspıralı həmkarlarına arxadayaq olaraq yazırdı: "Sizin məcmuənizdə hədəfə olduqca sərrast dəyən şeylər vardır.., gümrah çalışın".

"Ziya" və "Kəşkül" qəzetlərinin bağlanmasından dərin təəssüf hissi keçirən naşir yazırdı: "Bu iki qəzeti iki günəş, iki şəms kimi görməli idilər... idilər, idilər, idilər, amma öncə "Ziya", sonra "Kəşkül" uçan ulduzlar kimi sönməyə məcbur oldular... Çox ayıb, minbir təəssüf, amma nə fayda? Çox böyük və dəyərli imtiyazları qeyb etdik: iki maarif günəşini qoruya bilmədik, söndürdük, ayıb".

1906-cı ildə mərkəzi Rusiyada çap olunan "Azad", "Ulduz", "Ülfət", Bakıda çıxan "Həyat" və "İrşad" qəzetləri arasında narazılıqlar baş verir. Mətbuat fədaisi olan, üstəlik də müsəlman ittifaqını və türk birliyini özünə müqəddəs amal edən Qaspıralı bu vəziyyətə laqeyd qala bilməzdi. O, dərhal məsələyə münasibət bildirir, naşirləri və redaktorları subyektiv hisslərdən uzaq olmağa, ümumi işə, bir mənafeyə xidmət etməyə çağırır.

1905-ci ilin dekabrında "Həyat"ı Ə.Hüseynzadə ilə birlikdə redaktə edən Ə.Ağayev qələmdaşından ayrılaraq özünün "İrşad" adlı müstəqil qəzetini yaradır. Əsas səbəb bu idi ki, Ə.Ağayev o zaman Şeyx Cəmaləddin Əfqaninin təsirilə islamçı mövqedə dayanmışdı. Ə.Hüseynzadə isə turançılıq ideyasını yayırdı. Odur ki, onlar bir-birindən ayrılmalarının səbəbini hərəsinin müstəqil qəzet buraxmaq arzusu ilə izah etsələr də, əsl səbəb iki dost və həmkar arasındakı ideya ayrılığı idi. Qaspıralı isə belə hesab edirdi ki, hər iki cərəyan milli mənafe baxımından faydalıdır, ona görə də ayrılığa əsas görmürdü. O yazırdı ki, "Həyat" və "İrşad" ikiyə ayrılmış bir vücuddur: "Bu vücudun hər nədən olursa-olsun, ikiyə ayrılması ağrısız-acısız olmayacağı məlumdur".

Azərbaycanın qabaqcıl fikirli ziyalıları da öz növbəsində İsmayıl bəyin türk-müsəlman xalqlarının milli və mədəni intibahı yolunda fədakar fəaliyyətini yüksək qiymətləndiriblər.

Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Soltanməcid Qənizadə, Nəcəf bəy Vəzirov, Əliabbas Müznib, Ceyhun bəy Hacıbəyli, Mirzə Bala Məmmədzadə və başqaları Qaspıralının türkçülük ideya və siyasətini müdafiə etmiş, ondan bəhrələnmiş və bu işi daim inkişaf etdirmişlər.

Türk xalqının görkəmli maarifçi ziyalısı İsmayıl bəy Qaspıralı 1914-cü il sentyabrın 11-də Baxçasarayda vəfat etmişdir. Onun vəfatı ilə bağlı "Türk yurdu" jurnalında dərc olunmuş nekroloqun müəllifi Əhməd bəy Ağaoğlu olmuşdur. Nəriman Nərimanov da İ.Qaspıralının vəfatı ilə əlaqədar "Bəsirət" qəzetində "Baxçasarayda imtahan meydanı" adlı məqalə yazmışdır. Məqalədə ziyalılığa böyük itki üz verdiyi bildirilmişdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# İstiqlal şairi Əhməd Cavad həm də jurnalist-yazar idi

**Bu günlərdə Azərbaycan xalqı milli mətbuatımızın 150 illik yubileyini dövlət səviyyəsində böyük təntənə ilə qeyd edir. Xoş ovqat yaradan uzun və keşməkeşli tarixə nəzər salanda milli mətbuatımızın təşəkkülündə və inkişafında, eləcə də xalqımızın maddi-mədəni irsinin yaşadılmasında xidmətləri olmuş neçə-neçə mətbuat fədaisi, şair və yazıçı göz önündə canlanır. Onlardan biri də istiqlal şairi, repressiya qurbanı Əhməd Cavaddır.**



Əhməd Cavad Axundzadə 1892-ci ildə Şəmkir mahalının Seyfəli kəndində dünyaya göz açıb. Gəncədə Şah Abbas məscidi nəzdində fəaliyyət göstərən ruhani seminariyasında təhsil alıb. Filosof şair Hüseyn Caviddən, ədəbiyyatşünas Abdulla Surdan və Şeyxülislam Pişnamazzadə kimi dövrünün tanınmış simalarından dərs alan Əhməd Cavad ərəb, fars və rus dillərini mükəmməl öyrənməklə, həm də vətənpərvərlik ruhunda formalaşmışdı.

1912-ci ildə təhsilini uğurla başa vuraraq müəllimlik şəhadətnaməsi alan Əhməd Cavad bir müddət Gəncə şəhər, habelə Şəmkir, Gədəbəy, Quba rayon məktəblərində müəllim işləyib. Yüksək istedada malik, vətənini, xalqını bütün qəlbi ilə sevən bir türk oğlu kimi əsrin əvvəllərində Türkiyənin düşdüyü ağır vəziyyət onu ciddi narahat edib. Şair və pedaqoq Abdulla Şaiqin qardaşı Yusif Ziya Talıbzadə ilə birlikdə könüllü əsgər kimi İstanbulda qurulan "Qafqaz könüllü hissəsi" sıralarına qatılıb. Ə.Cavad Türkiyənin şərq cəbhəsindəki müharibədən geri dönəndən sonra Acarıstanda müharibədən və erməni faşizmindən didərgin düşən müsəlman soydaşlarımıza yardım göstərənlər sırasında olub. Dörd ilə yaxın cəbhədə müxbir, xeyriyyə cəmiyyətinin üzvü, katibi, bəzən də sədr müavini kimi fəaliyyət göstərib. O, Şimali Qafqazda, Dağıstanda, Batumda, Qarsda, Ərdəhanda və Gürcüstanda olub. Ən çox türk xalqları yaşayan bölgələrə gedərək onlara maddi və mənəvi yardım göstərib, dövrü mətbuatda fəlakət bölgələrində müsəlmanların üzləşdiyi problemlərlə bağlı yazılarla çıxış edib.

Mətbuata böyük maraq göstərən Əhməd Cavad 1922-ci ildə Bakıda Ali Pedaqoji Məktəbdə təhsil alarkən "Maarif və mədəniyyət" jurnalının əməkdaşı vəzifəsində çalışıb. Bu elm ocağını bitirdikdən sonra pedaqoji fəaliyyətlə məşğul olub. Bir müddət Azərbaycan Politexnik İnstitutunda, Kənd Təsərrüfatı İnstitutunda (Gəncə, indi ADAU) dərs deyib, rus dili üzrə Azərbaycanın ilk professorlarından biri olub.

Ə.Cavadın yaradıcılığında şairliyi və müəllimliyi ilə yanaşı jurnalistlik fəaliyyəti də diqqətəlayiq yer tutur. Onun müxtəlif mətbuat orqanlarında nəşr etdirdiyi məqalələr, səfər qeydləri, xatirə və s. bu qəbildən olan digər yaradıcılıq nümunələri bu gün də aktuallığı ilə maraq doğurur. O, öz dövrünün "İqbal", "Səda", "Şəlalə", "Açıq söz", "Azərbaycan", "Yeni iqbal", "Şərq qadını", "Maarif və mədəniyyət" kimi onlarla qəzet və jurnal redaksiyası ilə əlaqə saxlayıb, əsərlərini dərc etdirib. Şairin məqalələrində dövrün ən ciddi ictimai-siyasi məsələlərinə toxunulur və konkret mülahizələr söylənilir. O dövrün mətbu orqanlarının öyrənilməsinə araşdırma həsr etmiş filologiya elmləri doktoru, professor Asif Rüstəmli bu orqanların ən fəal müəllifləri arasında Əhməd Cavadın da adını vurğulayıraq diqqətə çatdırır ki: "İlk illər qəzetin ("Açıq söz" qəzeti nəzərdə tutulur) dolğun və rəngarəng çıxmasında, mövzu genişliyində ədib, jurnalist və ictimai xadimlərdən Şəfiqə xanım Əfəndizadə, Ömər Faiq, Nəriman Nərimanov, Həsən bəy Ağayev, Hüseyn Cavid, Abdulla Şaiq, Mehdi bəy Hacıbəyli (Avarə), Hüseyn Sadıqzadə, Əhməd Cavad, İbrahim Məhəmmədzadə, Tağı Şahbazi və başqalarının xidməti böyük olmuşdur".

Ə.Cavadın qəzet və jurnal məqalələrində sənətkarlıq cəhətdən diqqəti cəlb edən odur ki, ədib qələmə aldığı məsələnin tam, təfərrüatlı tədqiqinə çalışır, haqqında bəhs açdığı hadisəni olduğu kimi, yəni ona əlavələr etmədən, tərəfsiz və qərəzsiz çatdırmağı məqsədəuyğun sayır. Bunun üçün şair jurnalist olaraq obyektivlik mövqeyində dayanır, fakt və hadisəyə milli-tarixi inkişaf kontekstində təhlil verir, ona subyektiv düşüncə ilə deyil, ictimai-siyasi tərəqqi meyarları ilə yanaşırdı.

Əhməd Cavad arxaik dəyərlərin, ənənəçiliyin əsiri olmur, qəzetçilikdə, jurnalistikada, ədəbiyyatda hər zaman "qayda və həqiqət" tərəfdarı kimi çıxış edirdi. O, öz opponentlərindən birini - məşhur "Şəlalə" jurnalının redaktorunu bu mənada "dil aristokratı, bir mühafizəkar" adlandırırdı. "Şəlalə" jurnalının redaktoru Xalid Xürrəm Səbribəyzadəni Azərbaycan ədəbi prosesinə münasibətdə ittiham edən Ə.Cavad onun bədii sənətkarlıq prinsipləri ilə yox, şəxsi istəklərdən çıxış etməsini ciddi tənqid edirdi. X.X Səbribəyzadəni subyektivizmə qapılmaqda günahlandıran Əhməd Cavad bildirirdi ki, "ədəbi qaydalar və həqiqət" mövqeyindən çıxış etmək, ədəbi prosesin qanunauyğunluqlarına cavab vermək lazımdır. O göstərirdi ki, ən nüfuzlu ədiblər belə, təpədən dırnağa qədər tənqid etdikləri hər şeyin yanına bir "zənnimcə, böylə olsa..." qeydi qoymuşlar. Fəqət siz boyun əymirsiniz".

Ə.Cavadın jurnalistlik fəaliyyətində mövzu rəngarəngliyi də diqqətçəkəndir. Belə ki, şair ictimai-mədəni həyatın müxtəlifliyini təsvir predmeti seçir, yalnız Azərbaycan deyil, onun sərhədləri xaricində yaşayan həmvətənlərinin də taleyi ilə yaxından maraqlanır, Qafqaz və Anadolu türklərinin tarixi və çağdaş durumuna dair silsilə məqalələri ilə rəğbət qazanırdı. Bu baxımdan onun "Açıq söz" və digər mətbu orqanlarda Cavad, Ə.C, Cavad - Gəncə, C.Axundzadə imzaları ilə Batumdan göndərdiyi "Bir-birimizi sevəlim", "Acarada dil", "Müsəlman qardaşlar", "Yeni nəsil, ictimai yaralarımız", "Gəncədən", "Ələkbər bəyin dəfn mərasimi", "Kars heyətinin gördüyü işlərdən", "Acara məktubları", "Batum oblastının təhqiqat komissiyası", "Rizə və Trabzon fəlakətzadələri", "Gürcü mətbuatı və Acara" kimi məqalələri diqqətəlayiqdir. Ə.Cavad bu məqalələrində özünün şəxsən müşahidə etdiyi məsələlərə toxunur, obyektiv tarixi həqiqətlərin təsvirini vacib bilir və ön plana çəkirdi. Yazılarını bir qayda olaraq analitik məqalə, reportaj və məktub şəklində qələmə alan şair göstərirdi ki, bu qəbildən olan əsərlərdə "həqiqət başqa, xəyal və ideal yenə başqadır".

Məhz həmin mövqedə dayandığına görədir ki, Ə.Cavad gürcü mətbuatının nümunəsi olan "Saxalko" haqqında tənqidi fikirlər söyləyir, "Şəlalə" jurnalının xəyalpərəstliyini tənqid edirdi. "Saxalko purtseli" qəzetinin Acariya müsəlmanlarına qarşı milli münaqişə iddiasını ifşa edən Ə.Cavad onun iftiraçı mövqeyi ilə barışmır və göstərirdi ki, "Saxalko"nun müsəlman cəmiyyəti-xeyriyyəsinə təərrüzi Acara izzəti-nəfsinə əsla uyğun deyildir: "Bu qəzetə bilirmi ki, Gürcü cəmiyyəti-xeyriyyəsinə acaralılar nə qədər mütəşəkkil isələr, müsəlman cəmiyyəti-xeyriyyəsinə də bir o qədər mərbut və mühibdirlər. Bilxassə: müsəlman cəmiyyəti-xeyriyyəsinə bu qəzetənin təcavüzləri acaralılar arasında gürcülərin insani və mədəni mövqelərini zədələdi. Bu qəzetələr yəqin ki, acaralılara qarşı deyil, daha yaxın və daha yaxşı tanıdıqları, daima əlaqə və mənafeləri zidd gələn qonşularına göstərsinlər".

Göründüyü kimi, Ə.Cavad milli münaqişə və ziddiyyətlərin səbəbini ifşa etməklə yanaşı, həm də mətbuat təhlilçisi və publisistika tənqidçisi kimi çıxış edir, gerçəklərə əsaslanmağı, fakt və sübut göstərməyi tələb edir, "həqiqətlə xəyal və idealı" qarışdırmamağı məsləhət görürdü. Elə buna görədir ki, dövrünün görkəmli şairi kimi tanınan Ə.Cavadın məqalələri müasirləri tərəfindən rəğbətlə qarşılanır və yüksək qiymətləndirilirdi.

Konkret faktlara istinad edilməklə istedadlı şair, publisist, tərcüməçi, xeyriyyəçi, cəbhəçi-döyüşçü və jurnalist kimi tanınan istiqlal sevdalısı Əhməd Cavadın məlumat və informasiyanın ictimailəşdirilməsi işinə mühüm əhəmiyyət verməsi onu həm də mətbuat nümayəndəsi və ictimai xadim kimi tanıtmışdır.

***Rəhman SALMANLI,***
***filologiya üzrə fəlsəfə doktoru***

# REGİONLAR

## Şəhid qardaşlar haqqında yazılmış kitabın təqdimatı olub



**Masallı rayon Mərkəzi kitabxanasında Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl Qələm" media mükafatçısı, yazıçı-publisist Firuzə Bəyməmmədqızının "İki əsgərin bir masalı" kitabının təqdimatı keçirilib.**

İctimaiyyət nümayəndələri, rayon ziyalıları və Masallı Regional Kollecinin tələbələrinin iştirak etdikləri tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad olunub. Tədbirdə çıxış edən kitabxananın direktoru vəzifəsini müvəqqəti icra edən Günay Xəlilova təqdimatı keçirilən kitabın canlarını Vətən uğrunda qurban vermiş şəhid qardaşların - Aprel döyüşləri şəhidi Nurlan Əsgərli və Vətən Müharibəsi Qəhrəmanı İntiqam Əsgərlinin həyat və döyüş yoluna işıq saldığını diqqətə çatdırıb. Sonra rayon Ağsaqqallar Şurasının sədri Ələşrəf Niftiyev torpaqlarımızı işğaldan azad edən hər bir şəhidimizə göstərilən ehtiramdan, onların qəhrəmanlıqlarının dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyindən söz açıb. Rayon icra hakimiyyətinin baş məsləhətçisi Nuranə Muradova vətənpərvərlik hissi ilə yazılan bu kitabın yazıçının uğurlu təşəbbüsü olduğunu, belə tədbirlərin və kitab təqdimatlarının gənc nəsildə vətənpərvərlik ruhunun daha da möhkəmlənməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini söyləyib. Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı rayon təşkilatının sədri Ramiz Tağıyev isə çıxışında müstəqilliyimizin ilk illərində torpaqlarımızın işğala məruz qaldığını və belə çətin bir dönəmdə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdaraq ordu quruculuğuna başlaması, Prezident İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimiz xalqımıza qələbə sevincini yaşatdığını bildirib. Pedaqoq Oqtay Həsənli, Əməkdar jurnalist Zakir Abbas, şairə Meysaba Aslanova və digərləri də çıxışlarında şəhid qardaşların xatirəsinə həsr olunmuş bu kitabın əhəmiyyətindən danışıblar. Çıxışlarda sənədli əsər olan kitabın tarixi hadisələrə işıq tutduğu qeyd olunub. Şəhid qardaşların anası Ziba Əsgərli ürək sözlərini dilə gətirərək uşaqlarını körpə yaşlarından Vətənə məhəbbət, düşmənə nifrət ruhunda böyütdüyünü bildirib.

Tədbir çərçivəsində Ə.Niftiyev rəhbəri olduğu qurum adından müəllifə fəxri fərman təqdim edib. Müəllif qələmə aldığı kitab haqqında təəssüratlarını bölüşüb, təqdimatın təşkilatçılarına minnətdarlığını bildirib.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Biləsuvarda "Qərbi Azərbaycan irsi" kitabının I cildinin təqdimatı keçirilib

**Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Qərbi Azərbaycan İcmasının Aparat rəhbəri Qalib Qasımov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, Qərbi Azərbaycan İcmasının rayon üzrə nümayəndəsi Rəfiqə Cəfərova və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.**

Çıxış edən RİH-in başçısı F.Qürbətov bildirib ki, Ermənistan tərəfindən zaman-zaman Qərbi Azərbaycandakı soydaşlarımıza qarşı həyata keçirilən cinayətlər və deportasiyalar nəticəsində yüz minlərlə qardaş-bacılarımız öz dədə-baba torpaqlarından məcburi şəkildə çıxarılıb, onlara məxsus məscidlər və qəbiristanlıqlar kütləvi şəkildə dağıdılıb, yer adları dəyişdirilib: "Bu gün dövlətimizin başçısının həyata keçirdiyi prioritet məsələlərdən biri Ermənistan ərazisindən qovulmuş soydaşlarımızın beynəlxalq qanunlar çərçivəsində təhlükəsiz şəkildə öz doğma torpaqlarına geriyə qayıtmalarıdır. "Qərbi Azərbaycan irsi" kitabının nəşri və kitabda ortaya qoyulan ciddi araşdırmalar bir daha bütün dünyaya sübut edir ki, hazırkı Ermənistan ərazilərinin tarixi sakinləri azərbaycanlılardır".

Qərbi Azərbaycan İcmasının Aparat rəhbəri Q.Qasımov, icmanın rayon üzrə nümayəndəsi R.Cəfərova, rayon polis şöbəsinin rəisi N.Məmmədov, rayon Ağsaqqallar Şurasının sədri A.Kazımov və digərləri qeyd ediblər ki, Ermənistan tərəfindən yüz illərdir həyata keçirilən soyqırımlar, soydaşlarımızın öz dədə-baba torpaqlarından deportasiyası, azərbaycanlıların məscidləri, qəbiristanlıqları və mədəni irs obyektləri məqsədli şəkildə dağıdılıb və bu, beynəlxalq hüququn, o cümlədən Cenevrə və UNESCO konvensiyalarının kobud şəkildə pozulmasıdır.

Kitabda 1991-ci ilə qədər Ermənistanda mövcud olmuş 700-dən çox qəbiristanlıqdan 201-nin əvvəlki və hazırkı vəziyyəti təqdim edilir. Tədqiqat zamanı müxtəlif ölkələrin arxiv və kitabxanalarından toplanan xəritələr, peyk görüntüləri, deportasiya olunmuş şəxslərin xatirələri və digər mənbələrdən istifadə olunub. Multispektral analizlər vasitəsilə torpaq istifadəsi və landşaft dəyişiklikləri müəyyən edilib.

Qeyd olunub ki, nəşr Prezident İlham Əliyevin tövsiyəsi ilə Qərbi Azərbaycanla bağlı aparılan fundamental araşdırmaların ilk mərhələsidir. Məqsəd – zorla köçürülmüş azərbaycanlıların tarixi, hüquqları və irsinin bərpasına dair beynəlxalq ictimaiyyətə faktlarla əsaslanan sənədli təqdimatdır.

*S.CAVADOV,*
*"Azərbaycan"*

## Yardımlıda taxıl biçini davam edir

**Rayon Statistika İdarəsindən verilən məlumata əsasən, Yardımlıda əkin aparılmış 2 min 644 hektar taxıl sahəsinin 1759 hektarı (66,5 faiz) biçilib.**

Zəmilərdən 4 min 227 ton taxıl, o cümlədən 3 min 545 ton buğda, 590 ton arpa, 92 ton digər dənlilər toplanıb. Taxıl üzrə ümumi məhsuldarlıq hər hektardan 24 sentner təşkil edir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,1 sentner çoxdur. Orta məhsuldarlıq göstəricisi buğda üzrə 25, arpa üzrə 20 sentnerdır.

Hazırda biçin kampaniyasında14 kombayn iştirak edir və prosesin optimal müddətdə başa çatacağı proqnozlaşdırılır.

*"Azərbaycan"*

## Gəncədə türk xalılarının istehsalına başlanılıb

**Türkiyədə fəaliyyət göstərən "Parıltı Halı" şirkətinin Gəncədə açdığı filialı xalça istehsalına başlayıb. Bu addım regionda yüngül sənayenin inkişafına, yeni iş yerlərinin açılmasına mühüm töhfə verir.**



35 nəfər daimi işçinin çalışdığı müəssisə müasir avadanlıqlarla təchiz olunub. İstehsal olunan xalçalar keyfiyyət və dizayn baxımından beynəlxalq standartlara cavab verir. İllik istehsal gücü 800 min kvadratmetr olan müəssisənin məhsulları yerli bazarla yanaşı, 2025-ci ilin sonunacan ixrac da ediləcək.

Qeyd edək ki, bu cür sənaye müəssisələrinin fəaliyyəti həm yerli istehsalın gücləndirilməsi, həm də Gəncənin iqtisadi potensialının artırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## Gənc şahmatçılar Lənkəranda beynəlxalq şahmat festivalına toplaşdılar

**Lənkəran şəhər "Starway Hotel"də Azərbaycan Şahmat Federasiyasının təşkilatçılığı ilə "Lankaran Open Beynəlxalq Şahmat Festivalı" keçirilib.**

Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov və Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənovun iştirak etdikləri tədbirin rəsmi hissəsi Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi və Dövlət himninin səsləndirilməsi ilə başlayıb. T.Qaraşov çıxışında Azərbaycanda intellektual idman növü kimi şahmatın inkişafının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edib. Bildirib ki, Ümümmilli Liderin hakimiyyətdə olduğu dövrdə görülən tədbirlər nəticəsində şahmat oyununa maraq kütləvi xarakter alıb və Azərbaycanın şahmat məktəbi formalaşıb: "Nəticədə dünya çempionatlarında, beynəlxalq turnirlərdə şahmatçılarımızın qələbələri respublika şahmatsevərlərinin sayının artmasına, müvafiq məşqçi kadrların yetişməsinə təkan verib. Bu inkişafın bəhrələri özünü xüsusilə müstəqillik dövründə daha çox göstərməyə başlayıb". Ulu Öndər tərəfindən əsası qoyulan bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayan ŞİH başçısı Azərbaycanın öz şahmatçılarının uğurları ilə haqlı olaraq fəxr etdiyini, aparıcı şahmatçılarımızın beynəlxalq səviyyədə ölkəmizi layiqincə təmsil etdiklərini bildirib.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov isə deyib ki, beynəlxalq festivalın keçirilməsində əsas məqsəd ölkəmizdə, eləcə də regionlarımızda şahmatın təbliği və inkişafı, şahmatçıların oyun təcrübəsinin və beynəlxalq reytinqinin artırılması, beynəlxalq normaların yerinə yetirilməsi, gənc şahmatçıların Avropa, dünya çempionatlarına hazırlığı və eləcə də hakimlərimizin beynəlxalq normalarının ödənilməsidir.

Rəsmi çıxışlardan sonra çempionat start götürüb.

*"Azərbaycan"*

# Təmiz hava, yaşıl meşə, buz bulaq

## Belə bir yerdə dincəlmək istəyən yolunu Göygöl rayonuna salsın

**Ölkəmiz müstəqillik qazandıqdan sonra iqtisadiyyatın digər sahələri kimi turizmin inkişafı da ön plana çəkildi. Sahənin dünya standartlarına yaxınlaşdırılması üçün çoxlu sayda qərarlar, dövlət proqramları qəbul edildi.**

Bununla da qısa müddət ərzində daxili və xarici sərmayələrin cəlb olunması, təqdim olunan xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara yaxınlaşdırılması və beləliklə dünya turizm bazarında rəqabət qabiliyyətinin artırılması nəticəsində ölkəmizdə bir sıra müsbət nəticələrə nail olundu. Artıq ən mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edən Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi turizmin, o cümlədən kənd turizminin sürətli inkişafına nail olundu. İndi istər yerli, istərsə də xarici turistlərin kənd evlərində yaşayıb istirahət etmək həvəsi daha da artmışdır. Belə istirahət bölgələrindən biri də Göygöl rayonudur.

Göygöl füsunkar təbiəti ilə yanaşı, tarix və mədəniyyət abidələri ilə də zəngindir. Bu abidələr tarixin müxtəlif dövrlərini əks etdirərək xalqımızın milli-mənəvi və mədəni dəyərlərini özündə yaşadır. Rayonda mövcud olan 32 yerli və ölkə əhəmiyyətli tarixi abidə qeydiyyata alınmışdır. Onlardan 9-u arxeoloji, digərləri memarlıq abidələridir. Yeri gəlmişkən qeyd edək ki, Göygöl rayonu Azərbaycanın qərbində, dağlıq və dağətəyi zonada yerləşir. Ən yüksək zirvəsi dəniz səviyyəsindən 3724 metr hündürlükdədir. Unikal təbiəti, zəngin flora və faunası olan rayonda kənd turizmi üçün geniş imkanlar vardır. Məhz buna görə son illər kənd turizminin inkişafı istiqamətində burada çoxlu sayda tədbirlər həyata keçirilir.

Məlum olduğu kimi, kənd turizmi dedikdə əsasən kənd mühitində müvəqqəti yaşamaq üçün xidmət fəaliyyəti nəzərdə tutulur. Kənddə yaşayan yerli əhali üçün bu fəaliyyət növü onun əsas peşəsinə təsir göstərmədən, yəni alternativ fəaliyyət kimi nəzərdə tutulur. Bundan başqa, kənd turizmi rayonun adət-ənənəsinin, mətbəx və digər mədəni-məişət sahələrinin təbliğində də mühüm vasitə hesab olunur. Ən vacib məqam isə insanların səs-küylü şəhər mühitindən uzaqlaşması, təbiətin qoynunda yerləşən kənd evlərində müvəqqəti yaşayıb istirahət etməsi, ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə qidalanmasıdır.

Bu baxımdan Göygöl rayonunun kəndləri turistlər üçün daha əlverişlidir. O üzdən isti yay günlərində Göygöl Milli Parkına yaxın ərazilərdə yerləşən Çaykənd, Şəriyar, Yeni Zod, Aşıqlı, Toğanalı və digər kəndlərdə istirahət edənlərin sayı-hesabı olmur. Qonaqlı-qaralı kəndlərdən biri də Aşıqlıdır. Kəndin 2500 nəfərdən çox əhalisi var. Rayon mərkəzindən cəmi 5 kilometr məsafədə yerləşən kənd hər cür infrastrukturla təmin edilib. Asfalt yol, su, qaz, elektrik təminatı yüksək səviyyədədir. Kəndə daxil olanda ilk növbədə yol kənarlarında bişirilən təndir çörəkləri, qutab və kətələrin ətri adama iştah gətirir.

Kəndin ərazisində çoxlu sayda istirahət mərkəzləri fəaliyyət göstərir. 400-dən çox təsərrüfatı olan Aşıqlı Hacıkənd və Göygölə gedən yolun üstündə yerləşdiyindən insanlar burada qalmağa daha çox üstünlük verirlər. Odur ki, turist qəbul edən hər bir ev sahibi kirayə verdiyi evini hər mövsüm öncəsi cari təmir etdirir, turistlərin rahatlığı üçün lazımi şərait yaradırlar. Kirayə haqqı da elə yüksək olmur - birgünlük 20-30 manat.

Kənd sakini Nailə Məmmədova hər il çoxlu sayda turist qəbul edir. Həyətində turistlərin yerləşdirilməsi üçün hər cür şərait yaradıb. Evin səliqə-sahmanı qonaqları həmişə razı salır. Məhz buna görə də yay aylarında evi boş qalmır. Qonaqlar həyətdəki meyvələrdən də istifadə edə bilirlər. Həmin kəndin sakini Səidə Məmmədova da hər il evində turist qəbul edir. Onun özü evində saxladığı turistlərə yüksək səviyyədə qulluq göstərir.

Rayonun Üçbulaq və Köşkü kəndləri də yay mövsümündə qonaqlı-qaralı olur. Təbiətin ən səfalı guşəsində yerləşən hər iki kənddə dincələnlərin sayı-hesabı olmur. Üçbulaq kəndində çıxan və müalicəvi əhəmiyyəti olan "Nurud" suyunu içmək üçün bura gələnlərin sayı ildən-ilə artır. Kənddə turistlərin rahat dincəlib istiraht etmələri üçün hər bir şərait yaradılmışdır. Burada istirahət edən turistlər maraqlı gəzintilər edir, tarixi abidələrlə yaxından tanış olurlar. Kənd sakinləri turistləri istəklərinə uyğun ekoloji kənd məhsulları ilə təmin edirlər.

Rayonun ən çox xarici turistin gəldiyi kəndlərdən biri Toğanalı kəndidir. Kəlbəcərlə kəndi birləşdirən yolun uzunluğu cəmi 74 kilometrdir. Kənd Göygöllə cəmi bir neçə kilometr məsafədə yerləşdiyindən bura gələn xarici turistlərin də sayı çox olur. Göygöl Rayon İcra Hakimiyyəti başçısının Toğanalı kəndi üzrə nümayəndəsi Xaliq Əkbərov söhbət zamanı dedi ki, yay mövsümü gələndə insanların şəhərdən uzaqlaşaraq yaşıllıqlar qoynunda istirahətə can atması artıq ənənə halını alıb: "Lakin hər kəsə bahalı hotellərdə istirahət əlçatan olmur. Əlçatan olsa belə, bəzi insanlar səsli-küylü şəhər mühitindən qaçaraq təbiətin qoynuna, kənd həyatına can atır. Söz yox ki, beləsləri üçün kənd turizmi sərfəlidir. Əlbəttə, onların mənalı istirahəti üçün lazımi şərait yaradılmalıdır və biz çalışırıq ki, bu rahatlığı onlara verək".

Namiq Abbasov kənddə ən çox turist qəbul edən sakinlərdəndir. Yay mövsümü ərzində ümumilikdə 200 nəfərə yaxın insan onun qonağı olur. Bunun üçün geniş həyətində kotteclər inşa etdirib. Turistlər burada hər cür şəraitlə əhatə olunurlar. Lazım gəldikdə onların ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə təminatı da yerinə yetirilir.

İcra nümayəndəsi onu da bildirdi ki, Toğanalıya Almaniyadan, Türkiyədən və Rusiya Federasiyasından da turistlər gəlirlər: "Bunun əsas səbəbi Göy gölün bu əraziyə yaxın olmasıdır. Almanların bu ərazilərə çox gəlməsinin səbəbi isə vaxtilə almanların qohum-əqrəbalarının burada yaşamasıdır. Onlar rayon ərazisində yaşamış soydaşlarının həyat tərzi ilə yaxından tanış olurlar".

Yerli və xarici turistlərin maraq göstərdikləri Toğanalı kəndini Göy göllə cəmi bir dağ ayırır. Sıx meşələrin arası ilə çəkilmiş asfalt yolla Göy gölə cəmi 20 dəqiqəyə getmək mümkündür. Dağlardan







gələn çay isə kəndi iki yerə ayırır. Son illər kəndə içməli su xətti çəkilmişdir. Burada tibb məntəqəsi, poçt, kitabxana, kəndə yaxın ərazidə isə istirahət mərkəzləri fəaliyyət göstərir.

Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev deyir ki, turistləri rayona cəlb etmək üçün müxtəlif tədbirlər görülür: "Elə hər il rayonda keçirilən "Moruq festivalı" da bu məqsədə xidmət edir. Rayon icra hakimiyyətinin və Dövlət Turizm Agentliyinin təşkiatçılığı ilə keçirilən festivalın təşkilində əsas məqsəd bölgənin turizm sektoru üzrə rəqabət qabiliyyətini yüksəltmək, aqroturizmin inkişafına dəstək vermək, rayonun unikal cəhətlərini, burada istehsal olunan kənd təsərrüfatı məhsullarını tanıtmaq və iqtisadiyyatın inkişafına töhfə verməkdir".

Keçən il rayon mərkəzində qazıntı apararkən yeraltı şəhər aşkar edilmişdir ki, bu da turistlərin böyük marağına səbəb olmuşdur. Həmin yeraltı şəhəri turistlərə təqdim etmək üçün hazırda ərazidə tədqiqat işləri aparılır.

Turizm mövsümünün qızğın dövrüdür. O səbəbdən Göygöl rayonunun kəndlərinə dincəlməyə gələnlərin sayı gündən-günə artır. Kənd sakinlərinin əsas işi isə rayona gələn qonaqlara diqqət və qayğı ilə yanaşmaq, onların məmnunluğunu təmin etməkdir. Bunun üçün isə rayonda hər cür imkan və şərait var.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 27 may (Çərşənbə axşamı günü) tarixli 189-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Səşənbə, 26 şabanül-müəzzəm sənə 1337.
27 mayıs 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

### DARDANEL LOKANTASI

Həmin may ayının 28-ci günü Azərbaycan istiqlaliyyətinin bir sənəliyi münasibətilə "Dardanel" lokantasında rumın orkestri və Asiya musiqisi çalıb, xanəndələr oxuyacaqdırlar.

*T-139*

### ELAN

Be-münasibəti-ruzi-tacgüzariyi-əl**a-həzrət Sultan Əhməd şah Qacar halle-dallahu mülkəhu və səltənətəhu** ruziça-harşənbə 27 şəhri-şəbanülmüəzzəm dər-konsulgəriyi-dövləti-aliyyəyi-İran əz saati-dehi-sübh ila saati-doyi-bədəzzührpəzi-raiyi-rəsmi-beəməl xahəd-aməd.

Bər-ümumi-iraniyan lazeməst ki dər-ruzi-məzkur mərasi-mi-çeşni-tacgüzari ra mücri darənd.

*Konsuli-dövləti-aliyyəyi-İran Məhəmməd Səidülvüzəra*
*8794*

### BULVARDA YENİ AÇILMIŞ QƏHVƏXANA

*İstanbulun birinci şöbəsi*

Qəhvəxana Gömrükxana qarşısında vaqe olub hərbi məmurlar üçün 10 faiz güzəşt edilir.

*Kamali-ehtiramla Səməd Zeynalov*
*8793*

*Teatro mövsümü bağlanır*

**HÖKUMƏT TEATROSUNDA**
**AXŞAM TAMAŞASI**
Bu mövsümdə axırıncı
opera və operetta tamaşaları.
Səşənbə günü şabanül-müəzzəm
ayının 26-sında (mayısın 27-sində) 1337-1919-cu ildə
axırıncı dəfə olaraq
**"Arşın mal alan"** operettası,
çaharşənbə günü şabanül-müəzzəmin 27-sində
(mayısın 28-ində)
**Azərbaycan istiqlaliyyətinin**
**səneyi-dövriyyəsi münasibətilə**
**"Leyli və Məcnun"** operası
və **"Azərbaycan"** faciəsi,
və cümə günü şabanül-müəzzəmin 29-da
(mayısın 30-da) **"Aşıq Qərib"**
operası təntənəli bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
və məzkur tamaşalardan sonra teatro mövsümü
gələn sentyabradək bağlanır.
Bu tamaşaların biletləri indidən satılmaqdadır.
Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.

*Hacıbəyli Qardaşları*
*Müdiriyyəti*
*T-136*

### QİSMİ-RƏSMİ
### [RƏSMİ HİSSƏ]

Azərbaycan Cümhuriyyəsi Məclisi-Məbusan tərəfindən 15 may 1919-cu ildə sərmayələrdən alınacaq vergilərin verilməsi vaxtı və miqdarı haqqında qəbul edilən qanun:

Dün vergilər haqqında olan qərardadların 510 və 515-ci maddələri Məcmeyi-Qəvanin [Qanunlar Toplusu] cild 5 1914-cü ildə sadir olan qəvaninin [çıxarılan qanun-ların] 1914-cü il nəşri maddə 3625, 1914-cü il nəşri maddə 2870 təbdil və təğyirinə dair qət olundu [dəyişdirilməsi haq-qında qərara alındı]:

1) Hər idarənin əsil sərmayəsindən hər 100 manata 30 qəpik miqdarında vergi verilməlidir. 100 manatdan əskik olan sərmayələr etinaya alınmazlar.

2) Sərmayədən veriləcək vergilər hər ilin fevral ayının 1-dən gec olmamaq şərti ilə verilməlidirlər.

Yuxarıda yazılan vergilər haqqında qəbz vergilərinə aid olan qanunla şikayət etmək qaydası tətbiq edilir.

Qeyd: 1919-cu ildə vergilər Məclisi-Məbusan təsdiq etdikdən sonra bir ay müddətində verilməlidirlər.

*Məclisi-Məbusan sədri namına müavin:*
*Həsən bəy Ağayev*
*Katib: Əhməd Cövdət [Pepinov]*
*İdarə rəisi: Məhəmməd ağa Vəkilov*

### MÜHÜM DƏQİQƏLƏRDƏ

Son günlər Azərbaycan türkləri böyük iztirab və həyəcan içindədirlər. Şamilqala (Petrovsk) və Dərbəndin Denikin ordusu tərəfindən işğalı və xüsusən məhəlli [yer-li] qəzetələrdən birisində gurultulu şayiə qəbilindən olaraq Könüllü ordunun Qu-ba hüduduna hücum etməsi xəbəri azər-baycanlıları haqlı olaraq düşündürür. Bu saat hər yerdə hər kəscə ən ciddi tutulan bir məsələ varsa, o da Denikinin irəlilə-məsidir. Hər kəsə təsadüf etsək, salamlamazdan əvvəl: "Bu necə işdir? Deyirlər Denikin Dağıstanı alıbdır. Bu doğru olsa, Azərbaycanın müqəddəratı nə olacaq-dır?" deyə iki sual verir.

Əlbəttə başqa dürlü olammaz da. İctima[iyy]əti bu iki sual düşündürməyə bilməz də. Ona görədir ki, bu iki məsə-ləni ətraflıca açmaq lazım gəlir.

Birinci suala mütəəssifanə [təəssüflə], müsbət cavab ver-mək məcburiyyətində-yiz. İkinci suala gəlincə, buna cavab ver-mək üçün birinci məsələni bir qədər açmaq, aydınlaşdır-maq, səbəblərini aramaq və onun məntiqi nəticəsini taparaq o əsasla da cavab vermək lazım gəlir.

Bugünkü nömrəmizin "Mətbuat" qis-mində "Dağıstan" qəzetəsindən iqtibasla bəzi mütaliələr [fikirlər, şərhlər] qeyd edil-mişdir ki, diqqət veriləcək olarsa, Dağıs-tanın bu halının səbəbi anlaşılar. Həman mütaliatdan [fikirlərdən, şərhlərdən] anla-şıldığı üzrə, Dağıstanın şimal irticası qa-bağında tabavər olmayıb [tab gətirə bilməyib] getməsinin ümdə səbəbləri əvvə-la hökumət başında duranların bacarıq-sızlığı, ricali-dövlət [dövlət adamları] yoxluğu, saniyən [ikincisi], ən ümdə olaraq hökumətlə Parlaman və camaat arasın-da sıxı rabitə və qəvi [möhkəm] etimad yoxluğu, salisən [üçüncüsü], camaatın hö-kumətdən narazılığı (bu xüsus bizə daha əvvəldən məlum idi), rabiən [dördüncü-sü], bədbəxtanə Dağıstan xalqı arasın-da əlbir, dilbir, ürəkbir, məslək birliyi olma-dığıdır. Dağıstanın istiqlaliyyətini yıxan, məhv edən, təzədən dağlıları zənciri-əsa-rət və zülmi-istibdada məhkum qılan on-ların ittifaqsız və itti-hadsızlığı oldu. Bunun üstünə bir də Dağıstan dərəbəyiləri içərisində və hökumət idarələrində De-nikin və dolayısı ilə çarizm tərəfdarları bulunması, həm də böyük bir kütlə təşkil etməsi ilə Dağıstan millətləri miyanın-dakı [arasındakı] nifaq-dan bilistifadə [isti-fadə edərək] qara qüvvə agentlərinin cid-dən çalışdıqları əlavə ediləcək olarsa, an-laşılar ki, Dağıstan tez-gec Denikinə baş əymək məcburiyyətində qalacaqdı.

Azəri türklərini düşündürən bir məsələ daha vardır: Müttəfiqlər bu işə necə baxırlar və nə üçün Denikini irəli hərəkət etməyə buraxdılar? Halbuki, qabaqlarda söz ver-mişdilər ki, Könüllü ordu Dağıstan içərisinə gəlməyəcəkdir. Hətta Denikinin irəli hərəkəti bir növ dayandırılmış kimi idi də.

Bu məsələdən əsla bəhs etməyə dəyməz. Zira bir şəxs ya bir kütlə öz qədrini bilməz, özü öz mənafeyini anlayaraq müdafiə etməzsə, özgələrdən qədirdanlıq [qədirbilənlik] və müdafiə gözləməyə əsla haqqı yoxdur.

Bu surətlə, Dağıstanın bədbəxtliyinin səbəblərini arayacaq və bu vaxtadək bütün millətlərin tarixindən alınan təcrübə əsası ilə hər millətin haqq və hüququna malik olmaq amal və arzusuna çatmaq üçün ancaq və ancaq öz qüvvəsinə güvənə biləcəyini və ancaq özünə inanması lazım gəldiyini bir həqiqət kimi qəbul edəcək olsaq, ikinci suala, yəni "Azərbaycanın müqəddəratı necə olacaq" məsələsinə də cavab tapmış olarız.

Bərəkət versin, bizim camaatımız, Məclisi-Məbusanımız və hökumətimiz içində nə qədər firqələrimiz, nə qədər məs-lək ayrılığımız varsa da, istiqlal məsələsində başdan-ayağa, sağdan-sola bütün firqələrimiz və camaatımızın fikri və rəyi birdir:

Ölmək var, dönmək yoxdur. Azərbaycan müstəqil yaşa-malı və azərbaycanlılar öz vətən və millətlərini müstəqil yaşat-malıdırlar.

Bunu həpimiz bir səslə və səmimi-qəlblə deyiriz, əməl də edir və edəcəyiz. Bundan əlavə, içərimizdə sağ firqələrimiz də, sol firqələrimiz də mövcud olmaqla bərabər, şükürlər olsun ki, nə anarxistlərimiz var, nə də monarxistlərimiz. Bu surətlə, biz kamali-məsərrətlə [kamil bir sevinclə] deyə biləriz ki, istiqlal məsələsində bizim aramızda ixtilafi-rəy [fikir ayrılığı] yoxdur. Şimdi bir şey qalır: sözdən işə keçmək.

Hamımızın yadımızdadır ki, Məclisi-Məbusanda müxtəlif münasibətlərlə bütün məbuslarımız bilafərqi-məslək [məslək, əqidə fərqi olmadan], istiqlalımızı hər növ təhdid və təh-lükədən müdafiə etmək, bir bəla gələrsə canlarını vətən və millət istiqlaliyyətinə və hürriyyətə sipər qılmağa söz ver-mişlərdir. Xatirimizdədir ki, sabiq Rəisi-vükəla [Baş nazir] F. xan Xoyski cənabları 26 kanuni-əvvəl [dekabr] tarixli bəyan-namələrində "Hökumətimiz Azərbaycan istiqlalını göz bəbəyi kimi mühafizə edəcəkdir" deyə yəmin etdi. Unutmamışız ki, hazırkı Rəisi-vükəlamız Yusifbəyli Nəsib bəy həzrətləri də 14 nisan [aprel] tarixli bəyannamələrində Fətəli xanın həman sözlərini bir daha təkrar və təyid [təsdiq] etdilər.

Bunu da isbata hacət yoxdur ki, bu saat Azərbaycan sözü camaatımız arasında hər bir şeydən müqəddəs tutulur. Böylə olan surətdə Azərbaycanın heç qorxusu və qəmi yoxdur. Ancaq yetişər ki, bir dəfə hökumət də, Məclisi-Məbusan da, camaat da yekdil və yekcəhət istiqlalın müdafiəsinə qalxışsın. O halda, heç bir qüvvə bizi sarsıdammaz və uca tutulan bayrağımız endiriləmməz.

Bu da bir şeylə olar: Qəvi [güclü] iman və etiqad ilə.

Millətimiz öz qüvvəsinə inanmalı və öyləcə də etiqad ilə əzm etməlidir. Bizim etiqadımız qəvi, imanımız kamildir. Zira, camaatımız həman camaatdır ki, hökumətsiz, başsız, ittihad və ittifaqsız, xüsusən nizamsız olduğu halda, az bir dəstə ilə əliyalın, yarımsilahlı ikən bütün cəbhədən qayıdan ordunun müqabilində iş görürdü. Şimdi isə hökumət var, başçılarımız var, ittihad və ittifaqımız var, nizam və intizamımız var olmaqla bərabər, türklük və islamlığımıza məxsus cəsarət və səbatımız vücuduyla heç bir təhlükə bizi qorxuda bilməz.

İstiqlal şərbətini dadmış olan bir millət, əzabını çəkmiş olduğu istibdad zəncirinə heç vaxt boyun əyməyəcəkdir, əyməz də.

Böylə olarsa, Müttəfiqlər bizdə bu əzmi, bu səbatı, bu məhəbbəti görərsələr, şübhəsiz ki, onlar da bizim tərəfimizdə olacaqlar. Necə ki, Soçi fəqərəsində [hadisəsində] gürcülərin tərəfini iltizam etdilər [tərəfini tutdular].

Əzm, səbat, iman və etiqad. İştə, müqəddəratımızı həll edəcək amillər.

*X. İ.*

### XƏZƏR DƏNİZİNDƏ

Pyatiqorskdan çıxıb Mozdok-Kizlyar təriqi [yolu] ilə və Staro-Tereçni körpüsü, sonra da Xəzər dənizi ilə yelkən qayığı ilə Petrovska və oradan da Bakıya qədər uzun bir səfər edən bir şəxs Tiflisə varid olmuşdur [gəlib çatmışdır]. Bu şəxsin dediyinə görə, Çeçen cəzirəsi [adası] qarşısında Staro-Tereçni ilə Novo-Tereçni körpüləri arasında İngilis Komandanlığının paroxodları seyr etməkdədirlər. Terek çayı mənsəbi qarşısında Çeçen cəzirəsinə az bir miqdarda Hindistan əsgərlərindən ibarət İngiltərə əsgəri dəstəsi çıxarılmışdır. Burada uzaqvuran dəniz topları qoyulub, 4 hidroplan və 2 aeroplan vardır. Axırıncı dəfə İngiltərə təyyarəçiləri həmin Çeçen cəzirəsindən Hacı-Tərxana [Həştərxana] və Volqa üzərinə uçmuşlardır. Qəribə burasıdır ki, cəzirədə olan balaca kənd əhalisi, ələlxü-sus arvadlar, Hind əsgərlərinin zahirindən qorxurlar. Buna görə ingilislər hindlilərə həman kəndə getməyi qadağan etmişlərdir. İngiltərə Komandanlığı ixtiyarında olan iki bəkçi [keşikçi] paroxod daima Çeçen cəzirəsi yanında dayanmaq-dadır. Məzkur [deyilən] şəxs, Staro-Tereçnidən Petrovska gələn zaman mayın 11-ində Staro-Tereçnidə Krasnovodska göndərilməkdən ötrü bir Türküstan alayı paroxoda yüklənir-miş. Bu dəstə Şimali Qafqaziyada təşkil edilmişdir.

"Terski kazak" qəzetəsinin 29 apreldə (köhnə qayda ilə) çıxan nömrəsində Şimali Qafqaziya cəbhəsi haqqında böylə bir məlumat dərc edilmişdir: Aprelin 28-ində bolşeviklərin bir balıqçı qayığı və bir paroxodu Çornırınoka gəlmiş, sahildən pulemyot və bomba atəşi başladığına görə paroxodla qayıq uzaqlaşmışdır.

### SÜLH ƏTRAFINDA

**Sülhnamə imzasının təxiri**

Almaniya sülh heyəti rəisi Brokdorf-Rantsau dünən Müttəfiqlərə müraciətlə təvəqqe eyləmişdir ki, müahidə [saziş] imzasına təyin edilmiş olan vaxt bir qədər artırılsın, tainki nota verməyə fürsəti olsun. Müttəfiqlər tərəfindən son möhlət olaraq verilmiş axırıncı vaxt mayın 29-a təyin edilmişdir.

Rantsau notası işbu maddələrdən ibarətdir.

1) Almaniyanın şərqi sərhədində ərazi məsələsi;
2) Elzas-Loren məsələsi;
3) İstila edilmiş yerlər məsələsi;
4) Xəsarətləri ödəmək məsələsi;
5) Sair məmləkətlərdə olan nemeslərin əmlakı məsələsi.

Möhlət istəmək nemeslərin müahidənaməni imzadan imtina etdiklərinə dəlalət etməyir. Ola bilər ki, nemeslər özlərinin əks təkliflərini yazıb qurtarmamışlardır. Ona görə də yenidən vaxt istəmişlərdir.

Moskva - Kovnodan [Kaunasdan] xəbər verilir ki, sülh müahidənaməsi imza edilərkən 5 min nəfər nemes saldatları bir nümayiş quraraq Müttəfiqlərin heyətinə hücum etmişlərdir. Müttəfiqlər hökuməti nemeslərin bu hərəkətinə protesto etmişlərdir.

**Fiume barəsində yeni müşkülat**

İtaliyada Fiume məsələsindən ötrü qayət dəhşətli müşkülat əmələ gəlmişdir. İtaliya vəzirləri ilə məşvərətdə bulunmaq üçün İtaliya nümayəndəsi dünən Parisdən hərəkət eyləmişdir. Bu axır vaxtlarda İtaliya nümayəndələri London müahidəsində zikr edilən torpaq tələbatından vaz keçməyə hazırlaşırlar. Amma hər şeydən əvvəl Fiumenin azad şəhər olması etilafı [razılığı] imza ediləcəkdir. Orlando bu xüsusda İtaliya nazirləri ilə məşvərətdə bulunmaq istəyir. Dördlər Şurasında bu xüsusda qəbul edilən qərara İtaliya əhalisi cid-diyyən protesto edirlər. İtaliya mətbuatı Orlandoya və İtaliya nümayəndələrinə Vilson[a] güzəştdə bulunduqları üçün hücum edirlər. Hətta Orlando Kabinəsinin dəyişəcəyi ehtimal tutulur.

- Düşənbə [bazar ertəsi] günü Avstriya nümayəndələrinə sülh müahidəsi təqdim ediləcəkdir. Zənn edilir ki, iyunun əvvəlində onlar cavab verəcəkdirlər.

- Yaponiyanın hərbi heyəti Yaponiyadan Almaniyaya əzimət etmişdirlər [yollanmışlar]. Onlar üç il müddətinə oraya təyin edilmişlərdir.

### QƏZETƏLƏRDƏN

**Amiral Kolçak və İngiltərə**

Yekaterinodar - Mövsuq [etibarlı] mənbələrdən aldığı məlumata istinadla "Naş kray" qəzetəsi xəbər verir ki, hal-hazırda Kolçak ordusu səflərində külli miqdarda ingilis əsgər-ləri müharibə etməkdədirlər. İngiltərə tərəfindən təklif edilmişdir ki, amiral Kolçakın köməyinə yenə ingilis əsgəri göndərilsin. Lakin Kolçak bu təklifi rədd edib peydərpey Sibirya əsgəri dəstələri təşkil edildiyinə görə, ancaq gələcəkdə əsləhə və mühimmati-hərbiyyə [silah və hərbi ləvazimat] göndərilməsini xahiş etmişdir.

**Qara dənizdə**

Az bir fasilədən sonra Batum, Novorossiysk və İstanbul arasında münasibat başlanmışdır. Rusiya təbəələrinin İstanbula buraxılmamaları haqqında İngiltərə tərəfindən ver-ilən əmr Sülh Konfransı öz işlərini qurtarana qədər öz qüvvəsində qalır. Məlumatlı dairədən verilən xəbərlərə görə, Qərbi Avropaya və Türkiyəyə bolşevik üzvləri daxil olmasın deyə bu əmr verilmişdir.

**Gürcüstan Hökumətinin Könüllü ordu ilə müzakiratı**

"Borba" qəzetəsi xəbər verir ki, Gürcüstan Hökuməti ilə müzakirədə bulunmaqdan ötrü Yekaterinodarda olan İngiltərə ərkani-hərbi [hərbi qərargahı] naçalniki general Briks və Könüllü ordu nümayəndələri mayın 22-də Tiflisə varid olmuşlardır [gəlmişlər]. Müzakirat Tiflisdə davam edəcəkdir.

**Kaçaznuni Tiflisdə**

Ermənistan Cümhuriyyəti rəisi Kaçaznuni Ermənistana birinci zəruri şeylərin gətirilməsi üçün Müttəfiqlər hüzurunda istidada [xahişdə] bulunmaqdan ötrü gələn həftənin axırların-da Parisə əzimət edəcəkdir [gedəcək].

**Hindistanda Şura hökuməti**

Hindistanda vaqe olan hadisələr barəsində İngiltərənin məlumati-rəsmiyyəsi böylə deyir:

Əfqanıstanda və Hindistanda ingilis nüfuzu əleyhinə olan təbliğat və mübəlliğlər [təbliğatçılar] Türküstan Şura Hökuməti vasitəsilə Mərkəzi Şura Hökuməti ilə əlaqədardırlar. 1918-ci ildə mart ayında Daşkənddə uzun müddət Hindistan bolşevikləri mehman idilər. Bunlar Türküstan müsəlman xadimləri ilə əlaqədə bulunmaq istəmişlərdir. Şimdi Türküstan Şura Hökuməti var qüvvəsi ilə çalışır ki, Hindistanla sıxı rabitədə bulunsunlar və axirüləmr [nəhayət, axırda] orada şura hökuməti təşkil etsinlər.

**Papazyan mühakiməyə cəlb edilir**

Türkiyənin Ali Hərbi Məhkəməsi Van ermənilərinin sabiq məbusu [millət vəkili] və erməni camaat xadimlərindən Vahan Papazyan[ı] məsuliyyətə cəlb eyləmişdir. Mumaileyh [haqqın-da danışılan şəxs], türk qırğını üçün əşqiya [quldur] dəstələri tərtib verməkdə müqəssir tutulur.

**Mitropolit Platon**

Odessa Müttəfiqlər tərəfindən işğal edildiyi zaman mitro-polit Platon ingilis saldatlarına ingilis lisanınca zeyldəki [aşağı-dakı] sözləri söyləmişdir:

*"Biz sizi gözləyirik və Müttəfiqlərin müavinətinə güvənirdik. Biz şimdi də sizə ümidvarıq. Hərgah sizə ümidimiz boşa çıxarsa, o zaman müqəddəratımız, taleyimiz bizi Almaniya ilə ittifaq bağlamağa vadar edəcəkdir. Ola bilər ki, o zaman siz Uraldan Reynədək rus-alman qoşunlarını öz qarşınızda görəcəksiniz."*

**Parisdə Erməni Konfransı**

Bütün dünyada yaşayan erməni nümayəndələrinin bu günlərdə Parisdə əqd etdikləri [təşkil etdikləri] konfransın cələsələri [iclasları] qurtardı. Bu konfrans Sülh Konfransına ermənilərin torpaq iddialarını və müharibədə gördükləri maddi xəsarətin miqdarını bildirmişlərdir. Erməni Konfransı öz işlərini qurtardıqdan sonra xüsusi bir komissiya intixab eyləmişdir [seçmişdir]. Bu komissiya gələcəkdə erməni dövləti təşkilatı layihəsini tərtib verəcəkdir. Bundan əlavə, konfrans yeni erməni milli heyəti intixab eyləmişdir. O heyətə zeyldəki [aşağıdakı] şəxslər intixab edilmişlərdir: Poqos Nubar paşa, Təkəyan, professor Ter-Akopyan, Çobanyan və doktor Novruz. Bu heyət Qafqaziya Erməni Cümhuriyyəti nümayəndələri ilə birlikdə Etilaf [Antanta] dövlətləri qarşısında "müttəhid [vahid, birləşmiş] və müstəqil Ermənistan" haqqını müdafiə edəcəkdir.

**Rifat bəyin həbsi**

İstanbulda Türkiyənin Məclisi-Əyanının sədri [Mənəmənlizadə] Rifat bəy tövqif [həbs] edilmişdir.

### KONFRANS DOLAYISI İLƏ: ZAQATALA MƏSƏLƏSİ

**- 1 -**

Mövzuyi-bəhsimiz [mübahisə mövzumuz] olan Zaqatala vilayəti barədə gürcü hökumətinin fikir və tamahına sər-məqalə olaraq fövqdə [yuxarıda] göstərdiyim müxtəsər və məşhur məsəl gözəl bir əndazə olsa gərəkdir.

Möhtərəm "Azərbaycan" qəzetəsinin keçmiş nöm-rələrində hökumətimiz gürcü hökumətindən Zaqatala vilayət-inə dair olan övraq [kağızları] və sənədləri tələb etdikdə, məzkur [deyilən] hökumət kamali-cəsarətlə rədd cavab etdiyini oxudum. Azad millət və demokrat əsası üzrə mux-tariyyətdən həmişə dəm vuran gürcü qonşularımızın bu vaxta qədər məmuriyyətdə bulunduqları zaman vilayətimizdə oynadıqları rollarını vaxtın təqazasına müğayir [zamanın tələblərinə zidd] hesab edərək, ələlxüsus nəzakətə riayətən yazmaqdan kəndimi bir növ saxlamışdım. Fəqət bizimlə "Ertoba" pərdəsi altında işləyən gürcü hökumətinin vilayə-timizi udmaq üçün açmış olduğu iştahası sənələrdən bəri qəl-bimdə gizlənmiş yaralarımın üstünü açıb, vətənimiz nə olduğunu, vətəndaşımız[ın] məzkur [deyilən] qonşularımız-dan nələr çəkdiklərini bəyan və həqiqəti izhar etməyə bəndəni vadar eylədi. Hərçənd, bu xüsusda möhtərəm məbusumuz Kiçikxanov cənabları müxtəsər məlumat vermiş-di, fəqət məsələ mühüm olmaqla bərabər, bu vilayətin mövqeyi-coğrafiyasına, tarixinə, din və millətinə, nüfus [əhal-isinə] və irqinə dair ətraflı məlumata lüzum görüldüyündən, mümkün qədər müfəssəl məlumat verməyə səy ediriz.

**Zaqatal vilayətinin mövqeyi-coğrafiyası**

Qərb və qərbi-şimal cəhəti gürcü torpağına müttəsildir [bitişikdir]. Belə ki, qərbi Alazan (Qanıx) nəhri olan kimi, qərbi-şimalı isə Tilav və Siqnax uyezdlərində [qəzalarında] olan Şilda nəhridir.

Sabiq hökumətin vaxtında polis idarəsincə məmləkəti idarə etmək üçün hökuməti-məzkurə [adı çəkilən hökumət] "Laqodex" təsmiyə olunan [adlanan] yeri Zaqatal okruqu ilə Siqnax uyezdinin arasında sərhəd qərar etmişdi. Halbuki, hal-hazırda Laqodex qəsəbəsi olan yer əslində Balakən ilə Qavaxçöl camaatlarına məxsus idi. Təqribən 40 sənə bundan əqdəm [qabaq] ruslar hər iki camaatdan izin alıb müvəqqət olaraq orada əsgər qışlası [kazarması] tikir. Fəqət həqiqət isə Laqodexdən 4 verst qərbi-şimala doğru 400 evdən ibarət olan gürcücə "Kabal" denilən Kartuban ismində bir müsəlman kəndi var. Bu kənddən 6 verst o səmtə doğru 9 evdən ibarət "Areşi" [adlı] bir müsəlman kəndi var. Bu kənddən 12 verst həmin səmtə 200 evdən ibarət gürcü və müsəlman ilə məskun Tebel-çox (Тебель-чохъ) adında bir kənd var. Bu kənddən bir neçə verst məsafədə "Kvareli" adında bir gürcü kəndi var və bu kənddən köhnə bizim sərhədimiz olan Şilda nəhrinə 8 verst vardır.

Demək, nəinki gürcü hökuməti iddia edən Laqodex qəsəbəsi o[n]larındır, hətta həmin qəsəbədən necə ki anlaşılır, 30 verst məsafədə olan Şilda nəhrinə qədər yerlər irsən, örfən və qanunən bizim torpağımızdır. Binaənileyh [ona görə], sabiq hökumət təyin edən bir "Административное дѣленіе" [inzi-bati bölgü] heç vaxt Zaqatal okruqu ilə Siqnax və Tilav uyezd-inə sərhəd ola bilməz.

İndi gələlim bu yerlərin nə surətlə gürcülərə keçməsinə. O vaxtı ki, bəzi tarixi mülahizələrə görə, ümumən hər yerdə olan kimi, xüsusən Dağıstan və Zaqatal okruqunun müsəlmanları-na rus hökuməti kəm nəzərlə baxırdı, gürcülər xaç qardaşı olmaq həsabiylə [səbəbindən] ruslara pənah gətirib tədriclə müttəhim (?)müsəlmanlara təəllüq [aid] yerləri tutub özlərinə mülk edərək, ətrafdan dəxi gürcülər gətirdib həmin qəsb etdikləri yerləri öz millətdaşları ilə iskan etməyə [məskun-laşdırmağa] başlayırlar. Halbuki, Laqodexdən şimala tərəf 20 verst məsafədə olan "Qarasu" denilən yerə qədər və oradan 8-9 verst məsafədə olan Dağıstan sərhədinə qədər olan dərələr – Təpəli-qara, Çorulu-qara, Xoçavdağ, Honovbuqırı-qara (yəni qəbir daşı və çarx daşı olan dərə) və Baravan-qara adlı dərələr cümləsi Balakən camaatı ilə Qavaxçöl camaatına təəllüq idi. Qarasu deyən yer Qavaxçöldən təqribən 30 verst günbatan tərəfdədir ki, bu su da Alazan nəhrinə tökülür. Bu yerə gürcülər Piçxi-buqırı (Пичхи-бугиры), yəni Çırpı köprü deyərlər, hansını ki, Qavaxçöl müsəlmanları tikibdir. Qavaxçöldən qərbi-cənuba isə ta Alazan nəhrinə qədər genə 15-17 verst məsafədə olan torpaqlar tamamən Qavaxçöl camaatına təəllüq olan kimi, bu kənddən cənuba doğru 8-9 verst ta Alazana qədər genə Qavaxçöl camaatına mütəəlliqdir [aiddir]. Bu yerlərin əksəri yaxşı meşə və qalmışı əkin yeri və ot qoruğudur. Qavaxçöldən Laqodexə olan 11 verst Laqodexin ətrafında olan yerləri 8-9 sənə bundan müqəddəm [əvvəl] rus hökuməti müsəlmanlardan alıb bir tərəfdən Rusiyadan gələn xaxol mühacirlərini və digər tərəfdən gürcüləri iskan etmişdi. Bu torpaqlarda sabiq hökumətin köməyi ilə mühacirlər tərəfindən bina olunan kəndlər:

1) Yelizavetovka, 2) Şoruma (gürcü mühaciri), 3) Alekseyevka, 4) Krakovka, 5) Vorontsovka, 6) Daşkovka və 7) İvanovka.

Burada mühacirlərə müsəlmanlardan alınıb verilən qayət gözəl və məhsuldar torpağın qədəri olar 5-6 min desyatin. Fəqət Kartuban tərəfdəki torpaqların qədəri olar 10 min desy-atindən ziyadə. Rus hökumətinin müavinəti ilə "yersiz gəldi, yerli qaç" hökmü ilə Rusiyadan gələn xaxollar və gürcü mühacirləri müsəlman torpağında bina tikib qurtaran kimi zavallı müsəlmanların başına gətirdikləri cəfa və bəla heç bir əndazəyə yerləşmədiyi kimi, heç bir ölçüyə dəxi gəlməz.

Hürriyyət olan gündən gürcülər hər vasitə ilə olsa da yuxarıda zikr olunan kəndlərdəki mühacir xaxolları gah təhdid və gah təzyiq edərək o yerlərdən köçürüb, onların yerinə Kutais quberniyasından və qeyri yerlərdən gürcü qardaşlarını gətirib iskan etdilər. Təbiri-digərlə [başqa sözlə], gələcəkdə Zaqatal okruqunu qəsb etməyə mənəvi və cismani bir qüvvə hazırladılar. Axırda iş o yerə çatdı ki, zavallı Qavaxçöl camaatından əslində özlərinin olub sonra rus mühacirləri ilə müştərək olan meşədən odun gətirməyə gedən 25-26 yaşın-dakı Ramazan Hacı Məhəmmədəli oğlunu, 25-26 yaşında Həmzət Hacı Məhəmmədcan oğlunu, 36 yaşında Məhəmməd Hacı Məhəmmədəli oğlunu, 25 yaşında Xətvo Ömər oğlunu, 31-32 yaşında ən möhtərəm və alim Molla Əli Hacı Məhəmmədəli oğlunu, 28 yaşında Məhəmməd Hacı Şaban oğlunu, 21 yaşında Məhama Məhumə oğlunu və Hacı Nuru Məhəmməd oğlunu müxtəlif vəd üzrə həmin meşədəcə qətl edirlər. Başqa zərərin hesabı yoxdur.

Bu hərəkətlərə qane olmayıb, axırda keçən yanvar ayının 20-də 56 nömrə üzrə Laqodex camaat komissarı blankı üstə Qavaxçöl muxtarına rəsmi kağız yazılıb, minbəd [bundan sonra] o meşədən biletsiz odun, çırpı qırmaq qadağan olduğunu və biletsiz rast olan müqəssirlərin baltası alınıb özü də təhti-məsuliyyətə [məsuliyyət altına] alınacağını elan edirlər və bu elanın təsdiqi üçün Laqodex icraiyyə komitəsinin möhürü ilə təmhir edirlər [möhürləyirlər]. Gürcülər dəfəat ilə [dəfələrlə] Qavaxçöl camaatına təklif ediblər ki, heç olmasa pulsuz da olsa gəlin bilet alın. Sonra nə qədər istəsəniz odun filan götürün. Görünür ki, dostlarımız bizim əlimizlə özlərinə bir sənəd (dokument) düzəltmək istəyirlər. Çox təəccüb deyil-mi?

Zaqatal okruqu şərqən Dağıstan, qərbən Gəncə və cənubən Nuxu uyezdləri ilə həmhüdud olduğundan, ancaq gürcü hökuməti ilə olan səmti göstərməklə iktifa [kifayət] etdik. Zaqatal okruqu öz balacalığına nisbətən yeri geniş, tor-pağı məhsuldar, abı-havası gözəl, kafi qədər meşələri və dağları olmaqla həmin dağlarda daş kömür, mis, gümüş və qeyri müxtəlif mədənlər də az deyildir. Bundan əlavə, okruqun müxtəlif yerlərində isti və soyuq mədən və müalicə suları dəxi mövcuddur. Ziraətcə [kənd təsərrüfatı baxımın-dan], əgər rəncbərlər təzə sistem makinalarla təchiz olun-salar, el məhsulu nəinki kəndi vilayətini, bəlkə özündən əlavə 2-3 də qeyri uyezdləri ərzaqca təmin edər. Başqa meyvə qisimlərinin qayət çox olduğu hər yerdə məlumdur. Sabiq rus hökuməti istila politikası ilə Mançuriyaya dəmiryol xətti çəkdiyi halda, belə faydalı yerin abadlığına əsla etina etmədi. İndiki Azərbaycan Hökuməti dəxi bu yerlərə layiqincə bələd olmadığından, məəttəəssüf [təəssüf ki], bu vilayətə əsla diqqət və etina etməyir. Halbuki, neft olan Bakı uyezdindən sonra hökumətə mədaxil xüsusunda tamam Azərbaycanda Zaqatal okruqu ikinci yer gərək hesab olunsun.

Tarixə gəlincə, 1221-ci sənədə Çingiz xanın ərkani-hərb məmurlarından [sərkərdələrindən] Cebe və Subutay bu mahalı zəbt edərək gətirmiş olduqları əsgərlərin bir hissəsini burada iskan ediblər [məskunlaşdırıblar]. Hal-hazırda bu vilayətdə olan muğal təsmiyə olunan [adlandırılan] türklər həmin monqol firqəsindən [dəstəsindən] qalma gərək olsun. On beşinci əsrin ibtidalarında [əvvəlində], yəni 1403 tarixdə məşhur Teymurləng dəfəat ilə bu vilayətə girərək öz qoşun-larından dəxi bir qədərini burada yurd salmağa buraxıb gedir.

*İslam bəy Qəbulov*

### DAĞISTAN ƏHVALI

**Siyasi nümayəndənin notası**

Dağıstan Cümhuriyyətinin Azərbaycan Hökuməti nəzdindəki siyasi nümayəndəsi Mallaçıxan Azərbaycan Xariciyyə naziri, Azərbaycandakı Gürcüstan və Ermənistan siyasi nümayəndələrinə müraciətən atidəki [aşağıdakı] notanı təqdim etmişdir:

"Sizə məlum olduğu üzrə, Paris Sülh Konfransı tərəfindən zorla torpaq məsələlərinin həll edilməsinə yol verilməməsi xüsusunda etdiyi qərardada müğayir [zidd] hərəkət edən Denikin ordusu kəndi istiqlaliyyəti və hürriyyəti uğrunda qeyri-müsavi [qeyri-bərabər] mübarizədə bulunan Dağıstan camaatının böyük tələfatına və bir çox kəndlərin dağılmasına səbəb oldu. Dağıstan Hökuməti Müttəfiq komandanlığına müraciətən Könüllü ordunun general Tomson tərəfindən vəd edilmiş təminata mütabiət edilməsi [tabe olunması, əməl edilməsi] istənildikdə, cavab almışdı ki, Könüllü ordu Sülh Konfransı elanına müvafiqət edəcəkdir [razı olacaqdır] və eyni zamanda Denikinin Dağıstan üzərinə hücum etməyəcəyini məzkur [adı çəkilən] Komandanlıq təyid [doğrulamış] və təs-diq etmişdir. Lakin buna baxmayaraq, Könüllü ordu qəflətən Petrovsk və Dərbənd şəhərlərini qəsb və işğal etmişdir. Könüllü ordunun ümum hərəkatı cümləsində böylə bir hərəkət Müttəfiq komandanlığı tərəfindən verilən rəsmi və müəyyən zəmanəti və təminatı pozur. Müttəfiq Komandan-lığının böylə hərəkata qarşı nəzərini cəlb və bu hərəkatdan nəşət edə biləcək [irəli gələ biləcək] nəticə nöqteyi-nəzəri ilə mən də Bakıda İngiltərə Komandanlığına müraciətən zeyldəki [aşağıdakı] notanı təqdim edib surətini isə sizə göndərirəm.

*Dağıstan Cümhuriyyətinin*
*Azərbaycan Hökuməti*
*nəzdindəki siyasi nümayəndəsi vəzifəsini ifa edən:*
*Bahadır Mallaçı-xan*

**Nota**

Bakıdakı İngiltərə qoşunları komandanı hüzuruna.

"Dağıstan Hökuməti tərəfindən Müttəfiqlərin tələbatına əməl edildiyindən naşi [əməl edildiyi üçün] Könüllü ordu kən-disini əlverişli şərait daxilində hiss edərək Müttəfiqlər tərəfindən Dağıstan məsələsinin sülh məclisində həll edildiy-inə qədər verilən müəyyən və rəsmi təminatı pozmaqla, Dağıstan Cümhuriyyətinin daxilinə irəli hərəkət etməyə başlamış və onun hissələri axır günlər qəflətən Petrovsk və Dərbənd şəhərlərini işğal etməklə bərabər, hökumətimizin azadə və müstəqil surətdə hərəkət etməsinə mümaniət [maneçilik] göstərmişdir. Böylə bir hərəkət Dağıstan Hökumətinin bütün görmüş olduğu işləri məhv edir. Bunun nəticəsi isə bizim məmləkətdən başqa yerlərə təsir göstərə biləcəkdir. Bunu nəzərə alaraq vətənin səadətini istəməklə bərabər, ələlümum Qafqaziyada adi həyat şəraitinin təmini nöqteyi-nəzərindən sizdən rica edirəm ki, tezliklə Könüllü ordunun Dağıstandan çıxmasından ötrü lazımi binagüzarlıq [addımlar atasınız] və bununla əvvəlcə İngiltərə komandan-lığının elan etmiş olduğu şəraitə ehtiram edəsiniz, əfəndim."

*Mallaçı-xan*

**İtaliya heyəti və Denikin**

Mayın 23-də axşam saat 4-də İtaliya hərbi heyəti rəisi miralay Qabba Dağıstan Cümhuriyyətinin Azərbaycan Hökuməti nəzdindəki siyasi nümayəndəsi vəzifəsini ifa edən Bahadır bəy Mallaçı-xanın yanına gedib və demişdir ki: O, Tiflisdə olduğu vaxt Dağıstan nümayəndələri ilə görüşüb çox şad olmuşdur. İndi isə Bakıya gəldikdə Azərbaycandakı Dağıstan nümayəndəsi ilə görüşməyi kəndisi üçün vəzifəədd [hesab] edir. Miralay çox təəssüf edir ki, öz planını dəyişib [Teymurxan]-Şuraya getməkdən məhrum olacaqdır. Çünki bir çox təcili işləri onu Parisə qayıtmağa məcbur edir. Miralay çox güman edir ki, sülh məclisi bu yaxınlarda millətlərin istiqlaliyyətinə dair məsələləri ədalət üzrə həll edəcək və bu barədə İtaliya dövləti Qafqaziyada olan müstəqil hökumətlər haqqında özünün müsbət surətdə rəyini bəyanla onların təs-diqini tələb edəcəkdir. Bunun cavabında Mallaçı-xan miralayı təbrik edərək söyləmişdir ki, Dağıstan millətləri batini [daxili, daxildən gələn] bir fərəhlə öz müqəddəratları həllində İtaliyanın iştirakını gözləyirlər. Qaribaldisi olan İtaliya milləti istiqlaliyyəti uğrunda çarpışan Şeyx Şamili olan Dağıstan mil-lətlərinin arzularını düşünüb də ona yardımda bulunar. Axşam saat 6-nın yarısında Mallaçı-xan öz növbəsində miralay Qabbanı ziyarət etmişdir.

- Mövsuq [etibarlı] mənbələrdən alınan məlumata görə, Könüllü ordunun axırki hərəkatından naşi [hərəkatı səbəbindən] İtaliya hərbi heyəti rəisi miralay Qabba özünün səyahət planının dəyişib, təcili surətdə olaraq Parisə övdət etmişdir [qayıtmışdır].

**Dağıstan sülh nümayəndələri Parisdə**

Parisdən alınan 30 aprel tarixli "Tan" qəzetəsinin yazdığı-na görə, Dağıstan sülh nümayəndələri İbrahim bəy Heydərov, Heydər Bammatov, Çermoyev və Xədzərat aprelin ortasında Parisə varid olub [çatıb], hal-hazırda orada iqamət etməkdədirlər [oturmaqdadırlar].

### YÜZ İL İDİ

Qara bulud yüz il idi bürümüşdü vətəni,
Teyyib sular, saf bulaqlar yer zindanda qalmışdı.
Göy bağçalı, sərt qayalı, qarlı dağlar elini
Xain əlli yabançının zəncirləri sarmışdı.

*

Məsrur günəş qart dağların arxasından çıxaraq
Əsir ellər obasından qar əridi keçərkən.
Yüz il idi hürr nurunu bu vətənə saçmayaraq
Keçərdi o gözəl pəri əsirləri görməzdən.

*

Yüz il idi yaşıl dağlar ellərini görməzdi,
Ulu çinar çağırmazdı kölgəsinə adamı.
Yüz il idi sərin sudan qoyunumuz içməzdi,
Bir ürəkdən türkü deyib çağırmazdı çobanı.

*

Yüz il idi gülməz idik, vətən idi yaralı,
Böyük Cavad, Şamillərin qulaq verin səsinə.
Yüz il idi o şimalın ikibaşlı qartalı
Dəmir dırnaq batırmışdı bu vətənin köksünə.

*

Yüz il idi yalvarışı Ulu Tanrı haqladı,
Mövlam verdi zalımlara etdiyinin cəzasın.
Yüz il idi yaramızı bir dost əli bağladı,
Əziz vətən, o gözəl qız indi atdı qarasın.

*Gəncə, 15 mayıs.*
*Ayn. Bağırlı.*

### VÜKƏLA ŞURASINDA
### [NAZİRLƏR KABİNETİNDƏ]

- Rəisi-vükəlanın [Baş nazirin] 28 Mayıs İstiqlal bayramı haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alın-mışdır]:

İşbu nazirlərdən mürəkkəb [ibarət] komisyona gələn iclas üçün İstiqlal bayramı layihəsi tərtibi tapşırılsın: [Nəriman bəy] Nərimanbəyov, Hacınski, [Xoren] Amaspur, [Ağa] Əminov və [Adil xan] Ziyadxanov.

- Post və Teleqraf nazirinin İstiqlal bayramı qaydası haqqındakı məruzəsindən sonra qət edilmişdir:

İstiqlal haqqındakı dövləti komisyon layihəsini təsviblə [bəyənməklə], Maliyyə Nəzarətinə tapşırılsın ki, həman komisyona avans təriqi ilə [avans kimi] 20 milyon fonddan 100 min manat buraxılmaq barəsində binagüzarlıqda bulunsun [sərəncam versin].

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin ziyalı qaçqınlara müavinət etmək barəsindəki məruzəsindən sonra qət edilmişdir ki, məruzə rədd edilsin.

- Ümuri-Xeyriyyə və Nafiə nazirinin xaraba qalmış Şamaxını təmir üçün 10 milyonluq istiqraz açılmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə tapşırılsın ki, mütəxəssislər və məhəlli [yerli] əhalidən mürəkkəb [ibarət] bir komisyon təşkil edilərək, məhəllində [yerində] əhvalı öyrənərək, yeni Şamaxı binası haqqında məlumat cəm etsin.

- Ümuri-Xeyriyyə və Nafiə nazirinin Bakıda xəsarətdidə olmuş [zərər çəkmiş] Şamaxı qəzası Astraxanka kəndlilərinə

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 27 may (Çərşənbə axşamı günü) tarixli 189-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

müavinət etmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nəzarətə öz məbləğindən iki ay vaxtınadək 15.000 manat qərz [borc] verilməsi tapşırılsın.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Vükəla Şurasına məruzə təqdim edərək 3 min nəfər işsiz ermənilərin Bakıdan pulsuz çıxıb getmələrinə icazə istəmişdir. Ermәni Milli Komitəsinin etirafı ilə onlar Bakıdan getmək istəyirlər.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti qərardadına görə, işə cəlb edilmiş qaçqın, qaçqın payı almamalıdır. Bir nəfər qaçqın təklif ediləcək işdən imtina edəcək olarsa, qaçqın payından məhrum ediləcəkdir.

**Yaxın Şərqə Amerika Müavinəti Cəmiyyəti sədri Elmer ilə müsahibə**

Mister Elmerin Tiflisə gedəcəyi ehtimalına görə, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] nümayəndəsi doktor Bron mumaileyhin [adı çəkilən şəxsin] hüzuruna gedərək Azərbaycandakı qaçqınların əhvalını təsvirlə rica etmişdir ki, bura qaçqınları üçün də Batumdakı mərkəzi Amerika anbarlarından un buraxılsın. Mister Elmer[ə] Azərbaycandakı hamı millətlərə mənsub 105 minədək qaçqınlara bu vaxtadək Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin 11 milyonadək para sərf etdiyi bildirilmişdir. Elmer Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müavinətdə bulunacağını vəd etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə naziri teleqrafən öz müavini Rüstəm xan Xoyskiyə tapşırmışdır ki, Tiflisdəki rəsədxana müdiri Qlasekin Şamaxının geoloji əhvalına dair yazdığı məruzəsini alsın. Zira yeni Şamaxı təmiri üçün qiymətli bir əsərdir.

## ZAQAFQAZİYA KONFRANSINDA

Zaqafqaziya Konfransının mayın 22-də vaqe olan iclasında sərhəd məsələsinə baxan komissiya tərəfindən [Noy] Ramişvili məruzədə bulunmuşdur. Məruzəçi izhar etmişdir ki, komissiyanın qəsdi ancaq Zaqafqaziya cümhuriyyətləri arasında sərhəd mübahisələrini həll etmək üsulu və əsasları haqqında rəyini söyləməkdən ibarətdir. Komisyon öz işini bitirib, çıxardığı qətnamələri müzakirə olunmaqdan ötrü Konfransa təqdim edir:

1) Millətlərin müstəqil olmaları hüququ haqqında inqilabın həyata tətbiq olunan ali şüarı əsası ilə vücuda gələn Zaqafqaziya hökumətləri üçün sərhəd təyin edilməsi məsələsi Konfrans qarşısındadır.

2) Mübahisə edən cümhuriyyətlər arasında ancaq mübahisəli əd [hesab] edilmiş olan rayonlar müzakirə edilə bilər.

3) Yuxarıda göstərilən mübahisələrin həlli mənfəətdar olan cümhuriyyətlərin sazişindən ibarətdir. Saziş olmadığı zaman mübahisələr hakəm [arbitr] məhkəməsi vasitəsilə həll edilməlidir.

Zaqafqaziya Konfransı komissiyanın bu qətnaməsini müzakirə etməyi yaxın iclaslardan birinə qoymuşdur.

## MƏTBUAT

Dağıstanın şimdiki halı, xüsusən Petrovsk, Dərbənd və sairlərinin Denikin qoşunları tərəfindən işğalı haqqındakı xəbərlərlə əlaqədar olan vəziyyət bu gün hər bir azərbaycanlını düşündürməkdə, həm də iztirab içində buraxmaqdadır. Biz, əlbəttə, hər birimiz bu işlərin bütün təfsilatını bilmək istəriz. Fəqət bütün səyimizə rəğmən gərək məhafili-siyasiyyədən [siyasi dairələrdən] və gərəksə xüsusi mənbələrdən öylə məlumat almaq mümkün olmayır ki, qarelərimizə [oxucularımıza] ətraflı məlumat verə biləк. Ona görədir ki, yeganə mənbə gördüyümüz rəfiqimiz "Dağıstan" qəzetəsinin məqalə və mütaliatını [fikirlərini, şərhlərini] müntəzəmən dərc etməyi lazım gördük.

Bilxassə, bu mütaliat müntəzəmən təqib edildikdə, iki aydan bəri Dağıstanın nə vəziyyətlər keçirdiyi bir növ anlaşılır.

Məsələn həman qəzetə məmləkətin əhvali-ümumiyyəsini təsvirlə yazır ki:

*"Biz ən ziyadə hökumət ricalı [adamları] qəhətliy[in]ə mübtəlayız. Rical və məmurlarımız hökumət işlərində mübtədidirlər [təcrübəsizdilər]. Bir miqdar təcrübə görən məmurlarımız varsa, onlar da rus hökumətinin yetişdirdiyi yadigarlardır. Bu məmurlar demokrat üsulunda xalqı idarəyə aşina deyildirlər. Hüsnniyyətdə olsalar belə, əhalimiz onların işlərindən əmin və məmnun olammayır. Ümumi lisanımızın yoxluğu da hökumət işlərimizi xələldar edir. Çünki hökumətin rusca lisanını əhali anlayammayır. Məhəlli [yerli] dillərə və ərəbcəyə tərcümə edilib qəzalara göndərilən əvamir [əmirlər] və təbliğat dəxi postaların yoxluğundan və ya son dərəcə intizamsızlığından yolda qalır. Binaənileyh [ona görə], xalq heç bir şeydən xəbərdar olammayır. Hökumətdən qaç dəfə bir təbliğat şöbəsi təşkil edilmək rica edildisə də, şimdiyə qədər öylə bir idarə və şöbə açılmadı. Əhalimiz növmi-qəflətdə [qəflət yuxusunda] uyuyur. Onları oyatmaq üçün düşmən səri atəşli [sürətlə, ard-arda atəş edən] toplarını atır. Fəqət düşmənə qarşı ancaq top səsini eşidənlər çıxır. Məclisi-Məbusan 15 gün tətil edilib, o müddətdə məbuslarımız əhalini iqaz [xəbərdar etmək] üçün bütün qəza və nahiyələrə səyahət etməyi qət etmişlərdi. Fəqət hər gün bir mane çıxarılaraq məbusların hərəkəti təxir edilir.*

*Qroznıda əlan [hal-hazırda] Denikinlə müzakirəyə gedən heyəti-mürəxxəsəmiz əzası [nümayəndə heyətimizin üzvü] və Məclisi-Məbusan rəisi Qaplanov cənablarından gələn məktubun məzmununa görə məlum olur ki, Denikinlə etilaf edilmək [uzlaşmaq] qeyri-qabildir. Çünki Denikin Rusiyanı ehya etmək [diriltmək] və Dağıstana sahib olmaq məqsədində kə-makan [əvvəlki kimi] israr edirmiş. Denikinlə bərabər bir ingilis generalı da bulunurmuş. Biz bu ağır vəziyyətdə ikən daxildə hökumətimizi sağa və ya sola çəkməyə uğraşanlar da var imiş. Hökumət rəisimiz Məclisi-Məbusanda bəyanatda bulunduğuna görə, hökuməti hər iki cəhət təciz edirmiş [sıxışdırır, narahat edirmiş]. Hökumət, Şeyx Uzun Hacıları, Şeyx Əli Hacıları etilafa [uzlaşmağa] dəvət edib, aradakı bütün təfriqəni izaləyə [ikitirəliyi aradan qaldırmağa] çalışdığı əsnada, gərək sağların və gərək solların hökuməti və hökumət ricalımızı rahat buraxmaması mövcibi-təəssüfdür [təəssüf doğuran bir haldır]."*

Digər bir nömrəsində yenə "Dağıstan" rəfiqimiz nəinki hökumətlə Parlaman və camaat arasında ədəmi-etimad [etimadsızlıq], bəlkə əhali arasında ədəmi-ittifaq olduğunu [birliyin olmamasını] təsvir edir, yazır ki:

*"Bəziləri bütün-bütünə məyusiyyət və ətalətə qərq olmuşlar. Mizanın hanki tərəfi ağır gələrsə, gedib orada oturmağa hazırlanırlar. Əmri-vaqeyə [olmuş bitmiş işə, fakta] qarşı iş görmək istəyirlər. Yıxan mənimdir, yıxılan sənin, deməк niyyətində bulunurlar. Bəziləri isə əfkari-ammәni [ictimaiyyəti] təşvişə və təraddüdə iqa edərək [salaraq] gah bolşeviklərlə, gah avropalılarla, gah denikinlərlə, gah müstəqbəldə [gələcəkdə] olacaq Rusiya ilə xalqı qorxudurlar və deyirlər ki, nahaq yerə canımızı və malımızı fəda etmək mənasız bir şeydir, onlar bizə istiqlal verəmməzlər. Hürriyyətimizi mühafizə edəlim və istiqlalı Cənabi-haqqa tövdi edəlim [Allaha əmanət edək]."*

Görünür ki, xalq nəzərində etimad və etibarını itirmiş olan Dağıstan Hökuməti öylə bir hala gəlmişdir ki, dostu ilə düşmənini tanımayacaq dərəcə şaşırmışdır. Bu xüsusda eyni nömrədə şu fəqərəni [hadisəni] oxuduq:

*"Kəndilərinə qarşı pək ziyadə hörmətkar olduğumuz hökuməti-hazirə ərkanı [hazırkı hökumətin adamları] mətbuatı kəndinə zahir [köməkçi] bilməli. Müzahirət [köməklik] demək müdahənə [yaltaqlıq, ikiüzlülük] demək deyildir. Zatən müdahənə şəklində ediləcək müzahirət də müəssir [təsirli] olammaz. Hökumət adamları kəndilərindən xoşnud olanların təqdiratını [təqdirlərini, təriflərini] qəbul etdikləri kimi, xoşnud olmayanların tənqidatını da [tənqidlərini də] istema etməyə [eşitməyə] qatlanmalıdırlar. Hətta haqsız belə olsa.*

*Şu nazik [həssas] zamanda millətin müqəddəratını əlində bulunduran hökumət, əfkarının [fikirlərinin, ideologiyasının] müdafiəsi, icraatının təqviyəsi [dəstəklənməsi, qüvvətlənməsi] üçün millətdən qüvvət almağa möhtacdır. Bu qüvvət[i] də sərbəst olmaq şərti ilə mətbuat vasitəsilə təmin edə bilər.*

*Xalqımız hökumətdən bu asayiş məsələyi-həyatiyyəsinin həllini [həyati əhəmiyyət daşıyan asayiş məsələsinin həllini] rica edirlər, bəkləyirlər. Mənə qalarsa, bu icraat, anfən [bir az yuxarıda] söylədiyim kimi, dəmirdən bir ələ tövdi... [tapşırılarsa...]"*

İştə, Dağıstanı fəlakətə doğru sürükləyən amillərdən bəzi nümunələr. Bu xüsusda daha ziyadə məlumat verməyə ümidvarız. Qoy, Dağıstanın nə halda olduğunu qarelərimiz kəndisi düşünsün. Qoy, Dağıstanın bugünkü halından hamı ibrət alsın!

## QADINLARIN VƏZİFƏSİ

Qəlblərdə sizə böyük bir məhəbbət, müqəddəs bir hörmət bəslənir! Saqın, məhəbbət bəslənir. Bəlkə bundan sonra yetişən müsəlman çocuqlarına validəlik edərək onları tam iyirminci əsrin insanları yapacağınız və onlara milli tərbiyə verəcəyiniz üçün bəslənir. Buna əminəm və imanım qəvidir [güclüdür]. Millət və din sizdən bunu istəyir.

Görürsünüz ki, zaman dəyişərək gəlmiş və daha pək çox dəyişəcəkdir. Əgər bu gedişlə gedərsək, başqa millətlərin yədi-əsarətinə düşmüş [əsiri olmuş] olacağız.

Əsarət nə demək olduğunu pək əla bilirsiniz, bilxassə millətlər əsarəti! Xəstə bir vücudu ancaq doktor qurtara bilər. İnqiraza [süquta] üz tutmuş bizləri də quratacaq ancaq sizsiniz. Ey millətin istiqbal [gələcək] ümidi olan gənc qızlar! Qucaqlarınızda böyüyəcək çocuqlarınızı hər şeydən əvvəl bir müsəlman, millətini sevən bir müsəlman olaraq böyüdünüz. Çocuqlarınız aləmi-bəşəriyyətə ilk addım atdıqları günü qarşısında müsəlman millətinin dərdinə dərdnak, məsudiyyətinə şadan [dərdiylə dərdlənən, sevinciylə sevinən] olmaq üçün tərbiyə ediniz ki, gələcəkdə kəndi mövcudiyyətindən xəbərdar, ədəbiyyat və lisana sahib bir müsəlman milləti vücuda gəlsin. Millət bu gün sizlərdən yalnız şunu istəyir. İffət yalnız çarşaf altındadır deyərlərsə, saqın inanmayınız. Biliniz ki, pək çox qadınlar məstur [örtünmüş] olaraq gəzirsələr də, açıq gəzən qızlar qədər sahibi-iffət deyildirlər.

Bunun üçün haqqınızda söyləniləcək bitərəf sözlərə qulaq veriniz. Haqqınızda söz söylənilərsə, meydani-mübarizəyə girişiniz. Əmin olunuz ki, qalib olacaqsınız.

Təbiət adətlərə qələbə etməlidir. İnsanlar təb'ən [təbiət etibarilə] hürr yaradılmışlardır. Məktəblərdə, darül-ürfanlarda nuri-həyat vardır və o həyata qoşunuz ki, başqa millətlər nə olmuşlar, bizlər nə oluruz, öyrənəsəniz. Yarın qucaqlarınızda böyüyəcək olan müsəlman çocuğuna millət və millətin nə olduğunu bildirəsiniz. Qucaqlarınızda olan çocuqlara sağlam bir fikir, qəvi [güclü] bir ruh veriniz ki, irəlidə dünya üzərində yaşamaq üçün qarşısına çıxan hər müşkülata qarşı dursun, müsəlman millətinin tərəqqisinə çalışsın və bunu da kəndi borcu bilsin.

*Nəcib*

## İTALİYA HEYƏTİ ŞƏRƏFİNƏ ZİYAFƏT

Srağagün "Metropol" mehmanxanasında, Bakıya varid olmuş İtaliya siyasi heyəti şərəfinə Azərbaycan Hökuməti tərəfindən böyük bir ziyafət verilmişdir. Ziyafətdə Nəsib bəy Yusifbəylinin rəyasəti ilə Azərbaycan Hökuməti üzvləri, Şəhər İdarə rəisi, Birja rəisi, dövlətlərin siyasi nümayəndələri, firqə [partiya] rəisləri və bir çox möhtərəm əşxas [şəxslər] isbatıvücud [iştirak] etmişlərdir.

İtaliya heyəti Şahzadə Savoyski və Miralay Qabba başda olmaq üzrə ziyafət məclisində hazır olmuşlardır.

Əvvəlcə Nəsib bəy Yusifbəyli möhtərəm qonaqları Azərbaycan Hökuməti namından təbrik etmiş və qədim İtaliya mədəniyyətinin başqa xırda millətlər haqqında ədalət üzrə rəftar edəcəyinə əmin olduğunu bəyan etmişdir.

Bundan sonra, məclisə "tamada" olaraq Səfikürdski seçilib, heyəti təbriklə, onun sağlığına badə qaldırmışdır. Bundan sonra, Parlaman əzalarından [üzvlərindən] doktor Qarabəyov və Məhəmməd Əmin Rəsulzadə heyəti təbriklə nitqlər söyləmişdir.

Rəsulzadə cənabları türk dilində mənidar [mənalı] və atəşin bir nitqlə ümum məclisin diqqətini kəndisinə cəlb etmiş və nitqindən sonra hazirundan bir çoxları onun bərabərinə gəlib əlini sıxmışlardır. Rəsulzadə öz nitqində İtaliya qövmünün keçirmiş olduğu böhran vəziyyətləri bəyanla hürriyyət uğrunda var qüvvəsi ilə çalışmış olan Qaribaldinin tutduğu yolu göstərmiş və bu yol ilə də italyanların hərəkət etmələrini tövsiyə etmişdir.

Bədəhu [sonra], Xariciyyə naziri müavini Adil xan Ziyadxan fransız dilində böyük nitq irad ilə [söyləməklə] ümumun və ələlxüsus italyanların alqışına məzhər [nail] olmuşdur.

Məclisin axırında Şahzadə Savoyski və miralay Qabba Azərbaycan Cümhuriyyəti və əsgərləri sağlığına badə qaldırmış və söyləmişlər ki, onlar indi Parisə gedib və qayıtdıqları vaxt Azərbaycan üçün fərəhli və xoş xəbərlərlə gələcəklərdir və əlavə etmişdir ki, sülh məclisində İtaliya mürəxxəsləri [nümayəndələri] Azərbaycan istiqlaliyyətini var qüvvələri ilə müdafiə edəcəklərdir. Ziyafət axşam saat 7-də xitam bulmuşdur.

## BAKI XƏBƏRLƏRİ

**Müsəlman dükançılarının xahişi**

Bakıda sükunət edən [yaşayan] bir çox müsəlman dükançıları Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"a müraciətən rica etmişlər ki, ehtiyat əsgəri olmaq üzrə onlara həftədə bir dəfə olsa da, Azərbaycan ordusu zabitləri tərəfindən təlim verilsin. Dükançıların həmin ricasını firqə Bakıdakı qoşun hissələri komandanına göndərib kəndi tövsiyəsini əlavə etmişdir. Buna cavab olaraq komandan məlum etmişdir ki, dükançıların böylə xahişləri məəl-məmnuniyyə [məmnuniyyətlə] qəbul edilir və onlara təlim vermək üçün zabitlər təyin olunmuşdur. Məşğul olmaq istəyən şəxslər hər gün Salyan kazarmalarında yazıla bilərlər.

**Məsai Nəzarətinin izahı**

Fəhlələr tərəfindən edilən suala görə, Məsai [Əmək] naziri bəyan etmişdir ki, müştərək [kollektiv] müqavilənin bir çox maddələri hələ tətbiq edilmədiyindən, ixtilaflı məsələlər xüsusunda əmələlər [fəhlələr] bilavasitə Məsai nazirinə müraciət edə bilərlər.

**Əsgərliyə dair**

Daxiliyyə naziri Bakı qubernatoruna müraciətən məlum etmişdir ki, neçə gün bundan əqdəm [qabaq] əsgərliyə dəvət haqqında şəhərin bütün uçastoklarına məlumat verilmişdisə də, əsgərliyə gələnlər çox zəif bir surətdə öz vəzifələrini ifa edir və çoxları gəlməyirlər. Bir çoxlarının şəhərdən çıxıb getmələri dəxi müşahidə olunmuşdur. Kəndlilərə gəldikdə, onlar çox artıq dərəcədə şövq və həvəslə şadyanalıq edərək əsgərliyə gəlib yazılırlar. Şəhərlilərin əsgərliyə böylə səhl [səhlənkarlıqla] baxmaları əlbəttə qanuna, vətən və millətə böyük bir xəyanətdir və ona mürtəkib olanların [qurşananların] haqqında ən qatı və ciddi tədbirlər ittixaz edilməlidir [tədbirlər görülməlidir].

Əsgərlikdən qaçanlar Divani-Hərbə [Hərbi Məhkəməyə] təslim edilməklə edam olunacaqdır. Binaənileyh [ona görə], qubernator bu barədə ciddi tədbirlər ittixaz edib, fərari əsgərləri axtarmalı və lazımi yerlərinə təqdim etməlidir ki, bundan nəşət edə biləcək [irəli gələ biləcək] hər bir cavabdehəndəlik [cavabdehlik] onun öhdəsinə düşəcəkdir. Bundan əlavə, qubernator dəmiryolları və körpülərdə əsgərliyə düşənlərin getmələrinə imkan verməməkdən ötrü ciddi surətdə təftişat və təhqiqat icra etməlidir.

**Bakı-Culfa yolunda**

Bakı-Culfa yolunda işləyən mühəndis, məzkur [deyilən] yolun ikinci hissəsində, Cavad uyezdi sərhədində böyük bir oğurluq kəşf edildiyini qubernatora məlum etmişdir. Yoldan külli miqdarda inşaat alatı [alətləri] və müxtəlif ləvazimat oğurlanmışdır. Oğurluqda Cavad pristavı Xəlilov və Cavad Bəxşəli oğlu müttəhim edildiklərindən, onların tövqif [tutulmalarını] və həbs edilmələrini mühəndis qubernatordan rica etmişdir.

**Qəhvə və çay fabrikası**

Rafael Natan tərəfindən Bakıda Balaxanski küçədə, 111 nömrəli evdə qəhvə, çay fabrikası açılıb, Ticarət və Sənaət Nəzarətindən [Ticarət və Sənaye Nazirliyindən] icazə verilməsi rica olunmuşdur. Fabrika bu günlərdə işə şüru edəcəkdir [başlayacaqdır].

**28 May Bayramı münasibətilə**

Bakı qubernatoru Bakı Balaxana-Sabunçu qalabəyisinə müraciətən rica etmişdir ki, mayın 28-də Azərbaycan istiqlaliyyətinin birinci səneyi-dövriyyəsi [ildönümü] olmaq münasibətilə ümum əhaliyə həman günün təntənəli surətdə olaraq bayram edilib və ümum hökumət və camaat müəssisələri və məktəbin qapanması haqqında ittilaat [xəbər] versinlər.

**İran mühacirləri haqqında**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi İran mühacirlərinin nəhayətdə ağır hallarını nəzərə alaraq firqənin məsarifi ilə təmir edilmiş olan "Səfa" məktəbi binasında onların yerləşdirilmələrini təhti-qərara almışdır.

**Evsiz uşaqlar haqqında**

Daxiliyyə naziri Bakı qubernatoruna müraciətən Bakı küçələrində olan evsiz və pərəstarsız [himayəsiz] uşaqlar haqqında Nəzarət tərəfindən sadir olmuş binagüzarlıq [verilmiş sərəncam] barəsində onun tərəfindən nə kimi iqdamat olunduğunu [addımlar atıldığını] sual etmişdir.

**Balıq tutmağın mən'i [qadağan edilməsi]**

Bakı qubernatoru Cavad uyezdni naçalnikinə [qəza rəisinə] məlum etmişdir ki, yeni binagüzarlıq [sərəncam] edilənə qədər "Boji promısel" sularında balıq tutulması qadağan edilmişdir.

**Aksiz məmurları haqqında**

Məsai naziri "Müsavat" firqəsinə məlum etmişdir ki, Çornı-qorodda aksiz məmurlarının öz vəzifələrindən sui-istifadə etdikləri barəsində verilən ərizə Maliyyə Nəzarətinə göndərilib, ciddi tədbirlər ittixaz edilməsini tövsiyədə bulunmuşdur.

**"Leyla" barkazının tövqifi**

Neçə gün bundan əqdəm [qabaq] Petrovskdan Quryev şəhərinə gedən Tağıyevin "Leyla" adlı barkazı yolda bolşeviklər tərəfindən tövqif [tutulmuş] və zəbt edilmişdir.

**"Bakinets" qəzetəsi idarəsinin dağılması**

Srağagün axşam "Metropol" mehmanxanasının altında olan Qriqori Cinoridzenin "Bakinets" qəzetəsi idarəsi qapısında "Yeni həvadis" ["Yeni xəbərlər"] sərlövhəsi ilə bir parça kağızda böylə bir xəbər yazılmışdı:

"Denikin ordusu Quba üzərinə hücum edir. Bakıdan oraya nümayəndələr heyəti getmişdir. Raboçi Konfrans [Fəhlə Konfransı] hökumətə Denikinlə mübarizədə bulunmaqdan ötrü öz köməyini təklif etmişdir və qeyriləri."

Bu xəbəri oxumağa "Metropol"un qabağına bir çox adam yığılmış və polis onları dağılmağa təklif etdikdə, getməyib dayanmışlar. Adamlardan bir neçəsi "xəbərin" pəncərədən çıxarılmasını tələb etmişlər. İdarə bağlı olduğundan, onu çıxarmaq mümkün olmadığından adamlar şüşəni sındırıb kağızı parçalamış və idarəni dəxi dağıtmaq istəmişlərsə, polis nəfəratı [nəfərləri] mane olmuşdur.

Qriqori Cinoridze kimi keçmişi hər kəsə məlum olan bir şəxs bolşeviklər vaxtında Tiflisə getmiş, orada gürcülər onu öldürmək istədikdə bir tövrlə Vladiqafqaza, oradan Pyatiqorsk və qeyri şəhərlərə qaçmışdı. Türklər getdikdən sonra Bakıya gəlib öz "köhnə məsləki" üzrə Martınov yerinə Denikin, Prjevalski, Lyaxov, Erdeli və qeyrilərinə "ibadət" dəlləkliyində davam edib, bir nəfər "alicənab" müsəlman qardaşa da öz "əvvəlki qulluğunu" yerinə yetirirdi.

Axır vaxtlarda bu hərif küçə vərəqparasında açıqdan-açığa Azərbaycan əleyhinə şiddətli tənqid yazıb camaatın ruhunu zəhərləyirdi. Bu hərif bir "Baki-nets" ilə iktifa [kifayət] etməyib, təzə bir də "Balaca qəzetə" çıxarmaq istəyir.

Yerini isti və rahat görüb başqa yerlərə və xüsusən öz vətəninə həsrət qalan bu cür həriflərin iştahasına hökumətin diqqətini cəlb etmək istərdik.

**Cəmiyyəti-Xeyriyyədə**

Bakı Cəmiyyəti-Xeyriyyəsi idarəsinin 21 mayıs iclası qətnaməsinə görə, Azərbaycan istiqlaliyyətinin səneyi-dövriyyəsi [ildönümü] – İstiqlal bayramı münasibətilə Bakı füqərasına pulsuz olaraq mayısın 28-də 3 min pud un buraxılacaqdır. Bu barədə məhəllə şuralarına da məlumat verilib, məhəllələrdə olan fəqirlərin siyahılarını cəmiyyət idarəsinə təqdim etmələri onlara tövsiyə edilmişdir. Fəqət bu günədək nədənsə bəzi məhəllə nümayəndələri öz məhəllələrində olan fəqirlərin siyahısını təqdim etməmişlərdir. Bu isə idarəni müşkül bir vəziyyətə salır. Binaənileyh [ona görə], məhəllə nümayəndələrindən xahiş olunur ki, mayısın 27-də məhəllədə olan fəqirlərin siyahılarını Cəmiyyəti-Xeyriyyənin idarəsinə təqdim etsinlər.

Cəmiyyəti-Xeyriyyənin idarəsi Nikolayevski və Spasski küçələri küncündə, Krasilnikovun iki nömrəli mülkündədir. İdarə hər gün səhər saat 10-dan 2-ədək, axşam saat 5-dən 8-ədək açıqdır.

- Mayıs ayının 25-də Mirzəağa Şükürovun sədarəti ilə və Yusif Quliyevin katibliyi ilə Azərbaycan Posta və Teleqraf Qulluqçuları İttifaqı idarəsinin iclası vaqe oldu. İclas kəsrəti-ara [səs çoxluğu] ilə Azərbaycanın səneyi-dövriyyəsini bayram etməyi qət edib böylə qərara gəldi ki, bulvarda bir neçə teleqraf aparatı vəz edib [yerləşdirib], xüsusi bir oyun tərtib versin. O oyunda iştirak edən möhtərəm zatlar Bakı Baş Teleqraf İdarəsində Mirzəağa Şükürovdan və İsmayıl Hacıyevdən hər gün saat 9-dan 2-ə kimi müfəssəl məlumat ala bilərlər.

Yeni Kabinə təşkilindən sonra təsdiq edilmiş olan həman İttifaq o gün sabiq Post-Teleqraf naziri Aslan bəy Səfikürdlüyə Mirzağa Şükürov və Yusif Quliyev vasitəsilə bir ünvan təqdim etməyi də təhti-qərara almışdır.

**Təshih**

Dünkü qəzetəmizdə Əxzi-Əsgər [Əsgərliyə Çağırış] İdarəsi elanında bir xəta olmuşdur ki, təshihinə əcələ ediriz [dərhal düzəldirik]:

3-cü polis dairəsi Buzovna kəndi üçün may ayının 26-sı təyin edilmişdir. Məşqət [Maştağa] kəndi üçün isə may ayının 29 və 31-i.

## AZƏRBAYCANDA

**Şəkidən**

Əhəmiyyəti-mövqiyyəsi cəhəti ilə ticarətdə ən mühüm rol oynamağa şayan [layiq] demək olan Şəki şəhəri ötədən bəri bir çox tərəfdən nəzafət [təmizlik], vergi və idarə cəhəti ilə bir pək ağır müşkülata uğramışdır. Böylə ki, bələdiyyə üçün bu vaxta qədər mütədavil olan intixabatın [keçirilən seçkilərin] ədəmi-intizam [intizamsız olması] ilə hal və cərəyana müvafiq olmamasından, Bələdiyyə İdarəsi bu vaxta qədər Şəki üçün heç bir mənfəəti mövcib olmayaraq, biləks [əksinə], bir çox zərərlər iras etmişdir [əmələ gətirmişdir]. Məzkur [adı çəkilən] idarə şimdiyə qədər başdan-başa tədabiri-ictimaiyyə və idarəyə aşina olmayan sadədillər ilə dolu olaraq, onlar da ancaq quru bir nam [ad] ilə bir çox sui-istemalatla [sui-istifadələrlə] uğraşmışlardır. Fəqət mühitin iqtizası [ehtiyacı, tələbi] ilə Şəki şəhərinin bütün həyat və məmatı [həyatı və ölümü] bu idarənin fəaliyyətindən asılıdır. Binaənileyh [ona görə], Şəki Bələdiyyə İdarəsi burasını gözəlcə düşünməlidir. Məzkur idarə Şəkidə ihdas olunalıdan [yaradılandan] bəri intixabatın, müntəxiblərin [seçilmişlərin] göstərdiyi işlərin heç bir faydası olmamasına məbni [görə], bələdiyyədən razı qalacaq bir nəfər belə təsəvvür olunammaz. Əksinə olaraq xalq tərəfindən bu xüsusda daima bir çox tənqidat ilə dedi-qodulara təsadüf olunmaqdadır. Bələdiyyə İdarəsinin quruluşu əlbəttə bir çox mənafeyi mövcib [mənfəətlərə səbəb] olacaqdır. Yalnız şu qədər var ki, nə qədər gözəl bir idarə olursa-olsun, müdir sui-istemal edərsə, qəvaidi [qanunları] mövcib olmasından sərf-nəzər bir çox əngəllər törədə bilər. Necə ki, böylə də olubdur.

Şəki şəhərinin bütün cərəyanına [gedişatına] bir uçurum demək olan böyük bir mənbeyi-müxatirə [təhlükə mənbəyi] var ki, o da şimdiki zamanlarda yaxud bir az zaman sonra Kiş çayının daşması ilə ətrafı, yəni şəhərin bir çox hissəsini basmasıdır. Bu xüsusda, yəni daşqın müxatirəsinin [təhlükəsinin] önünü almaq üçün bu vaxta qədər ciddi bir tədbir görülməyib, yalnız müxtəlif zamanlarda orada bənd yapılması üçün təşəbbüsatda bulunulmuşsa da, o da ora üçün təxsis olunan [ayrılan] məbləğin yerinə sərf olunmayaraq, bir taqım cənabların həzmi-rabeindən keçməsi ilə xitam bulub, orada mənfəət iras edəcək [əmələ gətirəcək], daşqını durduracaq heç bir şey yapılmamışdır. Bu üzdən Şəkinin nisfi [yarı] hissəsinin təhlükədə olduğu nəzərə alınaraq Məclisi-Məbusan tərəfindən şu böhranın rəfi [aradan qaldırılması] üçün 211. 000 manat məzkur Bələdiyyə İdarəsinə istiqraz edilmişdir. Bu babda biz Şəki Bələdiyyə İdarəsinin nəzərini yalnız bir nöqtəyə cəlb ediriz. Bələdiyyə İdarəsi şəhərin halını və təhlükənin ağır olmasını nəzərə alaraq, bu xüsusda nə yapmaq lazım isə həpsini yapmağa girişib, paranı mümkün qədər yerli-yerinə sərf etməli və bir taqım iş görməyib də yalnız kəndisinə tapşırılan vəzifəni sui-ifa ilə bu qisim pulları udan cənablara həvalə etməməlidir.

Bundan maəda [bundan başqa], Bələdiyyə Şəkidə ötədən bəri bütün şiddəti ilə hökmfərma olub da [hökm sürüb də] əhalini qırıb-tökən xəstəliklə mübarizə ilə qüvveyi-mənəviyyələri hər cəhətcə qırıq camaata bir çox müavinətdə buluna bilərdi. Türklər Qafqaziyada ikən Hilali-Əhmər [Qırmızı Aypara] cəmiyyəti təşkili üçün külli para yığıldıqdan maəda, məmul olan [arzulanan] məqsədi əmələ gətirmək üçün üşrdən də bir miqdar əlavə toplanmışdı. Bu para ilə o zamandan təşəbbüs olunsaydı, mükəmməl bir xəstəxana açılardı ki, bu üzdən də xalqın bir çoxu əcəli-müəlləq ilə [vaxtsız] bərhəva [puç] olub getməzdi. Bu yapılmamış və paranın da nərəyə sərf olunduğu məlum deyildir.

Məlumdur ki, irəlidən yay fəsli gəlir. Havanın sıcaqdan pozulması, küçələrin natəmizliyi bir çox müsri [yoluxucu] xəstəliklərin vüqu bulması məlhuzdur [təsəvvürə gəlir]. Bu qisim sari [yoluxucu] xəstəliklərə meydan verməmək üçün şəhərin nəzafətinə [təmizliyinə] və natəmizliklə mübarizə edərək küçələrin təmizlənməsinə diqqət etmək icab edir [gərəklidir]. Bu xüsus üçün hökumət tərəfindən 200 min manat istiqraz edilmişsə də, Bələdiyyə İdarəsi ödəyəmməmək qorxusu ilə almayır. Bizə qalarsa, Bələdiyyə İdarəsi bu miqdarı dərhal alaraq, bu məhzurun rəfinə [təhlükənin aradan qaldırılmasına] çalışmalıdır. Xalqın qırıldığı artıq kifayətdir.

Bütün bu mülahizat [mülahizələr] ilə bərabər, Şəki şəhəri bütün cəhətcə əhalisinin nizam və asudəliklə yaşamaq üçün Bələdiyyə İdarəsinin təşəbbüsat və fəaliyyətinə ərzi-ehtiyac edib durur. Ümid ediriz ki, yeni intixab olunan Bələdiyyə İdarəsi heyəti ehdasında mütəsəvvər olan [yaradılması əsnasında nəzərdə tutulan] mənafeyi tövlid və intac edəcək [meydana gətirəcək və hasil edəcək] bir tərzdə təşkil olunar da, şəhərin hər cəhətcə təmizliyi, müsri xəstəliklərin rəfi, küçələrin genişlənməsi, ümumiyyətlə şəhərin abad və məmur olması üçün nə yapmaq lazım isə həpsini yapar. Bununla da şəhərin bütün müşkülatı rəf olunaraq işlər hali-təbiisinə [təbii halına] düşüb kəndi yolunda cərəyan etməyə başlar.

*Əbdürrəhim Ağakişizadə*

**Cavanşirdə**

İçində olduğumuz 1337-ci sənə əvvəlindən bugünkü günə kimi, başdan-ayağa bir əmraz [xəstəliklər] sənəsi və səfhə[si] [dövrü] olduğu gərək hamıya məlum olsun. Zira ki, evdə beş nəfər varsa, beş nəfər də dəfələrlə növbənöv naxoşluğa giriftar olub, bəlkə heç ev olmayıb ki, bir nəfər ya iki nəfər də vəfat etməsin. Ol sənədən bu bir ay yarıma qədər keçənə kimi əsla hökumət tərəfindən buna bir binagüzarlıq [tədbir] görməmişik. İlla bir ay yarım olar ki, bizim Xələfrəddin və Ağcabədi, Kəbirli, Qaradolaq, Əfşar, Xocavənd camaatına bir-iki nəfər feldşer göndərilib. Amma əvvəl sənədən bu hala kimi cənab Mirqəvvam Ağamirov təbib ki, İran darülfünununda təhsil buyurublar, bu 4-cü mahala, bəlkə Göyçay uyezdinin də bəzi qəryələrinə lazımeyi-təbabət nə isə edib və geri durmayıb, bəlkə çoxlarına məccanən [pulsuz] təbabət edib və xoşqədəm, xoşmüalicə də olub. Hətta bəzilər o cənaba deyib ki, bu naxoşluq müsridir [yoluxucudur], bir qədər özünü gözlə. Onlara cavab verib ki, təbib naxoşdan qaçmağı bənzər ərkani-hərb [sərkərdə] qoşunu qoyub qaçmağa. Allah bəlalərinə ömür versin və əmsalın çox eyləsin.

*Mirzə Səttar Fəzləliyev*

**Salyandan**

Bu mayıs ayının 9-da Realnı məktəbi nəfinə [xeyrinə] olmaq üzrə Xıllı qəsəbəçəsində teatro tamaşası vermək üçün müvəzzəf [tapşırıq verilmiş] olaraq göndərilmişdim. Məzkur [deyilən] tarixdə Salyan həvəskarları iştirakı ilə göstərilən bu tamaşa nəhayət dərəcədə gözəl keçmişdir. Pərdə açılmadan Azərbaycan istiqlaliyyəti və onun vəsailindən [vasitələrindən, yollarından] bəhslə, tərəfi-acizanəmizdən olmaq üzrə bir nitq irad edilmişdir. Məclisdə hazır olub da istiqlaliyyətimiz uğrunda məcruh qalan [yaralanan] Məhəmməd çavuş namında bir türkün nəfinə bir dəmət çiçək müzayidəyə vəz edilmişdir [auksiona qoyulmuşdur]. Müzayidədən 2 min manat hasil olaraq filməclis [məclisdə] kəndisinə tövdi olunmuşdur [verilmişdir]. Hasilati-ümumiyyə 10550 manat, məsarifat 3549 manat, xalis varidat 7001 manat olmuşdur. Bu tamaşanın tərtib edilməsi və paraların toplanması xüsusunda bizə maddi və mənəvi yardımlar edən zəvati-möhtərəməyə [möhtərəm şəxslərə] və baxüsus nahiyə müdiri Mirzə Məhərrəm Lələyev, yüzbaşı Abbas əfəndi Mehmanov və Mehman əfəndi, Xəlil Əbilov, Mirmustafa Tağıyev, Mirzə Həsən ağa və Mirzə Nəcəfqulu əfəndilərə ərzi-təşəkkür ediriz.

*[Rüstəm] İskəndərzadə*

## TEATRO VƏ MUSİQİ

**Axırıncı tamaşalar**

Bu il Hökumət Teatrosunda drama, opera və operetta tamaşaları göstərən Hacıbəyli Qardaşları Müdiriyyətinin teatro mövsümü bu günlərdə qurtarır. Axırıncı tamaşalar bunlardır:

Bu gün axşam, mayın 27-də "Arşın mal alan" operettası, çaharşənbə [çərşənbə] günü mayın 28-də Azərbaycan istiqlaliyyətinin səneyi-dövriyyəsi [ildönümü] münasibətilə axşam Hökumət Teatrosunda "Leyli və Məcnun" operası ilə "Azərbaycan" faciəsi mövqeyi-tamaşaya qoyulacaqdır. Bundan əlavə, mayın 28-də İstiqlaliyyət bayramı münasibətilə səhər saat 9-da Hacıbəyli qardaşlarının hamı artistləri bəzəkli avtomobildə və süvari musiqi dəstəsi Azərbaycan və milli marşları, xorları oxuya-oxuya və tarixi qəhrəmanlardan Teymurləng, Çingiz Xan, Ağa Məhəmməd Şah Qacar, Şah Abbas, Şeyx Şamil, Bakı, Şəki, Şirvan, Gəncə, Salyan, Quba, Qarabağ xanları libasında artistlər geyinib qoşun əhli ilə bərabər Hökumət Teatrosundan hərəkət edib şəhər küçələrini keçdikdən sonra Məclisi-Məbusan bərabərinə gələcəkdir. Burada Parlamanı ziyarət və təbrik etdikdən sonra yenə şəhərin müsəlman hissəsini gəzə-gəzə teatroya övdət edəcəklər [qayıdacaqlar].

Bundan əlavə, Hacıbəyli qardaşlarının artistləri dənizdə lotkada [qayıqda] da seyr edəcəklərdir. İstiqlaliyyət bayramını təntənəli bir surətdə keçirməkdən ötrü Müdiriyyət neçə vaxtdır ki, çalışmaqdadır.

Mayın 30-da axşam axırıncı tamaşa olaraq "Aşıq Qərib" operası mövqeyi-tamaşaya qoyulacaqdır.

Bu tamaşalardan sonra teatro mövsümü sentyabr ayına qədər qapanır. Yuxarıda göstərilən tamaşaların biletləri indidən teatro kassasında satılmaqdadır. Tamaşalar düz axşam saat 8-də başlanacaqdır.

## İDARƏYƏ MƏKTUB

Müdiri-möhtərəm, bu neçə kəlmənin dərcini rica edirəm.

"Azərbaycan" qəzetəsinin 13 mayıs tarixli 179-cu nömrəsində Siyəzən yüzbaşısından şikayət yazıldığını nəzərə alıb, tamamilə yalan olduğunu bildirmək istəyirik. Böylə ki, məzkur [deyilən] camaatın yüzbaşısı Balaəli Zülfüqar oğlu həqiqət öylə bir zatdır [şəxsdir] ki, dürüst və səmimi-qəlblə qulluq edir və heç kəsə təfavüt qoymayır. Bilafərqi-dövlətli, kasıb, biganə və ya dost, əqrəba [dövlətli-kasıb, yad adam yaxud dost-əqrəba fərqi qoymadan] hamıya bir nəzərlə baxır. Bu səbəbə, böylə şeylər qiymətli yüzbaşımızı bihörmət etməkdədir. Hərgah, filhəqiqə [həqiqətən] fövqdə [yuxarıda] zikr olunan camaatın yüzbaşısı doğrudan yazılan hərəkətlərdən birisini qəbul eyləmiş olsaydı, əlbəttə şikayət edənlərin adları zikr olunardı. Əlbəttə ki, hər kəs öz qulluğunu dürüst yerinə yetirsə, heç kəsə xoş gəlməz. Bu babətdə rica edirik həmin fəqərə [hadisə] haqqında polis istintaqı olsun. İftira edən və yaxud müqəssirə mücazat olsun [cəza verilsin], ta ki qeyrilərə də ibrət olsun. Ümidvarıq müzayiqə olunmaya [əsirgənməyə].

*Nardalan vəkilləri:*
*Baba Həmid oğlu,*
*Baxış Bəydəmir oğlu.*
*Qara Siyəzən vəkil[lər]i:*
*Ələkbər Nəzər oğlu,*
*Kərbəlayı Gülhüseyn Mahmud oğlu.*
*Ağ Siyəzən vəkilləri:*
*Malik Ağamoğlan oğlu,*
*Ağadadaş Ağakişi oğlu.*
*Zərkəri vəkilləri:*
*Məşhədi Əlihüseyn Molla Mahmud oğlu,*
*Nəcəfqulu Sadıq oğlu.*
*Mən, Siyəzən icmasının ruhani mollası Molla Şirin həmin adları öz dəst-xəttimlə təsdiq edirəm.*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

Doktor **M.M.Kərimov** göz naxoşlarını və diş həkimi **A.Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Doktor**
**S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Doktor**
**M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Diş müalicəxanası və süni diş laboratoriyası. Adres: Sisyanovski (Ləzginski) və Çadrovı küçələrin küncündə nömrə 41. Telefon 22-07. Qəbul edir səhər saat 6-dan 8-ədək; səhər saat 11-dən 2-yədək; axşam saat 4-dən 8-ədək. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

*8779*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-132*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti məzbur Nəzarətdən bu günə qədər ənvayi ərzaq və malların, neft və neft emalatından qeyri, istər əcnəbi məmləkətlərə, istər Azərbaycan dairəsinə aparılmalarına dair verilən və vaxtı göstərilməyən bütün icazələrin bugünkü gündən etibarən bir ay vaxt[ı] olduğu bununla ümuma elan edilir.

*Nazir müavini: Y. Əliyev*
*Kargüzar (imza)*
*T-138*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Elan***

Farsca. Mənası:

"Əlahəzrət Sultan Əhməd şah Qacarın (Allah onun mülkünü və səltənətini əbədi etsin) tacqoyma mərasimi münasibətilə 27 şəban çərşənbə günü, Ali İran Dövlətinin konsulluğunda səhər saat 10-dan günortadan sonra saat 2-yə kimi rəsmi qəbul keçiriləcəkdir. Bütün iranlıların o gündə tacqoyma mərasimində iştirak etməsi vacibdir.

Ali İran Dövlətinin konsulu Məhəmməd Səidülvüzəra."

***Mühüm dəqiqələrdə***

"X. İ.": bu imza Xəlil İbrahimə məxsusdur.

***Xəzər dənizində***

"hidroplan": su səthinə enə bilən və su səthindən qalxa bilən təyyarə, hidrotəyyarə.

***Sülh ətrafında***

"tainki nota verməyə fürsəti olsun": qəzetdə belə getmişdir: "tainki (6) nota verməyə fürsəti olsun".

***Qəzetələrdən***

"Parisdə Erməni Konfransı": 1919-cu ilin fevral-aprel aylarında Parisdə yığışan və Paris Sülh Konfransına təqdim etmək məqsədi ilə ermənilərin tələblərini hazırlayan Erməni Milli Konfransı nəzərdə tutulur.

***Konfrans dolayısı ilə: Zaqatala məsələsi***

"fövqdə göstərdiyim müxtəsər və məşhur məsəl": deyilən "məsəl" qəzetdə getməmişdir.

"Ertoba": Gürcü dilində "birlik" deməkdir. Gürcülər bu adla qəzetlər buraxmış, mədəniyyət mərkəzləri qurmuşlar.

"müttəhim (?) müsəlmanlara": sual işarəsi qəzetdə getmişdir.

***Dağıstan əhvalı***

"Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

***"Yüz il idi" şeiri***

üçün lüğət:

teyyib: saf, təmiz

məsrur: sevincli

"Yüz il idi hürr nurunu bu vətənə saçmayaraq": bu misrada şeirin vəzni pozulmuşdur.

"Böyük Cavad, Şamillərin qulaq verin səsinə": Rusiya imperiyasının işğalçı orduları ilə qəhrəmanca döyüşmüş Gəncə xanı Cavad xan və Qafqaz dağlılarının rəhbəri Şeyx Şamil nəzərdə tutulur.

***Vükəla Şurasında***

"Astraxanka": Şamaxının kəndi; indiki Qızmeydan kəndi.

***Mətbuat***

"Şeyx Uzun Hacıları, Şeyx Əli Hacıları": Dağıstanın ictimai-siyasi xadimləri Uzun Hacı Saltınski və Əli Hacı Akuşinski nəzərdə tutulur.

***Bakı xəbərləri***

"Boji promısel": (yaxud Allah mədəni) indiki Neftçala rayonunun Tatar-məhlə kəndində XIX əsrin əvvəllərində yaradılmış balıqçılıq müəssisəsi.

"barkaz": (yaxud barkas) əsasən liman daxilində istifadə edilən kiçik ölçülü gəmi.

"Martınov": 1909-1916-cı illərdə Bakının Bələdiyyə sədri olan Pyotr İvanoviç Martınov nəzərdə tutulur.

***Azərbaycanda***

"üşr": əkinlərdən məhsulun onda biri miqdarında alınan vergi.

"1337-ci sənə": burada tarix hicri təqvimlə göstərilmişdir; miladi təqvimlə 1918-1919-cu illərə uyğundur.

"evdə beş nəfər varsa": qəzetdə belə getmişdir: "evdə bir nəfər varsa".





# Vətən deyəndə...





Tarix yazan oğullar

## “Vətən sağ olsun” deyib yolunda can verən qəhrəman

**Xeyrulla Xalidə xanımla Mais kişinin övladlarının ilki idi. O, dünyaya gələndə qohum-əqrəba gənc ailənin başına yığışıb qurbanlıq qoç da kəsmişdilər...**

Təbrikə gələnlər "ilk övladın oğul olması yaxşı əlamətdir, oğul düşmən çəpəridir", - deyərək valideynlərə gözaydınlığı vermişdilər...

İlk ovladın sevincini yaşayan Mais kişi də, Xalidə xanım da onların sevinclərinə şərik olanlara minnatarlıq edib "bizim dostumuz var, düşmənimiz yoxdur. Elə oğul tərbiyə edəcəyik ki, onun da düşməni olmasın", - deyirdilər. Körpəyə Xeyrulla adını qoyanda da "oğul, xeyirxah əməllərinlə həmişə bizi sevindirəsən", - demişdi valideynləri...

Xeyrulla Bakıda doğulsa da, ataanası tarixin min illərini geridə qoyan qədim  Basqal kəndindən idilər. Fürsət düşən kimi gözlərinin ilkini də götürüb doğma kəndlərinə gedərdilər. İsmayıllının sıldırım qayalarını, buz bulaqlarını, gözoxşayan mənzərəsini, tarixin qədim yadigarları olan abidələrini Xeyrullaya göstərib "bura vətəndir, yaxşı oğul da onu göz bəbəyi kimi qorumalıdır", - deyərdilər...

Aylar, illər sürətlə bir-birini əvəzləyirdi. Xeyrulla da böyüyüb bir oğul olmuşdu ki, iki göz istəyirdi boy-buxununa, qamətinə tamaşa etsin. Dostu çox, düşməni yox idi Xeyrullanın. Hamı onu sevər, xatirini əziz tutardı. Qohum-əqrəbanın, ailənin sevimlisi, istəklisi idi.

Xalidə xanım deyir ki, "Xeyrullanın fərqli xasiyyəti var idi. Sanki həmişə harasa tələsirdi... Hərbçi olmaq onun seçimi idi. Səkkizinci sinifdə oxuyanda hərbçi olacağına qərar vermişdi, dediyini edən idi".

Xeyrulla İbrahimov 1985-ci ildə Xətai rayonundakı 116 nömrəli tam orta məktəbin səkkizinci sinfini bitirib təhsilini davam etdirmək üçün Cəmşid Naxçıvanski adına Hərbi Liseyə imtahan verib qəbul olundu. 1988-1992-ci illərdə isə Xmelnitski Ali Artilleriya Komandirlər Məktəbində artilleriya ixtisası üzrə ali hərbi təhsil aldı.

Keçən əsrin 90-cı illərində yaxın qonşu bildiyimiz ermənilər əsl üzlərini faş edib xalqımızı öz dədə-baba yurdlarından zorla köçürəndə, torpaqlarımızı işğal etməyə başlayanda Vətən sevgili gənc zabitin də qanını coşdurdu. Xeyrulla "Vətənimin düşməni mənim düşmənimdir", - deyib əyninə hərbi forma geyinərək əlinə silah götürdü... Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Tərtər rayonlarının müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak etdi. Əsl vətən oğlu kimi sinəsini düşmənə sipər etdi. "Vətən, canım sənə fəda olsun. Yolundan dönsəm, üzüm dönsün", - dedi.  Qəhrəmanlığı ilə ad çıxardı, düşmənə gözdağı oldu. "Kobra" təxəllüsü ilə tanınan bu qəhrəmanın adı çəkiləndə düşmənin canına qorxu düşürdü. Düşmən "Kobra"nın öldürülməsi üçün böyük məbləğdə "mükafat" da ayırmışdı.





1992-ci ildən düşmənin canına qorxu salan qəhrəman döyüşçü 1994-cü il martın 22-də Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində ağır  yaralanır.

Vətənsevər zabitin ömür yolunu vərəqlədikcə yurdunu canından çox sevən bir igidin ömür salnaməsi gözümüz önündə canlanır. 1993-cü il noyabrın 1-dən 1993-cü il yanvarın 18-nə qədər Hərbi Hava Qüvvələrinin (HHQ) və Hava Hücumundan Müdafiə Qoşunlarının (HHM) sərəncamında olan Xeyrulla İbrahimov 1994-cü il yanvarın 18-dən 1997-ci il mayın 14-nə kimi Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə Artilleriya Divizionunun, 1997-ci il mayın 14-dən 1998-ci il noyabrın 1-nə qədər isə həmin hərbi hissədə Haubitsalı Artilleriya Divizionunun komandiri vəzifəsində xidmət edib. 1998-ci il noyabrın 1-dən 1999-cu il iyunun 29-na qədər Abşeron rayonunda yerləşən 4-cü Ordu Korpusunda artilleriya rəisi vəzifəsində çalışıb. Sonra Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyasında dinləyici olub. 2000-ci il iyunun 30-da mayor hərbi rütbəsinə yüksəlib və 2000-ci il iyulun 26-dan 2003-cü il sentyabrın 30-na qədər Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə komandir müavini, 2004-cü il aprelin 1-nə qədər həmin hərbi hissədə komandirin MTT üzrə müavini - MTT bölmə rəisi vəzifəsində xidmət edib. 2004-cü il iyunun 30-da Xeyrulla İbrahimova polkovnik-leytenant hərbi rütbəsi verilib. O, əvvəlcə Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissənin, sonra isə 2009-cu il iyulun 25-dən 2011-ci ilə qədər Naxçıvan şəhərində yerləşən "N" sayı hərbi hissənin komandiri olub. Xeyrulla İbrahimov hərbi qulluqda xidmət edən zaman üzərinə düşən vəzifəni layiqincə yerinə yetirdiyi üçün müxtəlif medallarla təltif olunub.

Xalidə xanım göz yaşı içində sanki gözünün ilkinin  ömür kitabını vərəqləyir:

- Xeyrulla hərbçi olduğu üçün bir az gec ailə qurub. Bir gün dedim ki, ay bala, ananın arzusu oğul toyunda oynamaqdır. Vətənin keşiyində belə qeyrətlə duran oğul bir el qızının da namusunu qeyrətlə çəkməlidir. Gəl səni evləndirək. 1998-ci ildən Pərvanə ilə ailə qurur. Ləman adında bir qızı, Anar adında da  bir oğlunu yadigar qoyub getdi talesiz balam. Həyat yoldaşı xərçəng xəstəliyindən 2020-ci ildə müharibədən az əvvəl - iyun ayında vəfat etdi. Ömür-gün yoldaşının yoxluğu da balamı çox sarsıtdı.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Xeyrulla Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan polkovnik-leytenantı kimi Müdafiə Nazirliyinə müraciət edərək könüllü olaraq Vətən uğrunda döyüşmək istədiyini bildirir. Döyüşlərdə ad çıxaran "Kobra"nı Müdafiə Nazirliyində yaxşı tanıyırdılar. Dərhal onun  müraciətinə baxılıb 4-cü Ordu Korpusuna artilleriya rəisi vəzifəsinə təyinat verirlər. O, Ermənistan ordusunun canlı qüvvələrinin, dayaq məntəqələrinin məhv edilməsi zamanı xüsusi olaraq fərqlənir. Xeyrulla İbrahimov artilleriyanın sirlərini yüksək səviyyədə mənimsəyən və döyüşdə tətbiq etməyi bacaran zabitlərimizdən idi. Nəzəriyyəni təcrübədə tətbiq edən artilleriya ustası düşmənin hərbi obyektlərinin dəqiq koordinatlarını müəyyən edirdi.



Vətən müharibəsində qəhrəmanlıq dastanı yazan Xeyrulla İbrahimov Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə düşmənin canlı qüvvəsini məhv edərək çoxsaylı hərbi texnikasını ələ keçirmişdi. Xeyrulla İbrahimov oktyabrın 26-da Xocavənd döyüşləri zamanı şəhid olmuşdu. İkinci Şəhidlər xiyabanında dəfn edilmişdi.

Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Xeyrulla İbrahimov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

Xeyrulla İbrahimov komandirlərə xas, dərin hərbi bilik, döyüşdə hadisələrin gedişini əvvəlcədən duyub lazımi tədbirlər görmək qabiliyyətinə malik hərbçi idi. O, tabeliyindəki şəxsi heyətə qarşı ədalətli və qayğıkeş bir komandir kimi davrandığı üçün qulluq etdiyi hərbi hissələrdə əsgər və zabitlərin böyük ehtiramını qazanmışdı. Xeyrulla cismən dünyasını dəyişsə də, əbədiyaşar qəhrəman kimi dostlarının, tanıyanların, ümumiyyətlə, xalqımızın qəlbindədir. İllər keçəcək, qərinələr ötəcək, qan yaddaşımızda onun kimi qəhrəmanlarımız əbədi yaşayacaq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Yeni nəşrlər

## Mənəvi dünyamıza düşən ədəbi-bədii işıq




**Həyat həqiqətlərinin bədii ifadəsi olan əsərlər oxucusunun həm düşüncələrini formalaşdırır, həm də xarakterini. Düşüncə ilə xarakter mahiyyət baxımından sosial normaları müəyyənləşdirdiyinə görə yaxşı əsər bilavasitə sosial missiyanı yerinə yetirir.**

Vahid Məhərrəmov jurnalistdir, yazıçıdır. Müşahidə etdiyi faktları, hadisələri bədii materiala çevirməyi bacarır, bunu həm də bədii təfəkkürlə cilalaya bilir. Onun nəşr edilmiş kitabları Azərbaycan nəsrinin son illərinin uğurları sırasındadır. Əsərlərinin mövzusu da, bədii səviyyəsi də diqqətçəkəndir. Yenicə çapdan çıxmış "Cıdır düzündə Zəfər bayrağı" kitabındakı hekayə və esseləri də bədii dəyəri ilə seçilən və sevilən əsərlərdir.

Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının tarixi ötən əsrin sonları ilə səsləşmir, bu tarixin kökləri daha qədimdir, daha dərindir. Ermənilər ərazi iddiası ilə bir sırada mədəniyyət abidələrimizi, incəsənətimizi, mədəniyyətimizi mənimsəməyə həmişə maraqlı olublar, bunu müəyyən mənada, şəbəkəli fəaliyyətə çeviriblər. Vahid Məhərrəmov belə bir gerçəkiliyi ədəbiyyata gətirə bilib. "Gümüş kəmər" hekayəsinin mövzusu həyatdan götürülsə də, bədiiləşdirmə onu olduqca gərəkli bir mahiyyətlə tarixləşdirib. Yazıçı bu hekayəsində erməniliyin nələrə əl atdığını, onların nələri qamarlamaq, mənimsəmək istədiyini, bəşər mədəniyyətini necə saxtalaşdırdığını bədii sözün qüdrəti ilə göstərib. Hekayənin finalı saxtakarlığa, bu anlamda erməniliyə incə bir xəbərdarlıqdır: saxtakarlığın sonu olmur!

Sadə süjet mürəkkəb bir prosesin yönümünün axarına dönür - ermənilər  kənd-kənd gəzib qızıl-gümüş, mis məmulatlarını, qədim xalı-xalçaları satın alıb aparır, üzərində olduqca incəliklə xırda-para düzəlişlər etməklə onları erməniləşdirirdilər. Vahid Məhərrəmovun "Gümüş kəmər" hekayəsi ermənilərin mədəniyyətimizin keçmişinə bugünkü təxribatlarının bədii ifadəsi olmaq baxımından gərəkli əsərdir - tarixiliyi ilə, bədii həlli ilə.

Azərbaycanın son on illəri dövlətçilik tarixində müharibə dövrü kimi tarixləşib. Bu, azərbaycançılığın erməniliyə qarşı döyüşlər tarixidir, həm də ədəbiyyatımızın tarixidir. Müharibə öz əksini bədii ədəbiyyatda da tapır.

Vahid Məhərrəmov "Xəcalət ağrısı" hekayəsində müharibənin bir döyüşünü nəsrə gətirib. Bu əsər iki döyüşçü taleyi haqqında hekayədir. Hekayədə döyüşçülərin sevinci bədii boyalarla işıqalandırılıb: "Hospitalda müalicə olunan Elmar döyüşçü yoldaşlarının yanına beş gündən sonra qayıtdı. Onun sağ-salamat döndüyünü görəndə Teymurun sevinci yerə-görə sığmadı. Dostlar yenə də düşmən üzərində zəfər qazanmaq naminə çiyin-çiyinə verib döyüşürdülər..." Hekayətin davamı Vahid Məhərrəmovun söz düzümündə coşub-daşan duyğularını bir niyyətə kökləyir: Təki Vətən yaşasın!..

Kitabının adını daşıyan "Cıdır düzündə Zəfər bayrağı" hekayəsinin ideyası qəhrəmanlıq və vətənpərvərlik hisslərindən yoğrulub. Əməliyyatların birində yaralanan tabor komandiri Zəfər ürəyinin üstündə gəzdirdiyi qanlı bayrağı döyüşçü dostu Ziyaya verərək xahiş edir ki, Şuşa erməni işğalından azad olunandan sonra onu Cıdır düzündə dalğalandırsın. Ziya da şəhid zabit dostunun xahişini yerinə yetirir.

"Üçüncü görüş" hekayəsi də erməni işğalçılarının törətdikləri Qarabağ müharibəsinin insan taleyində açdığı qanlı şırımlardan, sağalmaz yaralardan bəhs edir. Müəllif hekayənin qəhrəmanı Elyananın nümunəsində müharibənin insanlara hansı ağrı-acılar yaşatdığını təsirli və inandırıcı boyalarla təsvir edir. Otuz ildən çox olan bir dövrü elə də böyük olmayan hekayəyə sığışdıra bilir.

Vahid Məhərrəmov həyat həqiqətlərini ədəbiyyata həm də analogiyalara əsaslanmaqla gətirir. Onun "Günahsız günahkar" hekayəsi bu qəbildəndir. Hekayə  əsərin qəhrəmanının mütaliəyə marağının (və sevgisinin) təhkiyyəsi ilə başlayır və onun daxili aləminin, fikir-düşüncələr dünyasının, duyğularının təsviri ilə davam etdirilir.

Fikir süzgəcindən keçirdiyi əsərlərindən açıq-aydın görünən odur ki, Vahid Məhərrəmovun nəsr yaradıcılığı çoxşaxəlidir. O, hadisənin (hadisələrin) mahiyyətinə uyğun üslub seçə bilir. "Gürcü çaxırı" hekayəsinin təhkiyəsi ilə "Mənə sevgi məktubu yaz" hekayəsinin təhkiyəsi tamam fərqlidir. Bu fərq hadisələrin yaratdığı fərq olsa da, müəllifin bu fərqə münasib forma seçə bilmə bacarığı ilə şərtlənir.

Azərbaycan nəsrində maarifçilik cərəyanı ötən əsrin əvvəlləri ilə səsləşir və sonrakı dövrlər üçün müəyyən mənada ədəbi məktəb təsirini saxlaya bilib; təhsilə sevginin yaşadılması, onun cəfakeşlərinə sevginin səmimiliyi, müəllim-tələbə münasibətlərinin sosial həyatın işığına çevrilməsi və sairə maarfçilik kimi təzahür edir. Fikrimcə bütün peşələrin ustadı müəllimdirsə, ona böyük sevgilər Haqdan gəlir. Vahid Məhərrəmovun "Müəllim" hekayəsi bu baxımdan xarakterikdir. Müəllifin müəllimə sevgisinin müəllim sevgisi kimi. Hekayədə müəllimə sevgini cəmiyyətə sevgi kimi düsturlaşdıra bilib. Şagirdmüəllim münasibətini vətəndaş-cəmiyyət münasibəti inersiyası kimi təqdim edib və bu, yeni ədəbi yanaşma kimi diqqətəlayiqdir. "Müəllim" hekayəsini mənəvi dünyamıza düşən ədəbi-bədii işıq da adlandıra bilərik. Axı "səndədir, məndədir müəllim ömrü..."

Müəllifin müxtəlif illərdə yazdığı və "Cıdır düzündə Zəfər bayrağı" kitabına daxil etdiyi  "Səid", "Babamın çomağı", "Tələbə", "Əsl Hacı", "Atla uşağın dostluğu", "Mənə sevgi məktubu yaz", "Quşların qənimi", "Pantomim" hekayələri, həmçinin müxtəlif mövzularda yazdığı "Ürəklər, ürəklər", "Çiçəklər çiçəyi", "Ağaclar çiçəkləyəndə", "Ana torpaq, ana Vətən", "Zəfər həmrəyliyi", "Vətən torpağını öpən dodaqlar", "Baxışlar, baxışlar" və başqa esseləri bədii dəyəri ilə seçilir. Bu və bu kimi hekayələr, esselər müasir nəsrimizin səciyyəvi əsərləri kimi oxunacaqdır. Əsərlərdən aydın görünən odur ki, yazıçı təxəyyülü həyatı söz vasitəsilə ədəbiyyata gətirə bilib.

*Rəşid FAXRALI,*
*Əməkdar jurnalist*

Vətənpərvərlər

## "Kiçik yaşlarımdan ürəyimdə ordumuza böyük sevgim olub"



**Dövlət başçısının sərəncamı ilə iyul ayının 1-dən başlayaraq gənclər Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirmək üçün böyük ovqatla ordu sıralarına yola düşürlər.**

Onlar İkinci Qarabağ müharibəsində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında torpaqlarımızı işğaldan azad etmiş şanlı Azərbaycan Ordusunun sıralarında xidmət keçəcəklər. Cəsur, mübariz, igid, qorxmaz zabit və əsgərlərimizin qəhrəmanlıq ənənələrini uğurla davam etdirəcəklər. Xidmət müddəti ərzində üzərlərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gələcəklər.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin Şəhərsalma fakültəsini yüksək nəticələrlə başa vurmuş gənc Raul Əliyev də bu gün ordu sıralarına yola düşən oğullardan biridir. Söhbət zamanı dedi ki, Vətənin hər birimizin ürəyində öz yeri var: "Buna görə də Vətənə xidmət etmək, onun keşiyində dayanmaq hamımızın  müqəddəs borcudur. Həmyaşıdlarımla bərabər mən də bu gün böyük həvəslə o borcu yerinə yetirməyə gedirəm. Hələ kiçik yaşlarımızdan Vətənin doğmalığının, onun gözəlliyinin, "Ana torpaq" kəlməsinin qəlbimizdə yaratdığı istiliyi dərindən duyuruq, hiss edirik. Qoynunda dünyaya göz açdığımız torpağın üstündə addımladıqca qollarımıza qüvvət, ürəyimizə təpər gəlir. Böyüdükcə dərindən dərk edirik ki, biz bu ölkənin vətəndaşlarıyıq, bu torpağın övladlarıyıq. Bütün varlığımızla, bütün qətiyyətimizlə bu yurda, bu torpağa, ana Vətənimiz - Azərbaycanımıza bağlıyıq. Yaxşı xatırlayıram ki, yeniyetməlik və gənclik illərində təhsil aldığım məktəbdə  keçirilən "Üfüqdə parıltı", "Şahin", "Cəsurlar" hərbi vətənpərvərlik və  turizm oyunlarında fəal iştirak edir, daim fiziki hazırlığımızı artırırdıq. Bu hərbi idman oyunlarında iştirak edərək özümüzü ordu sıralarına hazırlayırdıq. Müəllimlərimizin tez-tez təkrar etdikləri: "Deməyin Vətən mənim  üçün nə edib, deyin ki, mən Vətən üçün nə etmişəm!" sözləri əbədi olaraq yaddaşımıza yazılıb. Bu sözlər bizim həyat amalımıza çevrilib. Müəllimlərimizin dönə-dönə söylədikləri həqiqətən çox dəyərli və qiymətli sözlərdir. Vətəni yaşadan da, onu ucaldan da, şərəfləndirən də, qoruyan da, dirçəldən də bizlərik, onun övladlarıyıq. Vətənin hər qarış torpağı bizim üçün müqəddəs və əzizdir. Bu gün çox qürurluyam ki, Vətənə əsgər olmağa, hamımız üçün müqəddəs və əziz olan torpaqlarımızın keşiyində dayanmağa, onu düşmənlərdən qorumağa gedirəm".

Söhbət zamanı onu da öyrəndik ki, Raul Əliyev hərbçi ailəsində dünyaya göz açıb. Kiçik yaşlarından hərbi marş və mahnıların sədalarını eşidə-eşidə böyüyüb. Atası, ehtiyatda olan zabit Bəxtiyar Əliyev həm Birinci Qarabağ müharibəsində, həm də Aprel döyüşlərində iştirak edib, Qarabağ müharibəsi və Silahlı Qüvvələr veteranıdır. Bu gün də hərbi sahədə çalışır.

- Həyatı dərk edən gündən atamı hərbi geyimdə görmüşəm, - deyə Raul Əliyev sözə başladı:

- Ona görə də hələ kiçik yaşlarımdan ürəyimdə doğma ordumuza, hərbi formaya böyük sevgi və məhəbbət oyanıb. İndi hərbi xidmətə də bu sevgi və məhəbbətlə gedirəm. Uzun illər idi ki, xalqımız torpaqlarımızın işğaldan azad ediləcəyi, şəhidlərimizin qisasının alınacağı, qaçqınların doğma ocaqlarına dönəcəyi, ordumuzun düşmən üzərində Zəfər çalacağı günləri gözləyirdi. Çox şükürlər olsun ki, xalqımız illərdən bəri arzuladığı günü gördü. Şanlı Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında  düşmən diz çökdürüldü, 30 ilə yaxın işğalda qalmış ərazilərimiz qəsbkarlardan təmizləndi.  Zabit və əsgərlərimizin qəhrəmanlığı sayəsində qazanılan möhtəşəm zəfərlər, qələbələr nəticəsində  Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam, Laçın, Kəlbəcər, Şuşa  işğaldan azad olundu. 44 gün ərzində səngiməyən döyüşlərdə Ermənistan silahlı qüvvələrini darmadağın etdi, işğalçıları torpaqlarımızdan qovdu.

Bu gün xalqımız sevinc içində, fərəh dolu günlər yaşayır. Bu Zəfərə, bu qələbəyə görə biz hamımız Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarıq. Vətən müharibəsinin getdiyi günlərdə xalqımız Ali Baş Komandanın ətrafında sıx birləşdi, ordusunun, zabitinin, əsgərinin yanında oldu. Vətən müharibəsində qələbənin, zəfərin qazanılmasında gənclər də böyük hünər və qəhrəmanlıq göstərdilər. Biz bu cəsur oğullarımızla fəxr edirik. Xalqımıza bu xoş günləri yaşadanlara eşq olsun! Bu gün biz gənclər də böyük həvəslə doğma ordumuzun sıralarına yola düşürük. Xidmətimizin elə ilk günlərindən başlayaraq hərbi sirləri, döyüş vərdişlərini dərindən mənimsəyəcəyik. Müntəzəm olaraq keçirilən təlim-məşğələlərdə fəal iştirak edəcəyik. Torpaqlarımızın keşiyində həmişə ayıqsayıq dayanacağıq. Yurdumuzu qorumağa daim hazır olacağıq. Çalışacağıq ki, Zəfər dolu günlərimiz davamlı olsun. Nümunəvi xidmətimizlə, qazandığımız uğurlarla xalqımzı sevindirməyə çalışacağıq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Cəbrayıla köçürülən sakinlərin məşğulluq tədbirlərinə cəlb olunması davam etdirilir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi Cəbrayıl şəhərinə köçürülmüş sakinlərdən artıq 686 şəxsi məşğulluq tədbirlərinə cəlb edib.**

Onlardan 633 şəxsin rayon ərazisində məşğulluğu təmin edilib (o cümlədən rayona köçürülmüş sakinlərdən 27 nəfər üçün özünüməşğulluq proqramı üzrə kiçik təsərrüfatlar yaradılıb), 53 sakin isə peşə kurslarına cəlb edilib.

Hazırda daha bir qrup sakinin məşğulluğuna dəstək işləri aparılır. Onların məşğulluq imkanları qiymətləndirilir və hansı məşğulluq proqramına cəlb olunacaqları müəyyən edilir.




# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Çin dünyada yüksəksürətli qatarların inkişafına mühüm töhfə verəcək

**Çin Dövlət Şurasının Baş nazirin müavini Çjan Quoqin bildirib ki, geniş məsləhətləşmələr, birgə töhfələr və ümumi faydalar konsepsiyasına sadiq qalan Pekin dünya miqyasında yüksəksürətli qatarların inkişafı üçün daha çox müdriklik, texnologiya və həllər təqdim edəcək.**



AZƏRTAC xəbər verir ki, Pekində keçirilən 12-ci Ümumdünya Sürətli Dəmir Yolları Konqresinin açılış mərasimində çıxış edən Çin rəsmisi qeyd edib ki, onun ölkəsi innovasiyaya əsaslanan inkişafa sadiqliyi ilə dünyanın ən böyük sürətli dəmir yolu şəbəkəsini inşa edib və yüksəksürətli dəmir yolu texnologiyasında qlobal liderə çevrilib. Onun sözlərinə görə, bu nailiyyətlər səyahətlərin rahatlığını xeyli yaxşılaşdırıb, regional əlaqələrə və Çinin koordinasiyalı iqtisadi və sosial inkişafına təkan verib.

Çjan Quoqin bildirib ki, Çin ikitərəfli və çoxtərəfli dəmir yolu əməkdaşlığını fəal şəkildə inkişaf etdirməklə digər ölkələrlə əlaqələri dərinləşdirməyə hazırdır və infrastruktur obyektlərinin "sərt əlaqəsini", habelə qayda və standartların "yumşaq əlaqəsini" hərtərəfli təşviq etməyə hazırdır.

Baş nazirin müavini daha fəal texnologiya mübadiləsinin vacibliyini qeyd edib. O bildirib ki, Çin yüksəksürətli dəmir yollarının tikintisi və istismarı sahəsində təcrübəsini digər ölkələrlə bölüşməyə və dəmir yolu sektorunda qabaqcıl texnologiyaların geniş tətbiqini birgə təşviq etməyə hazırdır.

Çin rəsmisi əlavə edib ki, iqtisadi artımı daha yaxşı təşviq etmək və insanların güzəranını yaxşılaşdırmaq üçün böyük layihələrin və kiçik təşəbbüslərin həyata keçirilməsini əlaqələndirmək üzrə səy göstərilməlidir.

Pekində "Yüksəksürətli dəmiryolu: Daha yaxşı həyat üçün innovasiya və inkişaf" mövzusunda 12-ci Ümumdünya Yüksəksürətli Dəmir Yolları Konqresi keçirilir. Açılış mərasimində 60-dan çox ölkə, region və beynəlxalq təşkilatlardan 2000-dən çox nümayəndə iştirak edib.

Çin Dövlət Dəmir Yolu Korporasiyası və Beynəlxalq Dəmir Yolları İttifaqı (UIC) tərəfindən təşkil edilən bu tədbir yüksəksürətli dəmir yolu sektorunda qlobal nailiyyətləri nümayiş etdirmək, texnologiya mübadiləsinin və beynəlxalq sənaye əməkdaşlığının təşviqi üçün platforma təqdim edir.

# Xərçəngin müalicəsində daha effektiv imkanlar yaranacaq

**Təhlükəli xəstəliklərdən hesab edilən xərçəng dünyada ürək-damar xəstəliklərindən sonra ən çox insan ölümünə səbəb olan sağlamlıq problemidir. Beynəlxalq Xərçəng Araşdırmaları Agentliyinin açıqlamasına görə, hər il dünyada təxminən 19,5 milyon insana xərçəng diaqnozu qoyulur. Mütəxəssislər diqqətli olmasaq, yaxın gələcəkdə bizi böyük bir "xərçəng fırtınası"nın gözlədiyini bildirirlər. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 2050-ci ilə qədər xərçəng xəstəliyinin hər il 35 milyona çatacağını proqnozlaşdırır.**



Hər il təxminən 10 milyon insanın ölümünə səbəb olan xəstəlik orqanizmdə anormal hüceyrələrin böyüməsi ilə başlayıb sürətlə digər orqanlara yayılır. Genetik meyil, artıq çəki, tütün və spirt istifadəsi, radiasiya, hava çirkliliyi, GMO-lu qidalar, kanserogen və kimyəvi maddələr xərçəngin əsas səbəbləridir.

Hazırda mütəxəssisləri narahat edən məqam isə xərçəng xəstəliyinin gənclər arasında artmasıdır. 2023-cü ildə yayımlanan genişmiqyaslı bir araşdırma 1990-2019-cu illər arasında 50 yaşdan aşağı şəxslər arasında xərçəng hallarının 79 faiz artdığını ortaya qoyub. Xüsusilə bağırsaq xərçənginin gənc yaşlarda daha çox yayılması bu mövzunun dərinləşdirilməsini zəruri edir. Bağırsaq xərçəngi hallarının artmasında işlənmiş qida və spirtin potensial rol oynadığı irəli sürülür.

ABŞ-nin Cincinnati Universiteti Xərçəng Mərkəzinin tədqiqatçısı Cordan Kharofa bu xəstəliyin yaranmasında qeyri-sağlam pəhriz, bağırsaq mikrobiomu və onların qarşılıqlı təsirinin əsas amillərdən biri ola biləcəyini bildirir. Xüsusilə həddindən artıq işlənmiş ət və spirt istehlakı, meyvə-tərəvəz qəbulunun azalması riski artırır. Bu faktorların bağırsaq bakteriyalarının hidrogen sulfid istehsalını gücləndirərək xərçəngin yaranmasına səbəb olduğu bildirilir. Bununla yanaşı, müəyyən sağlam qidalanma vərdişlərinə malik gənclərdə də bağırsaq xərçənginin müşahidə olunması xəstəliyin səbəblərinin tam anlaşıla bilmədiyini göstərir. ABŞ-nin Ümid Şəhəri Tədqiqat Mərkəzinin onkoloqu Marvan Fakih qeyd edir ki, bəzi gənclər 33 yaşında klinikaya dördüncü mərhələ bağırsaq xərçəngi ilə müraciət edirlər ki, bu da müasir diaqnostika və profilaktika səylərinin yenidən nəzərdən keçirilməsini tələb edir. Antibiotiklərin uzunmüddətli istifadəsinin də bağırsaq mikrobiomuna təsir edərək xəstəlik riskini artıra biləcəyi ehtimal olunur.

Ağciyər xərçəngi də məkrli xəstəliyin son illər artan növüdür. ÜST ağciyər xərçəngini bütün dünyada bu xəstəliklə bağlı ölümlərin ən çox görülən səbəblərindən biri kimi müəyyən edir. Xərçəngin bu növündə tütün məhsulları ən böyük risk faktoru olsa da, yeganə deyil. Belə ki, xəstəliyə yaxalanma yalnız 85 faiz halda siqaretlə bağlıdır.

Xərçəngin inkişafı və aşkar edilə bilən səviyyələrə çatması bir gündə baş vermir. Bəzi istisnaları çıxmaqla bu proses onilliklər çəkən uzun bir "səyahət"dir. Sağlam hüceyrənin əksər orqan və ya toxumalarda xərçəngə çevrilməsi üçün yüzlərlə mutasiya baş verir, həmin hüceyrənin DNT-sində toplanır və nəzarətsiz bir şəkildə çoxalır. Bu səssiz proses bəzən 20-30, hətta 40 il çəkə bilir. Erkən mərhələdə aşkar edildikdə isə beşillik sağ qalma nisbəti 63 faizə qədər ola bilər. Ancaq gec olanda bu nisbət cəmi 8 faizə düşür. Təəssüf ki, xərçəngin yalnız dörddəbiri erkən mərhələdə aşkarlanır. Xərçəngə tutulma riski immunitet sistemi zəiflədiyi, mübarizə qabiliyyəti azaldığı üçün yaşlandıqca artır. Ən təhlükəli tərəfi isə onun simptomsuz başlamasıdır.

Hazırda xərçəng xəstəliyini önləmədə ən böyük problem onun erkən mərhələdə aşkar edilməməsidir. Önümüzdəki illərdə bütün xərçəng növləri üçün çox erkən mərhələdə belə diaqnoz qoya bilən qoruyucu/profilaktik, inkişaf edən diaqnostik metodlar və daha rasional müalicə üsullarını tapmaq şansımız daha yüksək olacaq. Sürətli elmi-texniki inkişaf nəticəsində xərçəngin müalicəsində daha effektiv üsullar yaranacaq.

Müasir texnologiyanın həyat tərzimizdə dəyişikliklərə gətirdiyi təsirlər xəstəliyin gənc nəsil arasında artmasının mümkün səbəblərindən biri kimi qəbul edilir. Həmçinin mikroplastiklərin və sonsuz kimyəvi maddələrin insan orqanizminə daxil olaraq xərçəngin inkişafına təsir edə biləcəyi də alimlərin diqqətindədir.

Mütəxəssislər xəstəliyin qarşısını erkən mərhələdə almaq üçün araşdırmalar aparırlar. Onlar DNT və gen texnologiyasındakı böyük inkişaflar sayəsində sadə qan analizləri ilə xərçəngə səbəb olan mutasiyaları çox erkən mərhələdə aşkar edərək xərçəng taramasında yeni bir üfüq açmağın ərəfəsində olduğunu bildirirlər. İngiltərəli alimlər xərçənglə bağlı daha bir yenilik edərək prostat vəzi xərçəngini daha erkən aşkarlaya bilən tüpürcək testi hazırladıqlarını açıqlayıblar. DNT nümunəsini ehtiva edən yeni testin mövcud qan testindən daha dəqiq və sürətli olduğu açıqlanıb. Üstəlik, bu testi hər kəs evdə edə biləcək, bunun üçün tibb məntəqəsinə getməyə ehtiyac qalmayacaq. Mütəxəssislər bildiriblər ki, test həm də MRT müayinəsinin "görmədiyi" prostat vəzi xərçəngini də aşkar edəcək.

Xərçənglə mübarizədə peyvəndin də böyük vədlər verdiyi bildirilir. Peyvənd immun hüceyrələrinə şiş hüceyrəsinin necə göründüyünü "öyrədir", onların aşkarlanmasına və zərərsizləşdirilməsinə şərait yaradır. ABŞ-nin Yale Universitetinin tədqiqatçıları tərəfindən hazırlanmış peyvənd doqquz böyrək xərçəngi xəstəsini tam sağaldıb. 2019-2021-ci illər arasında xəstələrə tətbiq edilən eksperimental peyvənd əməliyyatdan sonra bədəndə qalan xərçəng hüceyrələrini hədəf alıb və onları sağlam toxumalara zərər vermədən effektiv şəkildə məhv etməyi bacarıb. Yale Xərçəng Mərkəzi və Dana-Farber Xərçəng İnstitutu tərəfindən hazırlanmış bu innovativ peyvənd hər bir xəstənin bioloji quruluşu üçün xüsusi olaraq hazırlanır. 9 xəstəyə ümumilikdə 7 doza vaksin vurulub.

Peyvənddən sonra pasiyentlərdə heç bir ciddi əlavə təsirin müşahidə edilmədiyini qeyd edən mütəxəssislər onlarda yalnız yüngül qripə bənzər simptomların olduğunu bildiriblər. Peyvənd immunitet sisteminə xərçəng hüceyrələrini tanımağa imkan verən "neoantigenlər" adlı zülal fraqmentlərindən istifadə edilməklə hazırlanıb. Üç il izlənilən pasiyentlərdə xəstəliyin geri qayıtmadığı məlum olub. Alimlər bildirirlər ki, xərçənglə mübarizə istiqamətində aparılan innovativ tədqiqatlar və əldə edilən uğurlu nəticələr xəstəliklə mübarizə sahəsində böyük bir irəliləyişə səbəb olacaq.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Azərbaycanda havanın temperaturu 38 dərəcəyədək yüksələcək

**Azərbaycanda iyulun 10-na gözlənilən hava proqnozu açıqlanıb.**




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 20-24, gündüz 30-35 dərəcə isti olacağı proqnozlaşdırılır. Atmosfer təzyiqi 757 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi gözlənilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25, gündüz 33-38, dağlarda gecə 11-16, gündüz 20-25 dərəcə isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22, gündüz 30-35 dərəcə isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygölün bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 11-16, gündüz 20-25, bəzi yerlərdə 30-33 dərəcə isti təşkil edəcək.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Lakin səhərdən dağlıq ərazilərdə yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15, gündüz 19-24, bəzi yerlərdə 28-30 dərəcə isti olacağı bildirilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuzda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-24, gündüz 32-37 dərəcə isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarın bəzi yerlərində arabir qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Gündüz yağıntı tədricən kəsiləcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22, gündüz 30-35, dağlarda gecə 6-11, gündüz 20-25 dərəcə isti olacaq.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi yerlərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25, gündüz 33-38 dərəcə isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 19-23, gündüz 30-35, dağlarda gecə 17-20, gündüz 24-28 dərəcə isti olacağı gözlənilir.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşları Rüstəm Məmmədova və Elsevər Məmmədova əzizləri

**İLHAM MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3298
Sifariş 1406

Qiyməti 60 qəpik